Xalqın qəzeti!

# Xalq qəzeti

№ 109 (31078) 24 iyun 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Türk dövlətlərinin Qarabağın dirçəlişinə, inkişafına dostluq və qardaşlıq dəstəyi artır

## Türkmənistan Prezidentinin Füzuliyə və Şuşaya səfəri

### Füzuli Beynəlxalq Hava Limanında qarşılanma




**Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Füzuli rayonuna gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sərdar Berdiməhəmmədovu Prezident İlham Əliyev qarşıladı.

## Humanitar diplomatiya – strateji tərəfdaşlığa “yumşaq” dəstək



**Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iyunun 22-də mətbuata bəyanatlarla çıxışları iki ölkə münasibətlərinin humanitar diplomatiyanın, strateji tərəfdaşlığın mühüm sütunlarından birinə çevrildiyini nümayiş etdirdi.**

Prezident İlham Əliyevin “Münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub” fikri Azərbaycan–Türkmənistan münasibətlərinin yeni inkişaf modelini əks etdirir. Müasir beynəlxalq münasibətlərdə dövlətlərarası əməkdaşlığın davamlılığı xalqlar arasında formalaşan etimad və ortaq identiklik hissi ilə ölçülür.

*(ardı 8-ci səhifədə)*

## Transatlantik məkanda yenidən tənzimlənmə



Səhifə ➪ 10

## Aqrar sektorda keçidin üstün istiqamətləri

Səhifə ➪ 7

## Ermənistan: “Sülh körpüsü”, seçkilər və konstitusiya



Səhifə ➪ 9

## Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb



Səhifə ➪ 5

## Lüksemburqun Böyük Hersoqu Əlahəzrət Giyoma

**Əlahəzrət!**

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 19 iyun 2026-cı il**

## Prezident İlham Əliyevin sosial media hesablarında Sərdar Berdiməhəmmədovun Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana ikigünlük dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb.**

Paylaşımda deyilir: “Qarabağın bərpasında kömək Türkmənistanın, onun Ümummilli Liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisidir. Türkmənistan xalqına ən xoş arzular la!”.

## Türk Dövlətləri Təşkilatı ortaq kibersipər yaradır




Səhifə ➪ 8

## İrəvanda növbə kilsəyə çatdı



Səhifə ➪ 9

## ABŞ ermənipərəstliyinin Şerman sifət(sizliy)i



Səhifə ➪ 10

## Qrup mərhələsinin həlledici görüşləri başlayır



Səhifə ➪ 15

# Azərbaycan və Türkmənistan prezidentləri Qarabağda

## Füzuli təməldən dirçəldilir



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və nəzərdə tutulan işlər barədə Türkmənistan Prezidentinə məlumat verdi.

Bildirildi ki, vaxtilə sıx məskunlaşmış və inkişaf edən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. İşğaldan azad ediləndən sonra qısa müddətdə şəhərin Baş planı hazırlanıb və dövlətimizin başçısı tərəfindən təsdiqlənib. Füzuli böyük nəqliyyat-logistika potensialına malik olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Ümumi sahəsi 2 min hektara yaxın olan Füzuli şəhərinin Baş planına əsasən, 2040-cı ilə qədər burada 50 min nəfərin yaşaması nəzərdə tutulur. Müasir şəhərsalma standartlarına uyğun yenidən qurulan Füzulidə "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq.

Ali qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə də məlumat verildi.



Qeyd edilib ki, bu məscidin təməlini Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının ötən ilin oktyabrında Qəbələdə keçirilmiş 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları onlayn formatda qoyublar.

Məscid kompleksinin ümumi ərazisi 1 hektardan çoxdur. Məscidin hər biri 40 metrdən ibarət 2 minarəsi olacaq. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Məsciddə eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

## Daşaltı kəndinin fonunda tarixi anlar



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.**

## Şuşa şəhərinin I yaşayış kompleksində



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.**

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov Türkmənistan Prezidentinə kompleks barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və ümumi sahəsi 8 hektara yaxın olan bu kompleksdə iyirmi üç bina inşa edilib. Yaşayış kompleksindəki 450 mənzildən 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Kompleksdə keçmiş məcburi köçkünlər, həmçinin xidməti mənzillərdə Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər yaşayırlar. Burada genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılıb.

## Şuşa məscidinin tikintisi ilə tanışlıq



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

Prezidentin köməkçisi Anar Ələkbərov Azərbaycanın və Türkmənistanın dövlət başçılarına məsciddə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə Azərbaycan Prezidenti tərəfindən qoyulan məscid tarixi şəhərin yeni müasir rəmzi kimi ucalmaqdadır.

Zəfər Gününün rəmzi olaraq 8 rəqəmi formasında inşa edilən məscid əsas və inzibati binalardan, o cümlədən kişi və qadın dəstəmazxanalarından ibarət olacaq. Məscidin hündürlüyü 73 metr olacaq iki minarəsi Şuşanın ilin on birinci ayında azad edilməsinin rəmzi kimi 11 rəqəmini simvolizə edəcək.

Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Məscidin tikintisi "Paşa Holdinq"in dəstəyi ilə reallaşır.



Yeni inşa edilən məscid Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərinin mühüm layihələrindən biri olmaqla, Qarabağın dirçəlişini və xalqımızın milli-mənəvi dəyərlərə bağlılığını əks etdirir.

## "Heydər Əliyev və Qarabağ" sərgisində



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar.**

"Heydər Əliyev və Qarabağ" sərgisində Ulu öndərin Qarabağın siyasi, iqtisadi, sosial və mədəni inkişafında xidmətlərini əks etdirən fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda, Ümummilli liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb. Sərginin ekspozisiyası 1969-cu ildən başlayaraq Qarabağın və Şərqi Zəngəzurun tarixində başlanan böyük dönüş dövrünü ziyarətçilərə çatdırır. Doğma xalqının böyük təəssübkeşi olan dahi şəxsiyyət Heydər Əliyevin mürəkkəb tarixi şəraitdə bölgənin həyatının bütün sahələrində reallaşdırdığı geniş islahatlara dair faktlar foto və videomateriallar vasitəsilə ziyarətçilərə çatdırılır. Sərgidə ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən "İz" filmi də nümayiş olunur.

## Liderlər "Güllələnmiş büstlər"ə baxıblar



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar.**

Türkmənistan Prezidentinə işğal dövründə erməni vandalizminə məruz qalan bu büstlərin talan edilərək Ermənistana aparıldığı və metal qırıntısı kimi əridilməyə cəhd göstərildiyi barədə məlumat verildi. Məhz ulu öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində abidələr xilas edilərək Azərbaycana gətirilib. Bir müddət Bakıda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində saxlanılan bu büstlər Şuşa işğaldan azad olunduqdan sonra əvvəlki yerlərinə qaytarılıb.

# Azərbaycan və Türkmənistan prezidentləri Qarabağda

## Bülbülün ev-muzeyi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Şuşada Bülbülün ev-muzeyində olublar.**

Milli Məclisin deputatı Polad Bülbüloğlu ali qonağa Bülbülün ev-muzeyi barədə məlumat verdi. Bildirdi ki, atasının anadan olduğu və uşaqlıq illərini keçirdiyi bu ev Ulu öndərin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina tikilib. Şuşanın işğalı zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandıran ev-muzeyinin bərpasına digər tarixi-mədəni abidələrimiz kimi, qədim şəhərimizin işğaldan azad olunmasından sonra başlanılıb. Həyətdə Bülbülün yeni büstü ucaldılıb.

Bununla yanaşı, Şuşanın işğalı dövründə vandalizmə məruz qalmış büst də erməni işğalçılarının mədəni irsimizə qarşı törədilmiş cinayətlərin əyani sübutu kimi burada saxlanılır.

## Türkmənistan Prezidentinə Qarabağ atı hədiyyə edilib



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşada Cıdır düzündə olublar.**

Prezident İlham Əliyev burada Türkmənistan dövlətinin başçısına "Mərd" adlı Qarabağ atını hədiyyə edib.

## Prezidentlər Şuşada birgə nahar ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Şuşada birgə nahar ediblər.**

## Türkmənistan Prezidentinin səfəri başa çatıb



**İyunun 23-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu yola saldı.

*AZƏRTAC*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2026-cı ilin iyul ayında vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 2 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 3, 10, 24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7, 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 2 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 4 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 7 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 8 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 31 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır. Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abdullayev Həbib Fərhad oğlu
Ağakərimov Akif Ağakərim oğlu
Ağayeva Aynurə Ərəstun qızı
Allahverdiyeva Rəvanə Çingiz qızı
Bəylərova Təranə Yunus qızı
Cabbarov Vilayət Hidayət oğlu
Əhmədova Azadə Hüseyn qızı
Ələsgərov Asəf Musa oğlu
Əliyev Baxşeyiş Əli oğlu
Əliyeva Ellada İdris qızı
Əmirbəyov Fərhad Fikrət oğlu
Əsgərova Gülnarə Mərdan qızı
Fərzəliyev Azər Şamil oğlu
Hacıyeva Nigar Akif qızı
Haxıyev Üfüq Gülağa oğlu
Həbibbəyli Ərəstü İsa oğlu
Həsənova Lalə Eyvaz qızı
Qədimli Elxan Mürvət oğlu
Qənbərov Yusif Bəybala oğlu
Quliyev Ruslan Namiq oğlu
Quliyev Üzeyir Çərkəz oğlu
Mahmudov Rüstəm Bəhruz oğlu
Məhərrəmov İsmayıl Əsgər oğlu
Məmmədov Anar Rəhim oğlu
Məmmədov Azər Xəlil oğlu
Mikayıllı Həbib Rasim oğlu
Musayev Cavid Xəlil oğlu
Nəbiyev Cahangir Şükür oğlu
Rəhimov Niyazi Süleyman oğlu
Rüstəmli Ruslan Rüstəm oğlu
Şıxəliyev Ceyhun Yavər oğlu
Tağıyev Mehman Nəriman oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasova Sonaxanım Həcibala qızı
Abbasov Şöləddin Ziyad oğlu
Abbasov Tural Nadir oğlu
Abbasov Yaqub Aman oğlu
Abdullayev İsrafil Qasım oğlu
Abdullayev Mehman İsrayıl oğlu
Abdullayev Rövşən Aslan oğlu
Abdullayeva Ülviyyə Bazim qızı
Abdullazadə Fəxrintac Səbuhi qızı
Abdullazadə Xaliq Nəriman oğlu
Adıgözəlov Akif Əlövsət oğlu
Adıgözəlov Şaiq Əli oğlu
Ağayeva Zöhrə Gəray qızı
Alışov Nəsib Bəhlul oğlu
Allahverdiyeva Nairə Əvəz qızı
Almazova Xatirə Əbil qızı
Aslanov Ramiz Rasim oğlu
Aslanov Şahin Müzahim oğlu
Babayeva Raifə Şəmil qızı
Bayramov Elşən Arif oğlu
Bayramov İqbal Musa oğlu
Bayramova Gülşən Nəriman qızı
Bəşirov Elşad Tofiq oğlu
Budaqova Sənəm Nəsib qızı
Cabbarlı Reqina Ruslan qızı
Cabbarlı Vüsal Daxil oğlu
Cavadov Ruslan Teyyub oğlu
Cavadova Gülnaz Təyyar qızı
Cavadzadə Cavid Bəylər oğlu
Dadaşova Xırdaxanım Rəcəb qızı
Dəmirova Xeyransa Alim qızı
Eyyubov Abuzər Veyis oğlu
Əhmədov Fariz Şöhrət oğlu
Əhmədova Həlilə İntiqam qızı
Əhməd-zadə Fərəh Aqil qızı
Əkbərova Rübabə Məmməd Bağır qızı
Əliyev Aqşin Qabil oğlu
Əliyev Altun Asəf oğlu
Əliyev Anar Telman oğlu
Əliyev Elşad Nizami oğlu
Əliyev Hasil Vahid oğlu
Əliyev İbrahim Müseyib oğlu
Əliyev Mikayıl Rafiq oğlu
Əliyev Şövqi İsfəndiyar oğlu
Əliyeva Leyla Məzahir qızı
Əliyeva Pərvanə Qorxmaz qızı
Əliyeva Səlbi Cavanşir qızı
Əliyeva Validə Avtandil qızı
Əliyeva Zəminə Ədil qızı
Əli-zadə Mir Kamal Qabil oğlu
Əmirbəyova Raidə Eldar qızı
Əmrahov Raqif Mustafa oğlu
Əmrəliyev Vüqar Şahlar oğlu
Əsədli Nərminə Ehsan qızı
Əsgərəlizadə Vəsilə Azər qızı
Əsgərov Tural Behbud oğlu
Əzizov Yalçın Saleh oğlu
Fərəcov Aqşin Rafiq oğlu
Fətullayev Əziz Əli oğlu
Hacıyev Ruslan Tofiq oğlu
Hacıyeva Gülnar Cəfərağa qızı
Hacıyeva Mərziyyə Rafiq qızı
Hacıyeva Rifaət Fikri qızı
Hacızadə Talıb Arif oğlu
Həsənov Fəxri Akif oğlu
Həsənova Afaq Hümmət qızı
Həsənova Fidan Fuad qızı
Həsənova Kəmalə Zal qızı
Həsənova Sevda Səlim qızı
Hüseynov Anar Eldar oğlu
Hüseynov Elnar Vaqif oğlu
Hüseynov Elnur Nadir oğlu
Hüseynov Ənvər Fuad oğlu
Hüseynov Fərid Elman oğlu
Hüseynov İdris Ağaxan oğlu
Hüseynov Ramil Vəkil oğlu
Hüseynov Tofiq Nəriman oğlu
Hüseynov Turan Biləndər oğlu
Hüseynova Səidə Oqtay qızı
Hüseynova Vüsalə Cabbar qızı
Hüseynzadə Elmar Əli Muxtar oğlu
Xəlilov Rauf Tofiq oğlu
Xəlilov Vüsal Mirzəcan oğlu
Xudaverdiyev Məhəmmədəli Bayram oğlu
Xudayev Ramin Əmrah oğlu
İbrahimli Vüsal Şəmil oğlu
İbrahimov Emin Dadaş oğlu
İbrahimova Hökümə Kamran qızı
İsgəndərov Ceyhun Əmirastan oğlu
İskəndərov Elşad Eldar oğlu
İskəndərov Şahin Əvəz oğlu
İsmayılova Səadət Teyyub qızı
Kazımov Elşən Zahid oğlu
Kərimov Kərim Rafiq oğlu
Kərimov Orxan Rafiq oğlu
Kərimov Şahin Rafael oğlu
Qafarlı İradə Süleyman qızı
Qarayev Azər Mədəd oğlu
Qarayev Əmrah Niyazi oğlu
Qasımlı İlqar Bəkir oğlu
Qasımov Lətif Cəfər oğlu
Qasımov Murad Arif oğlu
Qəhrəmanov Cəsarət Qəhrəman oğlu
Qəhrəmanov Qəhrəman Arif oğlu
Qənbərov Mürsəl Məhərrəm oğlu
Qəribov Şəmsi Allahverdi oğlu
Qocayev İlqar Sadıq oğlu
Quliyev Elşən Arif oğlu
Quliyev Etibar Abasqulu oğlu
Quliyeva Sevda Sevindik qızı
Quluyev Elməddin Əlihüseyn oğlu
Qurbanlı Jalə Kamal qızı
Qurbanov Ceyhun Museyib oğlu
Qurbanova Kəmalə Misir qızı
Qurbanova Svetlana Qəməddin qızı
Qurbanzadə Türkan Ədalət qızı
Qüdrətli Vəfa Kadil qızı
Mahmudov Müqalib Bədəl oğlu
Mahmudov Səbuhi Şahin oğlu
Mehrəliyev Elçin Əlövsət oğlu
Məhərrəmov Orxan Xalıqverdi oğlu
Məhərrəmova Ruqiyyə Namiq qızı
Məlikov Mahir Zakir oğlu
Məmişov Kənan Həmzağa oğlu
Məmmədəliyev Elçin İsgəndər oğlu
Məmmədli Fariz Tofiq oğlu
Məmmədov Azər Elman oğlu
Məmmədov Elvin Şaiq oğlu
Məmmədov Əzizağa Ağababa oğlu
Məmmədov Kənan Arif oğlu
Məmmədov Namiq Xanoğlan oğlu
Məmmədov Sabir İbrahim oğlu
Məmmədov Vəli Ramazan oğlu
Məmmədova Fəridə Elçin qızı
Məmmədova Sevinc Məmməd qızı
Məmmədova Şahanə Şahin qızı
Məmmədova Vüsalə Rafiq qızı
Məmtiyev Tofiq Rəhim oğlu
Mikayılova Gülər Sahib qızı
Mirzəyev Rasim Rafiq oğlu
Mirzəzadə Anar Fərhad oğlu
Mirzəzadə Ramil Xanış oğlu
Mövsümov Anar Ağabala oğlu
Muradova Təravət Məmməd qızı
Nağıyev Hicran Asif oğlu
Nəbiyev İlkin Məmmədzadə oğlu
Nəbiyev Qamət İsmayıl oğlu
Nəbizadə Nəbi Rafiq oğlu
Nərimanova Nuranə Fazil qızı
Nəsirov Hikmət Arif oğlu
Nəsirova Nərmin Natiq qızı
Niftəliyev Qüddəsər Sədiyar oğlu
Novruzov Cümşüd Musa oğlu
Orucova Arzu Məmməd qızı
Osmanov Müşfiq Məmməd oğlu
Ömərova Vəfa Kamal qızı
Paşayev Allahverdi Oktay oğlu
Paşayev Faqil Teymur oğlu
Paşayev Sənay Oktay oğlu
Paşayeva Arifə Xanlar qızı
Pənahlı Rüfət Akif oğlu
Pənahov İlqar Əsgər oğlu
Rəhimov Ayaz Süleyman oğlu
Rəhimov Azər Binnət oğlu
Rüstəmli Samir Famil oğlu
Rüstəmov Kamal Elbrus oğlu
Rzayev Rauf Zeynal oğlu
Salmanova Maral Saday qızı
Sarıyeva Aynel Əlövsət qızı
Səfərəli Gülşən Rüfət qızı
Səlimbəyli Zeynəb İsa qızı
Səlimova Pərvin Ədalət qızı
Səlimova Reyhan Aslan qızı
Səmədova Turan Zakir qızı
Səttar-zadə Müşfiq Sahib oğlu
Sıraczadə Elvira Vaqif qızı
Soltanov Fərid Rafael oğlu
Sultanov Emil Telman oğlu
Sultanov Samir Əzim oğlu
Sultanov Səməd Samir oğlu
Süleymanov Abbas Qurban oğlu
Süleymanov Anar Zakir oğlu
Şamıyeva Roza Rafiq qızı
Şamilov İlkin Həmid oğlu
Şəfiyev Asif Nəriman oğlu
Şəfiyev Bahadir Ataməli oğlu
Şükürov Şirxan Bayram oğlu
Tağıyev Şahmar Camal oğlu
Tağızadə Anar Abil oğlu
Tairquliyeva-Nağıyeva Arzu Ələmdar qızı
Teymurov Rasim İbrahim oğlu
Turabova Amalya Paşa qızı
Umudov Elvin Natiq oğlu
Vəliyev Barat İlandiyar oğlu
Vəliyev Fərid Əzizağa oğlu
Vəliyev Sənan Mahmud oğlu
Vəliyeva Nigar Ələddin qızı
Yusubov İsa Həsən oğlu
Yusupova Marina Əlimuradovna
Zeynalov Eldəniz Sabir oğlu
Zeynalov Rasim Aydın oğlu
Zeynalov Vəfadar Kamil oğlu
Zeynalova Nərmin Alim qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyun 2026-cı il**

# Milli Məclisdə görüşlər



**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Yəmən Respublikası Nümayəndələr Palatasının sədri Sultan Səid Əlbarkani ilə görüşüb.**

Görüşdə ölkələrimizin müxtəlif platformalarda bir-birinə qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdiyi qeyd edilib. Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərliyi dövründə görülmüş işlər barədə məlumat verib.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın özünəməxsus rolu diqqətə çatdırılıb. Bildirilib ki, hər iki ölkənin qanunverici orqanında qarşılıqlı dostluq qruplarının yaradılması münasibətlərin inkişafına böyük töhfə olardı.

Görüşdə Nümayəndələr Palatasının sədri Sultan Səid Əlbarkani İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürünü bildirib və bu təşkilat çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb. Qonaq ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu və burada gördükləri inkişafdan məmnunluğunu bildirib.

Sultan Səid Əlbarkani Azərbaycanın Yəmən xalqına göstərdiyi mənəvi və humanitar yardımlara görə təşəkkürünü bildirib.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün Niger Respublikası Məsləhət Şurasının sədri Mamoudu Haruna Cinqarey ilə görüşüb.**

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı qanunverici orqanlarımızın beynəlxalq parlament təşkilatlarında birgə əməkdaşlığı qeyd olunub. Sahibə Qafarova qonağa Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib.

Mamoudu Haruna Cinqarey göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycanın inkişafı və paytaxt Bakı haqqında müsbət təəssüratlarını ifadə edib. Qonaq ölkəmizin əldə etdiyi nailiyyətləri təqdir edərək deyib ki, bir çox ölkələr onilliklər ərzində belə, Azərbaycanın son illərdə qazandığı uğurlara nail ola bilməyiblər. Məsləhət Şurasının sədri Nigerin Azərbaycan və Milli Məclis ilə münasibətləri dərinləşdirməkdə maraqlı olduğunu söyləyərək, ölkəmizin bir çox sahələrdə, o cümlədən enerji resurslarından səmərəli istifadə istiqamətində təcrübəsindən faydalanmaq istədiklərini vurğulayıb.

***XQ***

# Hikmət Hacıyev Azərbaycan və Türkmənistan prezidentlərinin Şuşa gəzintisindən videogörüntü paylaşıb



**Azərbaycan və Türkmənistan prezidentlərinin Şuşa gəzintisi möhkəm dostluq bağlarının bariz ifadəsidir.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında bildirib.

"İki qardaş ölkənin – Azərbaycan və Türkmənistan prezidentlərinin tarixi Şuşa şəhərində birgə gəzintisi xalqlarımız arasında mövcud olan möhkəm dostluq bağlarının, ortaq mədəni irsin və qarşılıqlı etimadın bariz ifadəsi olmaqla yanaşı, strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsinə yönəlmiş ortaq iradəni əks etdirir", – o qeyd edib.

***XQ***

# İƏT Parlament İttifaqı Baş Komitəsi Bakı sessiyasının iclası




**İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının ikinci günü başa çatıb.**

İttifaqın Baş Komitəsinin 27-ci sessiya iclasında təşkilati və maliyyə məsələləri müzakirə olunub.

Sessiyaya sədrlik edən Milli Məclis sədrinin müavini Rafael Hüseynov bildirib ki, 1991-ci ildə müstəqilliyini bərpa etdikdən dərhal sonra Azərbaycanın üzv olduğu ilk beynəlxalq təşkilatlardan biri İslam Əməkdaşlıq Təşkilatı olub. O bildirib ki, xalqımız və dövlətimiz bu çətin yolda Azərbaycana tam dəstək verən ilk ümumdünya təşkilatının məhz İslam Əməkdaşlıq Təşkilatı olduğunu heç vaxt unutmayacaq və həmişə minnətdarlıqla xatırlayacaq.

İƏT Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyass çıxışında təşkilat çərçivəsində əməkdaşlığın, dialoqun və qarşılıqlı anlaşmanın əhəmiyyətini vurğulayıb. O, ev sahibi ölkənin göstərdiyi səyləri yüksək qiymətləndirib.

İclasda İƏT Parlament İttifaqının Baş Komitəsi Bürosunun üzvlərinin seçilməsi məsələsinə baxılıb. Daha sonra sessiyanın gündəliyi və iş proqramı təsdiq edilib. İştirakçılar İƏT Parlament İttifaqının Baş katibinin hesabatını dinləyərək qəbul ediblər.

***XQ***

# Baş Prokurorluqda bayram toplantısı



**İyunun 23-də Baş Prokurorluqda Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə toplantı keçirilib.**

Baş prokurorun birinci müavini Elçin Məmmədov dövlət qulluğu sisteminin formalaşması və inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəetmə sistemində həyata keçirilən islahatların dövlət qulluğunun daha da təkmilləşdirilməsinə, şəffaflığın, peşəkarlığın və vətəndaş məmnunluğunun artırılmasına xidmət etdiyini bildirib.

Çıxışlarda dövlət qulluqçularının peşəkar bilik və bacarıqlarının artırılmasının, etik davranış qaydalarına riayət edilməsinin və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinin əhəmiyyəti vurğulanıb.

***XQ***

# Azərbaycanın prokurorluq heyəti Slovakiyada



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti slovakiyalı həmkarı Maroş Jilinkanın dəvəti ilə 22-23 iyun tarixlərində Bratislava şəhərinə rəsmi səfər edib.**

Slovakiyanın Baş Prokurorluğunda keçirilmiş görüşdə Maroş Jilinka qeyd edib ki, Azərbaycanın hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi onlar üçün prioritet təşkil edir və mövcud əlaqələrin hazırkı səviyyəsi yüksək inkişaf dinamikası ilə xarakterizə olunur.

Kamran Əliyev qarşı tərəfə cənab Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı və xüsusi qayğısı ilə aparılan geniş miqyaslı bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.



Görüşdə cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, o cümlədən transmilli cinayətlər və maliyyə cinayətlərinin istintaqı, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Slovakiya Respublikası Məhkəmə Şurasının sədri, xanım Marsela Kosova arasında da ikitərəfli görüş keçirilib.

***XQ***

# Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb

## *Strateji sənəd bölgələrdə müzakirə edilir və yüksək qiymətləndirilir*

### Şəki–Zaqatala iqtisadi rayonu



**Dünən Şəki-Zaqatala iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirildi.**

Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilmiş müzakirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarından olan fermer və sahibkarlar iştirak etdilər.

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov** qlobal çağırışlar



və dəyişən iqtisadi şərait kənd təsərrüfatında yeni yanaşmaların tətbiqini zərurəti barədə danışdı. O qeyd etdi ki, Azərbaycan Prezidentinin təsdiq etdiyi 2026–2030-cu illər üzrə Dövlət Proqramı aqrar sahənin potensialından daha səmərəli istifadəyə və dayanıqlı inkişafın təmininə xidmət edir. Prezident köməkçisi vurğuladı ki, qarşıdakı illərdə əsas diqqət məhsuldarlığın artırılmasına, müasir texnologiyaların tətbiqinə, su və torpaq resurslarının səmərəli idarə olunmasına yönələcək. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının emalı və bazara çıxış imkanlarının genişləndirilməsi fermerlərin gəlirlərinin artmasına əlavə stimul verəcək.

Şahmar Mövsümov dövlət tərəfindən yaradılmış imkanlardan səmərəli istifadə və sahibkarların təşəbbüskarlığı barədə də ətraflı məlumat verdi. Proqramın uğurlu icrasının aqrar sektorun rəqabət qabiliyyətini artırmaqla yanaşı, regionların sosial-iqtisadi inkişafına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verəcəyi qeyd olundu.

**Daha sonra kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev** aqrar sahənin inkişafı istiqamə-



tində qarşıda duran əsas prioritetlər və Dövlət Proqramında nəzərdə tutulan hədəflər barədə ətraflı məlumat verdi. O bildirdi ki, proqram aqrar sahədə innovativ yanaşmaların genişləndirilməsi, emal sənayesinin inkişafı, əlavə dəyər zəncirinin gücləndirilməsi və fermerlərin iqtisadi imkanlarının artırılmasına xidmət edir. Nazir müavini qarşıya qoyulan hədəflərə nail olmaq üçün dövlət dəstəyi mexanizmlərinin daha da təkmilləşdiriləcəyini, innovativ yanaşmalar və rəqəmsal həllərin tətbiqi genişləndiriləcəyini də qeyd etdi.

Dövlət Proqramının uğurlu icrasının ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, regionların sosial-iqtisadi inkişafına və aqrar sektorun yeni inkişaf mərhələsinə keçidinə mühüm töhfə verəcəyi bildirildi.

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin birinci müavini Xəyyam Məmmədov** çıxışında Dövlət Proqramının hədəflərinə nail olunmasında su ehtiyatlarının səmərəli idarə edilməsi barədə danışdı. O qeyd etdi ki, Şəki-Zaqatala iqtisadi rayonunda həyata keçirilən layihələr regionun su təminatının yaxşılaşdırılmasına, məhsuldarlığın artırılmasına və yeni əkin sahələrinin dövriyyəyə cəlb edilməsinə şərait yaradacaq. Eyni zamanda, iqlim dəyişiklikləri fonunda müasir suvarma texnologiyalarının tətbiqi, su itkilərinin azaldılması və infrastrukturun yenilənməsinin vacibliyi vurğulandı. Agentlik tərəfindən suvarma şəbəkələrinin, hidrotexniki qurğuların və subartezian quyularının vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirildiyi bildirildi.

**Şəki Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov** aqrar sahədə həyata keçirilən



məqsədyönlü siyasətin regionların sosial-iqtisadi inkişafına mühüm təkan verdiyini vurğuladı. O qeyd etdi ki, Dövlət Proqramı Şəki rayonunda kənd təsərrüfatının daha müasir əsaslarla inkişafı üçün geniş perspektivlər açır. Bildirdi ki, Əlicançay və Əyriçay su anbarları kimi strateji layihələrin icrası suvarma imkanlarını genişləndirərək taxılçılıq və digər sahələrdə məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına şərait yaradacaq. İcra başçısı rayonda aqrar sahəyə yatırılan investisiyalar, fəaliyyət göstərən emal müəssisələri və sahibkarlıq təşəbbüsləri məşğulluğun artırılmasına və iqtisadi fəallığın güclənməsinə xidmət etdiyini qeyd etdi.

Müşavirədə iştirak edən fermerlər və sahibkarlar aqrar sahədə həyata keçirdikləri fəaliyyətlər, layihələr və gələcək planlar barədə məlumat verdilər. Çıxışlarda dövlətin aqrar sahəyə göstərdiyi diqqət və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür ifadə olundu. Qeyd olundu ki, tətbiq olunan dəstək mexanizmləri və infrastruktur layihələri bölgələrdə yeni imkanlar yaradaraq təsərrüfatların inkişafına, məhsuldarlığın və gəlirlərin artmasına şərait formalaşdırıb. Bildirildi ki, Dövlət Proqramında nəzərdə tutulan tədbirlər aqrar istehsalın daha səmərəli təşkili, emal sənayesinin inkişafı və ixrac potensialının genişlənməsinə mühüm töhfə verəcək.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirdi ki, Dövlət Proqramının uğurlu icrası üçün bütün aidiyyəti qurumlar operativ fəaliyyətə keçməli və rayonlar üzrə prioritet istiqamətlər dəqiqləşdirilməlidir. Yerli icra hakimiyyəti orqanlarının üzərinə də böyük məsuliyyətin düşdüyünü deyən Şahmar Mövsümov əlavə edib ki, hər bir rayon üzrə sosial-iqtisadi inkişaf planlarının Dövlət Proqramında müəyyən edilmiş hədəf və prioritetlərə uyğun hazırlanması və icrasının təmin edilməsi zəruridir. Qeyd olundu ki, Dövlət Proqramının icrasında dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti, xüsusilə sahibkar və fermerlərin fəallığı həlledici əhəmiyyət daşıyır. Şahmar Mövsümov vurğuladı ki, Dövlət Proqramından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi müəyyən edilmiş hədəflərə nail olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Musa BAĞIRLI***
***XQ***

**Qax**

### Mil–Muğan iqtisadi rayonu

**Dünən Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emal sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədilə Mil-Muğan iqtisadi rayonu üzrə növbəti regional müşavirə keçirildi.**



Saatlıda təşkil edilmiş toplantı 25 may 2026-cı il tarixində Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilən tapşırıqların icrası və Dövlət Proqramında müəyyən edilmiş hədəflərin regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təmin olunması məqsədi daşıyırdı. Toplantıda Prezident Administrasiyasının, aidiyyəti dövlət qurumlarının nümayəndələri, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, fermerlər və sahibkarlar iştirak etdilər və aqrar sektorun qarşısında duran yeni çağırışlar, istehsalın artırılması, emal sənayesinin inkişafı, su və torpaq ehtiyatlarından səmərəli istifadə, eləcə də fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsi müzakirə olundu.

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov** çıxışında bildirdi ki, son illərdə həyata keçirilən sistemli aqrar islahatlar nəticəsində kənd təsərrüfatında mühüm



nailiyyətlər əldə olunub. Onun sözlərinə görə, bir sıra məhsullar üzrə özünütəminetmə səviyyəsi yüksəlib, meyvə-tərəvəz və yumurta istehsalında isə tam təmin edilib. Natiq Əmirov qeyd etdi ki, yeni Dövlət Proqramı aqrar sahədə keyfiyyətcə yeni inkişaf mərhələsinin əsasını qoyur və məhsuldarlığın artırılması, rəqabətqabiliyyətli istehsal modelinin formalaşdırılması, emal və ixrac potensialının genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Prezidentin köməkçisi vurğuladı ki, proqramın əsas məqsədi yalnız istehsal həcmlərinin artırılması deyil, hər hektardan daha yüksək məhsuldarlıq əldə olunması, əlavə dəyərin yüksəldilməsi və aqrar sahədə intensiv inkişaf modelinə keçidin sürətləndirilməsidir. Bu məqsədlə müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, ixtisaslaşmış rayonlarda taxılçılıq və pambıqçılıqda məhsuldarlığın artırılması, intensiv bağçılıq və istixana təsərrüfatlarının inkişafı, həmçinin soyuducu anbarlar və taxıl silolarının tutumunun artırılması nəzərdə tutulur.

**Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova** bildirdi ki, Dövlət Proqramında regionlarda istehsal infrastrukturunun gücləndirilməsinə, innovativ texnologiyaların tətbiqinə və rəqəmsal idarəetmənin genişləndirilməsinə xüsusi önəm verilir. Onun sözlərinə görə, süni intellekt həllərinin və Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) yeni alt sistemlərinin tətbiqi qərarların daha dəqiq məlumatlar əsasında qəbul edilməsinə imkan yaradacaq. Bu məqsədlə peyk müşahidələri, torpaq və su ehtiyatları üzrə məlumat bazaları, eləcə də real məhsuldarlıq göstəricilərindən geniş istifadə olunacaq.

Nazir müavini texniki təminatın yaxşılaşdırılmasının məhsuldarlığın artırılmasında əsas amillərdən biri olduğunu bildirdi. Qeyd etdi ki, Dövlət Proqramına əsasən 22 rayonda kombayn parkı 571 yeni kombaynla yenilənəcək. Bu addım taxıl yığımında itkilərin minimuma endirilməsinə və məhsulun optimal müddətdə tədarük olunmasına şərait yaradacaq.

İlhamə Qədimova çıxışında heyvandarlıq və qoyunçuluq sektorunun inkişaf perspektivlərinə xüsusi diqqət yetirdi. Bildirdi ki, 2030-cu ilədək qoyun əti istehsalının 9 faiz, qoyunların sayının 10 faiz artırılması, ixrac həcminin isə 2,9 min tona çatdırılması planlaşdırılır. Bu məqsədlə ölkədə 300 yeni yarımintensiv qoyunçuluq təsərrüfatının yaradılması, 480 min hektar örüş və otlaq sahəsinin bərpasının təşviqi nəzərdə tutulur.

Nazir müavininin sözlərinə görə, yeni Dövlət Proqramında balıqçılıq və akvakultura sahələrinin inkişafı da prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Sənəd daxili istehsal potensialının artırılması, ərzaq



təhlükəsizliyinin möhkəmləndirilməsi, aqrar emal və logistika infrastrukturunun inkişafı, ixracyönümlü istehsalın genişləndirilməsi və fermerlərin bazarlara çıxış imkanlarının yaxşılaşdırılmasını hədəfləyir.

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidmətinin sədri Zakir Quliyev** 2026–2030-cu illəri əhatə edən Dövlət Proqramının aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi və su təminatının etibarlılığının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı. Bildirdi ki, proqramın əsas istiqamətlərindən biri yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılıq modelinə



keçidin sürətləndirilməsidir. Bu məqsədlə müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, su itkilərinin minimuma endirilməsi və su ehtiyatlarından səmərəli istifadənin təmin olunması prioritet vəzifələr sırasında yer alır.

Regional Su Meliorasiya Xidmətinin sədri qeyd etdi ki, region üzrə təxminən 77,5 min kənd təsərrüfatı istehsalçısı suvarma və digər təsərrüfat ehtiyacları üçün su ilə təmin olunub və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Zakir Quliyev bildirdi ki, həyata keçirilən layihələr və yenidənqurma tədbirləri nəticəsində suvarma sistemlərinin etibarlılığı artır, su itkiləri azalır, fermerlərin su təminatı isə daha dayanıqlı və səmərəli xarakter alır. Bu məhsuldarlığın yüksəlməsinə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

**Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov**



çıxışında rayonun aqrar sahədə əldə etdiyi uğurlardan və qarşıda duran vəzifələrdən danışdı. Bildirdi ki, Beyləqan ölkənin aparıcı kənd təsərrüfatı rayonlarından biri kimi taxılçılıq, pambıqçılıq, heyvandarlıq və quşçuluq sahələrində yüksək nəticələr əldə edir. Əziz Əzizov su təminatının yaxşılaşdırılması, meliorasiya infrastrukturunun inkişafı və kənd təsərrüfatında dayanıqlı inkişafın təmin olunmasının prioritet istiqamətlərdən olduğunu vurğuladı.

Müşavirədə Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonlarından olan fermer və sahibkarlar rəhbərlik etdikləri təsərrüfatların fəaliyyəti, istehsal imkanları və inkişaf perspektivləri barədə məlumat verdilər. Çıxışlarda kənd təsərrüfatına göstərilən diqqət və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür ifadə olunaraq, Dövlət Proqramında nəzərdə tutulan yeni dəstək mexanizmlərinin istehsalın artırılmasına, təsərrüfatların genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə mühüm töhfə verəcəyi bildirilib.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov aqrar sahədə qarşıya qoyulan hədəflərə nail olunması üçün dövlət qurumları, fermerlər və sahibkarlar arasında koordinasiyalı əməkdaşlığın vacibliyini vurğuladı. Qeyd etdi ki, kənd təsərrüfatında rəqabətqabiliyyətli və dayanıqlı istehsalın formalaşdırılması üçün innovativ yanaşmaların tətbiqi, resurslardan səmərəli istifadə və istehsalın intensivləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Natiq Əmirov Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, aqrar sahədə əlavə dəyərin artırılmasına və regionların inkişafına mühüm töhfə verəcəyini bildirdi. Eyni zamanda qeyd olundu ki, müşavirədə səsləndirilən rəy, təklif və qeydlər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim olunacaq və Dövlət Proqramının icrası prosesində nəzərə alınacaq.

***P.ƏFƏNDİYEV***
***XQ***

**Saatlı**

# Kənd təsərrüfatının inkişafında yeni dövr başlayır

## *Əməkdaşımız ezamiyyətdən qayıdıb*

**Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunan respublika müşavirəsində qarşıya qoyulan hədəflərin icrası ilə əlaqədar Sabirabad Rayon İcra Hakimiyyətində təşkil edilən toplantıda bu barədə ətraflı danışılaraq, ölkə rəhbərinin aqrar sahəyə göstərdiyi diqqət və qayğının mühüm önəm daşıdığı bildirilib.**




Eyni zamanda, dövlət başçısının bu sahənin gələcək inkişaf perspektivləri barədə vurğuladığı prioritet istiqamətlər, eləcə də təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" bunun bariz ifadəsi kimi qiymətləndirilib.

Rayon müşavirəsində Sabirabadın iqtisadi inkişafında taxılçılığın, pambıqçılığın və digər kənd təsərrüfatı sahələrinin rolu xüsusi vurğulanıb, işsizliyin aradan qaldırılması, əhalinin məşğulluğunun təmin olunması və dayanıqlı inkişaf üçün aqrar sektorda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi kimi məsələlərin prioritetlər sırasında yer aldığı diqqətə çatdırılıb. Bununla bərabər, dövlətin fermerlərə yaratdığı əlverişli şərait və güzəştli mexanizmlər sayəsində rayonda kənd təsərrüfatının davamlı inkişaf etdiyi xatırladılıb.

### Taxılçılıq

Toplantıda taxılçılıq sahəsində son illər əldə edilən uğurlar diqqətə çatdırılmaqla yanaşı, cari mövsümdə bu istiqamətdə görülən işlərə, qazanılan müsbət göstəricilərə də nəzər salınıb. Xatırladaq ki, hesabat dövründə 23 min 804 hektarda taxıl əkilib, onun 10 min 878 hektarında buğda, 12 min 926 hektarında isə arpa becərilib. Bu ayın 20-dək 1703 hektar buğda sahəsinin məhsulu biçilib və orta məhsuldarlıq 44,9 sentner, 11 min 428 hektar arpa sahəsində isə həmin göstərici 39,9 sentner olub. Ümumilikdə, 53 min 316 ton məhsul toplanılıb, hektarın orta məhsuldarlığı isə 40,6 sentnerə yüksəlib. Sözügedən müddətdə ayrı-ayrı fermerlərə məxsus taxıl sahələrində orta məhsuldarlıq 55-65 səviyyəsində qeydə alınıb. Tarlalara isə hər gün 60-70 kombayn çıxarılıb.



Yeri gəlmişkən, Sabirabadda taxılçılığın inkişafından söz düşmüşkən, yüksək göstəriciləri ilə diqqət çəkən təsərrüfatlardan birinin – Muğan Gəncəli kəndində toxumçuluq üzrə ixtisaslaşan "Fructus-Agro Park" MMC-nin fəaliyyət göstəricilərinə nəzər salaq. Qeyd edək ki, təsərrüfatın 988 hektarlıq ümumi əkin sahəsində cari il 404 hektarda buğda, 338 hektarda arpa, 65 hektarda lobya, 55 hektarda isə günəbaxan əkilib. Əsasən toxumçuluq istiqamətində fəaliyyət göstərən təsərrüfatda buğdanın "Arsenal", "Viktoriya", "Koralina", "Bərəkətli" və "Əsgəran", arpanın isə "Ştorm" və "Nuranə" sortları becərilib. Burada indiyədək 100 hektardan çox arpa sahəsi biçilib. Hər hektardan orta hesabla 42 sentner məhsul əldə olunub, ümumilikdə, 400 tona yaxın arpa istehsal edilib.

"Fructus-Agro Park" MMC taxıl istehsalında məhsuldarlığın artırılması, yüksək reproduksiyalı və yerli şəraitə uyğun toxum sortlarından istifadə edilməsi, aqrotexniki tədbirlərin optimal müddətlərdə yerinə yetirilməsi, müasir suvarma texnologiyalarının tətbiq olunması və torpaqların münbitliyinin qorunması məsələlərinə xüsusi önəm verir. Eyni zamanda, məhsuldarlığın yüksəldilməsi üçün sertifikatlı toxum materiallarından istifadənin genişləndirilməsini diqqətdə saxlayır.

Belə bir yanaşmaya xüsusi önəm verilməsi təsadüfi deyil. Çünki məhsuldar, xəstəliklərə davamlı və yerli iqlim şəraitinə uyğunlaşdırılmış toxum sortlarının tətbiqi məhsul istehsalında mühüm nəticələr verir. Eyni zamanda, torpaqların aqrokimyəvi analizinin aparılması, gübrələmə sisteminin təkmilləşdirilməsi, müasir texnikadan istifadə və rəqəmsal monitorinq texnologiyalarının tətbiqi məhsuldarlığın yüksəldilməsini şərtləndirən ən zəruri amillərdir.

Bir sözlə, "Fructus-Agro Park"ın fəaliyyətində torpaq və iqlim şəraitinə uyğun sort seçiminə üstünlük verilməsi, gübrələmə, suvarma və bitki mühafizəsi tədbirlərinin elmi əsaslarla həyata keçirilməsi kimi amillər aqrar sahənin inkişafını sürətləndirir. Adıçəkilən MMC, eyni zamanda, biçin zamanı məhsul itkilərinin minimuma endirilməsi, kombaynların fasiləsiz fəaliyyətinin təmin olunması və yetişmiş sahələrdə məhsul yığımının qısa müddətdə başa çatdırılması məsələlərinə də prioritet istiqamətlər kimi yanaşır.

### Pambıqçılıq

Son illər ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətində aqrar sektorun inkişafı xüsusi diqqət mərkəzində saxlanılıb. Kənd təsərrüfatında həyata keçirilən islahatlar, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, müasir texnologiyaların tətbiqi və istehsalçı fəaliyyətinin stimullaşdırılması nəticəsində respublikanın ərzaq təhlükəsizliyi möhkəmləndirilib, ixracyönümlü sahələrin inkişafı üçün yeni imkanlar yaradılıb. Bu baxımdan kənd təsərrüfatı məsələlərinə həsr olunmuş sözügedən müşavirədə pambıqçılığın inkişafı ilə bağlı səsləndirilən fikirlər aqrar siyasətin gələcək istiqamətlərini müəyyənləşdirən mühüm strateji mesajlar kimi qiymətləndirilib.

Dövlət başçısının müşavirədə vurğuladığı kimi, respublikanın pambıq sahələrində məhsuldarlıq uzun illər ərzində orta hesabla hər hektardan cəmi 1 ton olub. Aparılan məqsədyönlü siyasət nəticəsində bu göstərici artıq 3,6 tona yüksəlib. Bu isə ölkənin pambıqçılıq tarixində, o cümlədən sovet dövrü ilə müqayisədə ən yüksək nəticə kimi dəyərləndirilib. Bununla belə, hazırda bu sahədə hər hektardan ən azı 5 ton məhsul əldə etmək qarşıya əsas məqsəd olaraq qoyulub.

**Sabirabad Aqrar İnkişaf Mərkəzinin direktoru Heydər Yaqubovun** sözlərinə görə, belə bir yanaşmanın önəmi ondadır ki, pambıqçılığın inkişafında əsas göstəricilərdən biri məhsuldarlıq hesab edilir. Çünki torpaq ehtiyatlarının məhdud olduğu bir şəraitdə istehsalın artırılmasının ən səmərəli yolu məhz hər hektardan daha çox məhsul alınması ilə müəyyənləşdirilir. Bu baxımdan dövlət başçısının diqqətə çatdırdığı 5 tonluq məhsuldarlıq hədəfi bugün iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi nəzərdən keçirilir.





Hazırda respublikada, təxminən, 100 min hektar sahədə becərilən pambıqda məhsuldarlığın hər hektardan 5 tona çatdırılması ümumi istehsalın 500 min tona yüksəlməsi deməkdir. Bu isə Azərbaycanın pambıq istehsalında regionun aparıcı ölkələrindən birinə çevrilməsi üçün ciddi imkanlar yaradır. Kənd təsərrüfatının inkişafı məqsədi daşıyan yeni Dövlət Proqramında da pambıqçılıqda məhsuldarlığın artırılması və bunun sayəsində ümumi istehsalın əhəmiyyətli dərəcədə çoxaldılması əsas prioritetlərdən biri kimi diqqət çəkir.

Sabirabadda da bu məsələyə həssaslıqla yanaşılır. Bu barədə söhbət açmazdan əvvəl qeyd edək ki, cari il 11 min 24 hektarda çiyid səpini aparılıb. Pambıq emalı və satışı istiqamətində fəaliyyət göstərən 8 müəssisə 1550 fermerlə müqavilə bağlayıb. "Prime Cotton" MMC 2 min 824, "Apeks" Aqro MMC isə 2 min 256 hektarda çiyid səpini həyata keçirib. Eyni zamanda, istehsal edilən pambığın həmin şirkətlər tərəfindən satışının reallaşdırılacağı nəzərdə tutulub. Hazırda normal çıxışı alınan 10 min 910 hektar pambıq sahəsinin birinci kompleks becərilməsinə başlanılıb, 8 min 600 hektarda zərərvericilərə qarşı ciddi mübarizə tədbirləri aparılıb.

### Yüksək məhsuldarlıq

**1-ci dərəcəli "Əmək" ordenli fermer Əfraz Əsgərovun** fikrincə, uzun illər pambıqçılıqda məhsuldarlıq 15 sentnerdən yuxarı olmayıb. Lakin bu sahənin inkişafına dair 2016-cı ildə keçirilən müşavirədən sonra belə bir strateji məhsula yanaşma tamamilə dəyişilib, mövcud istiqamətdə dövlət dəstəyi gücləndirilib və ölkəmizdə ilk dəfə MDB məkanı üzrə subsidiyalaşmanın tətbiqinə başlanılıb. Eyni zamanda, pambıqçılıq təsərrüfatlarında texnika parkının yaradılması, toxum və gübrə təminatının gücləndirilməsi, məhsuldarlığın artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Həyata keçirilən bütün bu layihələrin gerçəkləşdirilməsi nəticəsində məhsuldarlığın 30 sentnerə yüksəlməsinə nail olunub. Həmin göstərici ötən il, hətta 36 sentnerə çatdırılıb. İndi isə qarşıya hər hektarın məsuldarlığının 50 sentnerə yüksəldilməsi kimi önəmli vəzifə qoyulub.

Əfraz Əsgərov qeyd edir ki, müəyyənləşdirilən məqsədi reallaşdırmaq üçün, ilk növbədə, pambıqçılıqda lazer ütü modelinə keçilməli, əkin sahələrinin subsidiyalaşdırılması diqqətdə saxlanılmalıdır. Yalnız bu yolla su təminatında 40-45 faiz qənaətə, məhsuldarlıqda isə 4-5 sentner artıma nail olmaq mümkündür. Təbii ki, sektorda gübrə təminatı daha da yaxşılaşdırılmalıdır. Düzdür, yerli karbamid gübrəsinə elə bir ciddi ehtiyac duyulmur. Amma azot, amasof və digər bu kimi mineral məhsulların kənardan gətirilməsi probleminin həlli istiqamətində müəyyən addımlar atılmalıdır.

Fermer söhbətində onu da qeyd etdi ki, pambıqçılıqda istifadə olunan dərmanlar Çindən və Türkiyədən alınır. Tərkibi isə bir sıra hallarda məhsulun üzərində yazılanlarla uyğun gəlmir. Məsələn, bəzən hektara 1 litr suya 600 qram dərman qarışdırılmaqla istifadə edilməsi lazımi nəticə vermir. Ona görə də dərmanın həcminin iki dəfə artırılmasına ehtiyac yaranır. Təbii ki, belə bir hal fermerin xərcinin artması, yəni 1 litri 30 manata olan dərmanın 60 manata başa gəlməsi deməkdir. Halbuki həmin dərmanlar respublikada istehsal olunarsa, keyfiyyətlə bağlı müəyyən vaxtlara üzləşilən problemin aradan qaldırılması da asanlıqla həllini tapar.

Əfraz Əsgərovun digər təklifi toxumçuluqla bağlıdır. Onun sözlərinə görə, Türkiyədən gətirilən toxumlar respublikada 35 faizdən yuxarı məhsuldarlıq gücündə olmur. Amma Çindən həm xəstəliyə qarşı, həm də reproduksiya xarakterli toxumların alınıb əkilməsinə zəruri ehtiyac duyulur. O toxumlar əkildikdən sonra normal becərmə aparılarsa, arzulanan məhsuldarlığı əldə etmək olar.



Pambıqçılıqda innovativ üsulların tətbiqi də diqqətdə saxlanılmalıdır. Bu baxımdan salafan (polietilen örtük) altında qoşa cərgə pambıq əkininə üstünlük verilməlidir. Bu, xüsusilə ölkəmizin iqlim şəraitində məhsuldarlığı 30-40 faiz artıran və vegetasiya müddətini erkən başlamağa imkan verən innovativ aqrotexniki üsuldur. Belə bir modelin tətbiqi torpaqda nəmin və istiliyin qorunmasına, eləcə də xəstəlik və alaq otlarına qarşı mübarizəni asanlaşdırmağa kömək edir.

Qoşa cərgə üsulunda cərgə arası 60 və ya 90 santimetr standart qaydalardan fərqli olaraq, toxumlar lent üsulu ilə iki paralel xətt şəklində əkilir. Cüt cərgələr arasındakı məsafə dar (məsələn, 30 santimetr), lentlər (qoşa cərgələr) arası məsafə isə texnikanın işləməsi üçün geniş (70 - 90 santimetr) saxlanılır. Toxum səpildikdən və ya şitillər kök saldıqdan sonra sahəyə şəffaf və ya qara polietilen örtük çəkilir. Örtük torpaqda istiliyi artırır və bununla da toxumların erkən cücərməsi gerçəkləşir.

Salafan altında mütləq damcı suvarma sistemindən istifadə edilməlidir. Belə halda su və maye gübrələr birbaşa bitkinin kök sisteminə verilir. Cücərtilər salafana dəyib yanmağa başlamazdan əvvəl, polietilen üzərində kəsiklər açılaraq bitkilərin xaricə çıxması təmin edilir.

Örtük torpağın temperaturunu artıraraq, pambığın inkişafı üçün əlverişli mikroiqlimi şərtləndirir, vegetasiya dövrünü isə 2-3 həftə qabağa çəkməyə imkan verir. Bu da xüsusilə sərin keçən yaz aylarında zəruridir. Bu üsulun tətbiqi ilə qeyd etdiyim kimi, nəmin qorunmasına da nail olunur. Belə ki, su buxarlanması azalır, torpağın strukturu bərkimir və alaq otlarının cücərməsi əhəmiyyətli dərəcədə məhdudlaşdırılır.

Sabirabadlı fermer qoşa cərgə modeli əsasında pambıq becərilməsi ilə bağlı fikirlərini yekunlaşdıraraq deyir ki, bu üsulla əkilən sahədə məhsuldarlıq ənənəvi əkin üsulundan nəzərəçarpacaq dərəcədə fərqlənir, məhsuldarlıq 40-50 sentnerə bərabər olur, pambıq kolları və qoza sayı çox olduğu üçün kombaynların yığım aparması da asanlaşır.

### Pilot aqropark

Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq, ölkəmizdə sahibkarlığın, o cümlədən aqrar biznesin inkişaf etdirilməsi, aqrar-sənaye kompleksinin modernləşdirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə son illər sistemli tədbirlər həyata keçirilib, müasir texnologiyalara əsaslanan aqroparklar yaradılıb. "Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" layihəsi çərçivəsində 7 min 544 hektar sahədə qurulan Sabirabad Pilot Aqroparkı 2020-ci ildən fəaliyyətə başlayıb. Müəssisə yaradılarkən aqrar sahədə inkişafın sürətləndirilməsi, kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, ixracyönümlü məhsulların istehsalının artırılması, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi qarşıya əsas məqsəd kimi qoyulub.

Hazırda 8 sahibkarlıq subyektinə aqroparkın rezidentliyi statusu verilib. Rezidentlər tərəfindən 3 min 131 hektar sahədə əkin işləri görülüb. İndiyədək reallaşdırılan layihələrə 7,4 milyon manat investisiya yatırılıb. Müəssisədə müasir suvarma sistemlərinin tətbiqi ilə meyvəçilik (zeytun, nar), toxumçuluq (buğda, arpa), heyvandarlıq, taxılçılıq və pambıqçılıq təsərrüfatlarının yaradılması istiqamətində mühüm uğurlar əldə edilib.

Layihələrinin ümumi dəyəri 41 milyon manat olan pilot aqroparkda müasir suvarma sistemlərinin tətbiqi ilə 500 hektar sahədə intensiv nar bağının salınması, taxıl, qarğıdalı və yonca toxumçuluğunun təşkil edilməsi və taxılın, eləcə də süd və pambığın ilkin emalı, qüvvəli yem istehsalı və heyvandarlıq sahələrnin yaradılması nəzərdə tutulub. Artıq 1000 hektar meyvə bağı salınıb, 4 min hektara yaxın taxıl əkilib.

Müəyyən layihələrin gerçəkləşdirilməsi nəticəsində 730 yeni iş yerinin yaradılması qarşıya mühüm vəzifə kimi qoyulub. Hazırda 98 daimi, 397 mövsümi iş yerinin açıldığı aqroparkda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün dövlət tərəfindən stimullaşdırıcı tədbirlər görülüb və bu işlər mütəmadi olaraq davam etdirilib. Belə ki, dövlət vəsaiti hesabına aqroparkın suvarma suyuna olan tələbatının təmin edilməsi məqsədilə beton su kanalı inşa olunub və ərazilərin şoranlaşmasının qarşısını almaq üçün kollektor-drenaj şəbəkəsinin tikintisi üzrə işlər aparılıb. Artıq 3 sahibkar (fermer) tərəfindən aqroparkın deqradasiyaya uğramış torpaq sahələrinin bir hissəsi əkin üçün tam yararlı vəziyyətə gətirilərək, 2075 hektar sahədə taxıl və pambıq əkini aparılıb.

988 hektar sahədə yaradılan, investisiya dəyəri 3,2 milyon manat olan "Fructus Aqropark" MMC tərəfindən aqroparkda yararsız torpaq sahələri əkin üçün yararlı vəziyyətə gətirilib. Aqroparkın ilk rezidentlərindən olan adıçəkilən MMC-nin təsərrüfat sahəsində bu il 740 hektar taxıl səpini aparılıb. Biçin prosesində hektarın orta məhsuldarlığı 42 sentnerə yüksəlib.

Göründüyü kimi, torpaq sahələrindən səmərəli istifadə edilməsi, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiq olunması üçün innovativ və əlverişli mexanizm olan Sabirabad Pilot Aqroparkın ərzaq təhlükəsizliyinin möhkəmlənməsində rolu getdikcə gücləndirilir, eyni zamanda, sahibkarlığın inkişafına, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilir.

Ümumiyyətlə, son illərdə ölkəmizdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən layihələr çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Sabirabad Pilot Aqropark kimi müəssisələrin yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində də əhəmiyyətli rol oynayır.

*Vaqif BAYRAMOV*
*XQ*

**Sabirabad**

*Günün şərhi*

# Aqrar sektorda keçidin üstün istiqamətləri

## *Qlobal çağırışlar, dövlət dəstəyi və yeni inkişaf modeli*

**Artan geosiyasi gərginliklər, qlobal iqtisadi transformasiyalar və iqlim dəyişikliklərinin yaratdığı risklər ərzaq təhlükəsizliyi məsələsini prioritetlər sırasına çıxarıb. Bu şəraitdə kənd təsərrüfatının inkişafı yalnız əhalinin ərzaq təminatının deyil, həm də ölkələrin iqtisadi sabitliyinin və sosial rifahının təminatçısıdır.**



Buna görə də kənd təsərrüfatı dövlət səviyyəsində aparılan müzakirələrdə qeyri-neft iqtisadiyyatının əsas istiqamətlərindən biri kimi ön plana çıxır. Bu şəraitdə dövlət dəstəyi aqrar sektorun sabitliyinin və dayanıqlılığının təmin edilməsində əsas mexanizmlərdən birinə çevrilir. 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı çərçivəsində növbəti 5 il ərzində kənd təsərrüfatına əlavə 2,2 milyard manat maliyyə dəstəyinin ayrılması da məhz bu məqsədə xidmət edir. Həmin vəsaitlərin yalnız subsidiya mexanizmlərinin genişləndirilməsinə deyil, həm də sektorun modernləşdirilməsinə, yeni texnologiyaların tətbiqinə və məhsuldarlığın artırılmasına yönəldilməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, əvvəlki dövrdə də aqrar sektora dövlət maliyyə dəstəyi davamlı artım nümayiş etdirib. Belə ki, 2020–2025-ci illər üzrə bu göstərici 890 milyon manat təşkil edib. Qarşıdakı 5 illik dövr üçün nəzərdə tutulan vəsaitin əhəmiyyətli dərəcədə yüksək olması isə təsadüfi deyil. Bunun əsas səbəblərindən biri qlobal münaqişələr və beynəlxalq iqtisadi qeyri-müəyyənliklərin aqrar sektora artan təsiridir.

Son illərdə beynəlxalq təchizat zəncirlərində yaranan fasilələr və logistika çətinlikləri kənd təsərrüfatında istifadə olunan əsas resursların bahalaşmasına gətirib çıxarıb. Gübrə, pestisidlər, kənd təsərrüfatı texnikası və ehtiyat hissələri kimi strateji istehsal vasitələrinin qiymət artımı fermerlərin xərclərini yüksəldərək istehsalın rentabelliyinə əlavə təzyiq yaradıb. Nəticədə məhsulun maya dəyərinin artması, istehsal səmərəliliyinin azalması və bazar rəqabət qabiliyyətinin zəifləməsi kimi risklər aktuallaşıb.

Mövcud qlobal reallıqlar aqrar sektorda daxili istehsal potensialının gücləndirilməsini, resurslardan daha səmərəli istifadəni, rəqəmsal və innovativ həllərin tətbiqini və dayanıqlı istehsal modellərinin formalaşdırılmasını strateji zərurətə çevirir. Bu istiqamətdə görülən tədbirlər həm ərzaq təhlükəsizliyinin uzunmüddətli təminatına, həm də kənd təsərrüfatının qlobal çağırışlara uyğun modernləşdirilməsinə və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Eyni zamanda, qlobal inflyasiya təzyiqləri və istehsal vasitələrinin bahalaşması son illərdə əldə olunan artımın real iqtisadi effektivliyini müəyyən qədər məhdudlaşdırıb. Yeni dəstək paketi isə məhz bu disbalansın aradan qaldırılmasına, fermerlərin maliyyə dayanıqlılığının gücləndirilməsinə və investisiya imkanlarının genişləndirilməsinə yönəlib.

Yeni Dövlət Proqramının əsas fərqləndirici cəhətlərindən biri də onun yalnız subsidiya mexanizmləri üzərində qurulmamasıdır. Burada əsas hədəf kənd təsərrüfatında məhsuldarlığın artırılması və sektorun daha müasir, innovasiyaya əsaslanan inkişaf modelinə keçididir. Bu çərçivədə müasir suvarma sistemlərinin tətbiqi aqrar inkişafın əsas istiqamətlərindən biri kimi çıxış edir. Son illərdə müşahidə olunan quraqlıq dövrləri və su qıtlığı riskləri ənənəvi suvarma üsullarının artıq mövcud çağırışlara tam cavab vermədiyini göstərir.

Bu səbəbdən damcı və yağmurlama kimi müasir suvarma texnologiyalarının geniş tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Həmin sistemlər su itkilərini azaldır, eyni zamanda, məhsuldarlığın yüksəldilməsinə və istehsalın səmərəliliyinin artırılmasına şərait yaradır. Yaxın onilliklərdə aqrar sektorun inkişafını məhz su resurslarının idarə olunması təşkil edəcək.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən su infrastruktur layihələri yalnız kənd təsərrüfatı dövriyyəsinin genişləndirilməsi deyil, həm də ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. İşğaldan azad olunmuş ərazilərin kənd təsərrüfatı istehsalına cəlb edilməsi Azərbaycanın aqrar potensialını genişləndirməklə yanaşı, daxili bazarın təminat imkanlarını da artırır.

Aqrar sektorun transformasiyasında mühüm rol oynayan istiqamətlərdən biri də aqroparkların yaradılmasıdır. Bu məsələ dəfələrlə geniş müzakirə olunub. Bildirilib ki, aqroparklar istehsal, emal, logistika və satış mərhələlərini vahid idarəetmə sistemi daxilində birləşdirərək kənd təsərrüfatında yüksək səmərəliliyin əldə olunmasına şərait yaradır. Nəticədə həm məhsul itkisi azalır, həm də istehsal zəncirinin bütün mərhələlərində əlavə dəyərin formalaşması təmin edilir. Mütəxəssislərin qənaətinə görə, yaxın illərdə ölkəmizdə aqroparkların coğrafiyası və iqtisadi əhatə dairəsi genişlənəcək. Bu istiqamətdə böyük işlər görülür.

Ölkəmiz üçün ixrac potensialının artırılması da xüsusi əhəmiyyət kəsb edir. Son illərdə qeyri-neft ixracında aqrar məhsulların payının artması bu sahənin iqtisadi əhəmiyyətini yüksəldib. Meyvə-tərəvəz məhsulları, fındıq, pambıqçılıq və şərabçılıq istiqamətlərində mövcud imkanlar Azərbaycanın beynəlxalq bazarlardakı mövqeyini gücləndirir. Lakin qlobal rəqabət şəraitində uğur qazanmaq üçün yalnız istehsal həcminin artırılması kifayət etmir. Məhsulun keyfiyyəti, beynəlxalq standartlara uyğun sertifikatlaşdırılması, müasir qablaşdırma və effektiv logistika sistemləri ixracın rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdir.

Bu baxımdan aqrar sektorun gələcək inkişafı daha çox emal sənayesinin genişlənməsindən asılı olacaq. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, yüksək gəlir məhz xammal deyil, emal olunmuş məhsul ixracı hesabına formalaşır. Azərbaycanda da aqrar siyasətin əsas istiqamətlərindən biri əlavə dəyər yaradan istehsal zəncirinin qurulmasıdır. Meyvə şirələri, konserv məhsulları, süd sənayesi, ət emalı və digər sahələrdə yaradılan yeni müəssisələr aqrar sektorun iqtisadi səmərəliliyini artırmaqla yanaşı, regionlarda məşğulluğun genişlənməsinə də töhfə verir.

Dövlət Proqramında emal sənayesinin inkişafına, aqroparkların genişləndirilməsinə, istixana komplekslərinin yaradılmasına və bağçılığın təşviqinə xüsusi diqqət yetirilməsi də məhz bu məqsəddən irəli gəlir. Xüsusilə istixana təsərrüfatları yüksək məhsuldarlıq və böyük məşğulluq potensialı ilə seçilir. Bir hektar istixana sahəsində yaradılan iş yerlərinin sayı ənənəvi əkinçilik sahələri ilə müqayisədə dəfələrlə çoxdur. Oxşar tendensiya intensiv bağçılıq və meyvəçilik təsərrüfatlarında da müşahidə olunur. Bu sahələrin inkişafı həm ixrac gəlirlərinin artmasına, həm də kənd yerlərində əhalinin rifah səviyyəsinin yüksəlməsinə xidmət edir.

Şübhəsiz ki, aqrar sektorun qarşısında duran mühüm çağırışlardan biri də urbanizasiya prosesidir. Şəhərləşmənin sürətlənməsi kənd yerlərində əmək resurslarının azalmasına və kənd təsərrüfatında çalışan əhalinin yaşlanmasına səbəb olur. Gənclərin kənd təsərrüfatından uzaqlaşması isə uzunmüddətli perspektivdə istehsal potensialına təsir göstərə biləcək risklər yaradır. Bu problem yalnız Azərbaycana deyil, dünyanın əksər ölkələrinə xas olan qlobal tendensiyadır. Məhz buna görə aqrar sektorda mexanizasiya və rəqəmsallaşma proseslərinin sürətləndirilməsi strateji zərurətə çevrilib.

Gələcəyin kənd təsərrüfatı daha az əmək resursu ilə daha yüksək məhsuldarlığa nail olmağı hədəfləyir. Artıq dünyanın bir çox ölkələrində dronlar vasitəsilə dərmanlama, peyk məlumatları əsasında əkin monitorinqi, avtomatik suvarma sistemləri və süni intellekt həlləri geniş tətbiq olunur. Azərbaycanda da bu texnologiyaların tətbiq dairəsi genişlənir və yaxın illərdə aqrar istehsalın ayrılmaz hissəsinə çevriləcəyi gözlənilir. Bu da o deməkdir ki, gələcəyin aqrar modeli "ağıllı kənd təsərrüfatı" konsepsiyası üzərində formalaşacaq.

Sensorlar, süni intellekt, peyk texnologiyaları və rəqəmsal idarəetmə sistemləri fermerlərə daha dəqiq qərarlar qəbul etməyə imkan verəcək. Bu, məhsuldarlığın artırılması ilə yanaşı, su, gübrə və digər resurslardan daha səmərəli istifadəyə, istehsal xərclərinin optimallaşdırılmasına şərait yaradacaq.

O da məlumdur ki, müasir kənd təsərrüfatı yalnız fiziki əmək deyil, yüksək ixtisaslı kadrlar və texnoloji biliklər tələb edən sahəyə çevrilib. Aqronomlar, aqrar mühəndislər, su idarəetmə mütəxəssisləri, aqrobiznes menecerləri və rəqəmsal texnologiyalar üzrə peşəkarlar gələcəyin kənd təsərrüfatının əsas aparıcı qüvvələri olacaq. Bu səbəbdən aqrar təhsilin inkişafı və regionlarda müasir təhsil infrastrukturunun formalaşdırılması strateji əhəmiyyət kəsb edir.

Dövlət Proqramında sahibkarlığın maliyyə mənbələrinə çıxışı da regionların inkişafının mühüm istiqamətlərindən biri kimi nəzərdə tutulur. Fermerlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, güzəştli kreditlər, subsidiya mexanizmləri və müxtəlif təşviq alətləri yeni biznes təşəbbüslərinin yaranmasına stimul verir. Bununla kənd təsərrüfatı ilə yanaşı, xidmət, logistika və ticarət sektorları da inkişaf edir. Bu isə regionlarda iqtisadi fəallığın artmasına, yeni iş yerlərinin yaradılmasına və əhalinin gəlir mənbələrinin şaxələndirilməsinə imkan yaradır.

Bütün bunlar göstərir ki, Azərbaycan kənd təsərrüfatı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas xüsusiyyətləri yüksək məhsuldarlıq, rəqəmsallaşma, innovasiyalar, iqlim dəyişikliklərinə uyğunlaşma, ixracyönümlülük və dayanıqlı inkişaf olacaq. Yeni Dövlət Proqramı isə məhz bu transformasiyanın həyata keçirilməsi üçün strateji yol xəritəsi rolunu oynayır. Proqramın uğurlu icrası nəticəsində kənd təsərrüfatı yalnız iqtisadiyyatın ənənəvi sahəsi kimi deyil, ölkənin qeyri-neft inkişafının, regional tərəqqisinin və ərzaq təhlükəsizliyinin əsas dayaqlarından birinə çevriləcək.

***Ə.PÜNHAN***
***XQ***

---

# Xocalının barlı-bərəkətli günləri

## *Azadlığına qovuşmuş torpaqlar bolluq meydanıdır*

**Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" ölkəmizdə aqrar sahənin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına zəmin yaradır. Sənəddə kənd təsərrüfatının inkişafı, habelə yerli istehsal və emal potensialının gücləndirilməsi üçün genişmiqyaslı dəstək mexanizmləri nəzərdə tutulur.**



Dövlət başçısının sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası, həmçinin Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə işğaldan azad olunmuş Xocalıda da çoxsaylı işlər görülür.

Böyük Qayıdış çərçivəsində sakinlərin doğma yurdlarına dönüşü rayonda uzun illərdən sonra əkinçiliyin, maldarlığın, arıçılığın, bağçılığın və baramaçılığın inkişafına zəmin yaradıb. İndi bu bərəkətli torpaqlar insan əməyi sayəsində yenidən canlanır.

**Xocalı Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Habil Rzaquliyevlə** söhbət zamanı öyrəndik ki, 12 min hektardan artıq əkinəyararlı torpaq sahələrinə malik rayonda bu il, ümumilikdə, 8 min hektara yaxın ərazidə dənli bitkilərin əkini həyata keçirilib. Bundan başqa 800 hektarlıq xurma, alma, qoz, heyva, üzüm, alça bağları mövcuddur. Kənd Təsərrüfatı Nazirliyinin keçirdiyi investisiya müsabiqələrinin nəticələrinə əsasən, əkin və bağ sahələri hüquqi və fiziki şəxslərə icarəyə verilib.

Hazırda aqrar sahəni inkişaf etdirmək məqsədilə rayon ərazisində "Agro Dairy", "Xocalı Agro", "Qoç ət", "Zəfər bağları", "Yard Agro" və digər şirkətlər fəaliyyət göstərir. Köhnə meyvə bağları ilə yanaşı, müasir suvarma sistemləri ilə təhciz olunmuş superintensiv alça, gilas və nar bağları salınıb.

**Müsahibimiz 2025–2026-cı təsərrüfat ilində Xocalıda ilk dəfə olaraq yerli əhali tərəfindən də dənli bitkilərin əkildiyini dedi:**

– Ötən il rayonun Ballıca və Xanyurdu kəndlərinin sakinləri ilə torpaqların əkin məqsədli istifadəyə verilməsinə dair icarə müqavilələri imzalanıb. Adıçəkilən kəndlərin sakinləri tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə 2 mərhələdə, ümumilikdə, 177 müraciət daxil olub. Torpaqların istifadəyə verilməsi prosesinin nəzərdə tutulan vaxtda yekunlaşdırılması məqsədilə Xocalı DAİM-in əməkdaşları onlara hərtərəfli texniki dəstək göstərirlər. Daxil olan müraciətlər təhlil olunduqdan sonra əkin üçün təqdim edilən parsellərə müraciətlərin çoxluğu nəzərə alınaraq, əhali arasında birləşmə imkanları barədə məlumatlandırma aparılıb.

Nəticədə, müraciətləri təsdiqlənmiş şəxslərdən 64 nəfəri 8 kooperativ, 28 nəfəri isə 8 ailə-kəndli təsərrüfatı formalaşdırıb. Kənd Təsərrüfatı Nazirliyi (KTN) ilə təsərrüfatların üzvləri arasında icarə müqavilələri imzalanıb.

Cari təsərrüfat ilində Ballıca kəndində fermerlər 153 hektar sahədə arpa və buğda əkiblər. Havaların əlverişli keçməsi, yağışların yağması nəticəsində toxumlar yaxşı inkişaf edib və sahələrdə bol məhsul var. Hazırda biçinə hazırlıq gedir, biçin zamanı sakinlərin texnika sarıdan problemlərlə üzləşməmələri üçün zəruri tədbirlər görülür.

**Mərkəz direktorunun sözlərinə görə, rayonun Təzəbinə və Xanabad kəndlərinin sakinlərinin müraciətlərinin elektron sistemə daxil edilməsi və təlimlərin keçirilməsi prosesi də yekunlaşmaq üzrədir və tezliklə onlarla da müvafiq müqavilələr imzalanacaq:**

– Sevindiricidir ki, müraciət edənlər çoxdur, sakinlər torpağı əkib-becərməyə, təsərrüfatla məşğul olmağa can atırlar. Hər iki kənddən 65-dən artıq müraciət daxil olub. Təlimlər zamanı onlara aqrar sahədə dövlət dəstəyi tədbirləri, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan qurumların göstərdikləri xidmətlər, texnika və damazlıq heyvanların alınmasının maliyyələşdirilməsi barədə məlumatlar verilib. Sakinlərə, həmçinin kənd təsərrüfatı təyinatlı kreditlərin ayrılması, müasir suvarma sistemlərindən istifadənin əhəmiyyəti və aqrar sığorta mexanizminin tətbiqi ilə bağlı maarifləndirici sessiyalar da təşkil edilir.

Təlimlərdə informasiya sistemi vasitəsilə müraciətin necə olunması, müqavilələrdə nəzərdə tutulmuş şərtlər və tələblər, müasir suvarma sistemlərinin əhəmiyyəti, texnikalardan səmərəli istifadə qaydaları, tərəvəzçilik, bitkiçilik, meyvəçilik və əkinçiliklə bağlı innovativ yanaşmalar öyrədilib. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə davranış qaydaları və iqlim dəyişkənliyinin kənd təsərrüfatına təsirləri mövzularında məlumatlandırma aparılıb.

Habil Rzaquliyev azad Xocalıda arıçılığın və heyvandarlığın ilkin mərhələdə əsasən fərdi təsərrüfatlar hesabına inkişaf etdiyini bildirdi. Bununla yanaşı, rayonun Təzəbinə kəndində hüquqi şəxsə məxsus camışçılıq təsərrüfatı fəaliyyət göstərir, həmçinin "Qoç ət", "Xocalı Agro" və digər şirkətlər də heyvandarlığın inkişafına töhfə verir. Heyvanların sağlamlığı üçün rayon ərazisində baytarlıq xidmətinin işi lazımi səviyyədə təşkil edilib.

Xocalı rayonunda aqrar sahənin yenidən dirçəldilməsi tədbirləri zamanı doğma ata-baba yurdlarına qayıtmış qadınların bu sahədə iştirakları diqqətdən kənarda qalmayıb. Ötən ilin sonlarında rayonunun Ballıca kəndində Aqrar Tədarük və Təchizat ASC-nin təşkilatçılığı və PAŞA Holdinqin maliyyə dəstəyi ilə Aqrar Fəaliyyətli Azərbaycan Qadınları layihəsi çərçivəsində "Ballıcanın ilk qadın aqrarçıları"nın toplantısı keçirilib. İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının inkişafına yardımçı olmaq və xüsusilə qadın fermerlərin bu sahədə fəallığını artırmaq, onların dayanıqlı təsərrüfatlar qurmasına şərait yaratmaq məqsədilə təşkil edilən tədbir çərçivəsində, ümumilikdə, 53 qadına dəstək göstərilib, hər birində 5 qadının yer aldığı "Güllü yaylaq" və "Qızıl pətək" kooperativləri təsis edilib. Bu kooperativlər kənd təsərrüfatı məhsullarının emalı və satışı ilə məşğul olacaq. Nəticədə, kənd qadınlarının həm məşğulluq, həm də gəlir imkanları genişlənəcək. Fermerlərin təsərrüfatlarını inkişaf etdirmələrinə dəstək məqsədilə AFAQ layihəsi çərçivəsində yerli sakinlərə 86 ədəd avadanlıq və 18 ton yem verilib, həmçinin sertifikatlar təqdim edilib.

2026-cı il Xocalıda kənd təsərrüfatının digər sahələri ilə yanaşı, baramaçılığın inkişafı baxımından da yaddaqalan olacaq. Belə ki, 34 ildən sonra ilk dəfə olaraq bu il rayonda barama tədarükü həyata keçirilib.



**Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin direktor müşaviri İmran Cümşüdov bildirdi ki, dövlət başçısının tapşırığına əsasən, son iki il ərzində Daşbulaq kəndi ərazisində ilkin mərhələdə 13, sonkarı mərhələ isə 150 hektar olmaqla, ümumilikdə 163 hektar sahədə superintensiv tipli tut bağı salınıb:**

– Layihə İqtisadiyyat Nazirliyinin dəstəyi, Qarabağ Dirçəliş Fondunun qrant vəsaiti hesabına reallaşdırılıb. Əkin işləri zamanı hər hektarda 10 min ədəd Çin Xalq Respublikasından gətirilmiş yüksək yarpaq məhsuldarlığına malik sortda ting əkilib, damlama-suvarma sistemi qurulub. Aqrotexniki qulluq sayəsində tinglərin yaxşı inkişaf etməsinə nail olunub və əldə edilən nəticələr baramaçılığın yenidən bərpasına imkan yaradıb. Bu il KTN-in bölgüsü əsasında təsərrüfata 100 qutu ipəkqurdu verilib və onların yetişdirilməsi uğurla başa çatdırılıb. İlkin olaraq 700 kiloqram barama toplanaraq "Azəripək" MMC-yə təhvil verilib, növbəti mərhələlərdə daha çox baramanın tədarükü nəzərdə tutulur.

İmran Cümşüdov Xocalıda həyata keçirilən kənd təsərrüfatı layihələrinin təkcə istehsalın artırılmasına deyil, həm də doğma yurdlarına qayıdan sakinlərin məşğulluğunun təmin olunmasına xidmət etdiyini dedi. Hazırda Xocalıya köçmüş ailələrin üzvləri müxtəlif kənd təsərrüfatı sahələrində daimi və mövsümi işlərlə təmin olunurlar. Elə Daşbulaq kəndində salınmış tut bağlarında və baramaçılıq təsərrüfatında da yerli sakinlər üçün yeni iş yerləri yaradılıb. Belə layihələr həm əhalinin sosial rifahının yüksəldilməsinə, həm də rayonun iqtisadi həyatının canlandırılmasına xidmət edir.

Gələcəkdə baramaçılıq təsərrüfatının genişləndirilməsi ilə daha çox sakinin işlə təmin edilməsi nəzərdə tutulur.

İşğaldan azad edilmiş Xocalıda aqrar sahələrin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, kooperativlərin və ailə-kəndli təsərrüfatlarının yaradılması, ata-baba yurdlarına dönmüş sakinlərin doğma torpaqlarda əkinçiliklə, maldarlıqla, arıçılıqla, baramaçılıqla məşğul olmaları ölkəmizdə kənd təsərrüfatının inkişafına töhfə verəcək.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Humanitar diplomatiya – strateji tərəfdaşlığa "yumşaq" dəstək

*(əvvəli 1-ci səhifədə)*

Müasir beynəlxalq münasibətlərdə humanitar diplomatiya xarici siyasətin strateji istiqamətlərindən birinə çevrilib. Xüsusilə geosiyasi rəqabətin sərtləşdiyi, beynəlxalq sistemdə etimad böhranının dərinləşdiyi bir dövrdə dövlətlər və cəmiyyətlər arasında qarşılıqlı anlayış və mənəvi yaxınlıq formalaşdırmaq yolu ilə uzunmüddətli tərəfdaşlıqlar qurmağa çalışırlar. Bu baxımdan Azərbaycan–Türkmənistan münasibətlərində son illərdə müşahidə olunan humanitar dinamika strateji xarakter daşıyan düşünülmüş diplomatik siyasətin tərkib hissəsidir.

Prezident İlham Əliyevin Aşqabadda və Arkadağda keçirilən Azərbaycan Mədəniyyəti Günlərini, həmçinin ötən il Türkmənistanın mədəniyyət nümayəndələrinin Bakı və Gəncəyə səfərlərini xüsusi vurğulaması da məhz bu kontekstdə qiymətləndirilməlidir. Mövcud yanaşmanın strateji əhəmiyyəti ondadır ki, siyasi münasibətlər müəyyən dövrlərdə müxtəlif regional və beynəlxalq amillərin təsiri altında dəyişə bilər, lakin xalqlar arasında formalaşmış qarşılıqlı rəğbət, mədəni yaxınlıq və mənəvi bağlılıq əməkdaşlığın uzunömürlü olmasını təmin edən etibarlı amillərdəndir. Məhz buna görə Azərbaycan və Türkmənistan humanitar diplomatiyanı gələcək strateji tərəfdaşlığın sosial və ideoloji təməlini formalaşdıran mühüm xarici siyasət aləti kimi inkişaf etdirirlər.

* * *

Müasir beynəlxalq münasibətlərdə davamlı əməkdaşlığın formalaşmasında ortaq tarixi yaddaş, mədəni yaxınlıq və kollektiv identiklik də mühüm rol oynayır. İki xalqı əsrlər boyu formalaşmış ortaq türk mədəni məkanı, dil yaxınlığı, ədəbi irs, mənəvi dəyərlər və tarixi təcrübə birləşdirir. Məhz bu amillər ikitərəfli münasibətlərə sırf praqmatik əməkdaşlıq çərçivəsindən daha geniş siyasi və sivilizasion məzmun qazandırır.

Prezident İlham Əliyevin mətbuata bəyanatında "tarixi bağlar", "mədəni əlaqələr" və "mənəvi əlaqələr" anlayışlarını ardıcıl şəkildə ön plana çıxarması Azərbaycan–Türkmənistan münasibətlərinin ideoloji və konseptual əsaslarını ifadə edir. Verilən mesaj ondan ibarətdir ki, iki ölkə arasında əməkdaşlıq dərin tarixi-sivilizasion təmələ söykənir. Beynəlxalq münasibətlərdə kollektiv yaddaş və ortaq identiklik dövlətlər arasında etimadın formalaşmasını şərtləndirən mühüm amillərdən hesab edilir. Xüsusilə regional inteqrasiya proseslərində ortaq tarix və mədəni irs siyasi dialoqu asanlaşdıran, qarşılıqlı anlaşmanı gücləndirən və əməkdaşlığın legitimliyini artıran resurs kimi çıxış edir. Azərbaycan və Türkmənistan münasibətlərində də bu yanaşma aydın şəkildə müşahidə olunur.

Qlobal geosiyasi rəqabətin gücləndiyi, təhlükəsizlik arxitekturasının dəyişdiyi və beynəlxalq münasibətlərdə qeyri-müəyyənliyin artdığı şəraitdə dövlətlərarası etimadın qorunması getdikcə mürəkkəbləşir. Belə bir mühitdə ortaq tarixi yaddaşa və mədəni yaxınlığa əsaslanan münasibətlər daha dayanıqlı xarakter alır. Siyasi konfiqurasiyalar dəyişə, regional maraqlar transformasiyaya uğraya bilər, lakin xalqlar arasındakı mənəvi bağlılıq və qarşılıqlı etimad əməkdaşlığın davamlılığını təmin edən sabit amil olaraq qalır.

* * *

Prezident İlham Əliyevin çıxışında Bakı–Aşqabad və Arkadağ–Füzuli şəhərlərinin qardaşlaşmasını xüsusi vurğulaması siyasi məna daşıyır. XXI əsrdə şəhərlər, regionlar və yerli idarəetmə institutları da xarici siyasətin fəal iştirakçılarına çevrilərək "şəhər diplomatiyası" adlandırılan yeni əməkdaşlıq modelini formalaşdırırlar. Azərbaycan və Türkmənistan münasibətlərində bu konsepsiya məhz belə bir məzmun qazanır. Bakı və Aşqabad arasında qardaş şəhər münasibətləri iki paytaxt arasında idarəetmə təcrübəsinin, şəhər planlaşdırmasının, rəqəmsal xidmətlərin, turizm və investisiya imkanlarının qarşılıqlı mübadiləsi üçün institusional baza yaradır.

Diqqətçəkən digər nüans Arkadağ və Füzuli şəhərlərinin qardaşlaşmasıdır. Hər iki şəhər öz ölkələrinin yeni inkişaf fəlsəfəsini təcəssüm etdirən simvollardır. Türkmənistanın müasir şəhərsalma konsepsiyasının nümunəsi olan Arkadağ innovativ idarəetmə, ekoloji yanaşmalar və yeni urbanizasiya modelini özündə birləşdirir. Füzuli isə Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi genişmiqyaslı bərpa və yenidənqurma siyasətinin, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının praktik tətbiq olunduğu əsas məkanlardan biridir.

* * *

Azərbaycan və Türkmənistan daha geniş geosiyasi məkan olan Türk dünyasında inteqrasiya proseslərinin mühüm istiqamətlərindən birini təşkil edir. Son



illər türk dövlətləri arasında siyasi və iqtisadi əlaqələrin sürətlə inkişaf etməsi paralel olaraq ortaq mədəniyyət, təhsil, elm və humanitar əməkdaşlığın da genişlənməsini zəruri edib. Çünki davamlı inteqrasiya cəmiyyətlər arasında ortaq kimlik və qarşılıqlı mənsubiyyət hissinin möhkəmlənməsi ilə mümkündür.

Türk Dövlətləri Təşkilatının fəaliyyətində mədəniyyət, təhsil və ortaq irsin qorunması istiqamətində həyata keçirilən layihələrin artması da məhz bu strateji yanaşmanın göstəricisidir. Ortaq tarixə, dilə və mədəni irsə əsaslanan humanitar təşəbbüslər türk dövlətləri arasında siyasi əməkdaşlığın sosial bazasını genişləndirir və inteqrasiyanın ictimai xarakter almasına şərait yaradır. Hər iki ölkə ortaq türk mədəni irsini ikitərəfli münasibətlərin inkişaf vasitəsinə çevirməklə yanaşı, onu bütövlükdə Türk dünyasının inteqrasiyasına xidmət edən strateji resurs kimi qiymətləndirir.

* * *

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iyunun 23-də paylaşdığı Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun birgə gəzintisinə dair video və onu müşayiət edən açıqlama humanitar diplomatiyanın və strateji tərəfdaşlığın dərinləşməsinə verilən siyasi qiymət kimi diqqət çəkir. Hikmət Hacıyevin vurğuladığı kimi, "Azərbaycan və Türkmənistan prezidentlərinin tarixi Şuşa şəhərində birgə gəzintisi xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələrinin, ortaq mədəni irsin və qarşılıqlı etimadın parlaq təzahürüdür. Bu, eyni zamanda ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ortaq iradəni əks etdirir".

Türkmənistan Prezidentinin Şuşada olması və Azərbaycan Prezidenti ilə birlikdə şəhərlə tanışlığı iki ölkə arasında qarşılıqlı etimadın ən yüksək siyasi səviyyədə nümayiş etdirildiyini göstərir. Eyni zamanda, Şuşa ziyarəti Azərbaycan–Türkmənistan münasibətlərinin mədəni komponentini daha da gücləndirir. Hər iki ölkə ortaq türk sivilizasiyasının daşıyıcısı kimi Şuşanı bütövlükdə Türk dünyasının zəngin mədəni irsinin mühüm mərkəzlərindən biri kimi qiymətləndirir.

Son olaraq qeyd edək ki, Azərbaycan–Türkmənistan münasibətlərinin yeni mərhələsində humanitar diplomatiya strateji tərəfdaşlığın əsas sütunlarından biridir. Tarixi bağların, mədəni irsin və mənəvi yaxınlığın dövlət siyasətinin aktiv alətinə çevrilməsi iki ölkə arasında etimadı dərinləşdirir və əməkdaşlığın dayanıqlığını artırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türk Dövlətləri Təşkilatı ortaq kibersipər yaradır

## *Məlumat təhlükəsizliyi və siyasi müttəfiqliyin rəqəmsal təməli*

**Qlobal güclərin rəqabət meydanına çevrilən kiberməkan və məlumat axını dövlətlərin müstəqil siyasi qərarlar qəbuletmə qabiliyyətinə bilavasitə təsir göstərir. Belə şəraitdə regional təşkilatların fəaliyyət dairəsini rəqəmsal sahəyə genişləndirməsi, sadəcə, texnoloji zərurət kimi qiymətləndirilməməlidir. Mövcud vəziyyət dövlətlərin xarici asılılıqdan qurtulması və suverenliyini qoruması yolunda atılan strateji siyasi addımdır. Türk Dövlətləri Təşkilatının (TDT) 11-ci Zirvə Toplantısında imzalanan və üzv ölkələr tərəfindən ratifikasiya edilən Rəqəmsal İqtisadiyyat Tərəfdaşlıq Sazişi məhz regional təhlükəsizlik və siyasi inteqrasiyanın yeni mərhələsini təşkil edir.**




Ankaranın rəqəmsal tərəfdaşlıq sazişini "Rəsmi qəzet"də yayımlayaraq daxili təsdiq prosesini tamamlaması mühüm siyasi hadisədir. Türkiyə Bakı və Daşkənddən sonra sazişi qüvvəyə mindirən üçüncü üzv dövlət oldu. Azərbaycan və Özbəkistan ötən il daxili hüquqi prosedurları tamamlamış, Qırğızıstan və Qazaxıstanın da yaxın zamanda prosesi yekunlaşdıracağı gözlənilir. Sözügedən ratifikasiya dalğası təşkilatdaxili siyasi iradənin nə dərəcədə güclü olduğunu nümayiş etdirir. TDT-nin, sadəcə, mədəni və tarixi bağlara əsaslanan platformadan real siyasi və hüquqi öhdəliklər daşıyan bloka çevrilməsi prosesi sürətlənir.

Texnoloji asılılıq müasir dövrdə dövlətlərin daxili və xarici siyasətinə bilavasitə müdaxilə vasitəsinə çevrilə bilər. Qlobal rəqəmsal platformaların və texnologiya nəhənglərinin hegemonluğu milli dövlət strukturunu zəiflətmək potensialına malikdir. Məhz qeyd olunan səbəbdən, Türk dünyasının rəqəmsal infrastrukturunu birləşdirmək və məlumat axınını birgə qaydalarla tənzimləmək dövlətlərin suverenliyini təmin edir. Saziş rəqəmsal xidmətlərin və sərhədlərarası məlumat əsaslı fəaliyyətlərin qarşısındakı maneələri aradan qaldırarkən, eyni zamanda, kənar güclərin məlumat manipulyasiyası imkanlarını məhdudlaşdırır. Coğrafi olaraq Orta Dəhliz vasitəsilə fiziki nəqliyyat və logistika xətlərini birləşdirən TDT bu addımla rəqəmsal Orta Dəhlizin təməlini qoyur. Siyasi nöqteyi-nəzərdən rəqəmsal dəhliz Avrasiyanın geosiyasi balansında TDT coğrafiyasını həlledici tranzit və rəqəmsal idarəetmə qovşağına çevirmək hədəfi güdür.

Sazişdə yer alan kibertəhlükəsizlik sahəsində əməkdaşlıq müddəaları bilavasitə milli təhlükəsizlik strategiyalarının sinerjisidir. Müasir müharibələr və siyasi münaqişələr ilk növbədə kiberhücumlarla, kritik infrastruktura edilən müdaxilələrlə başlayır. TDT-yə üzv dövlətlərin kibertəhlükəsizlik sahəsində vahid platformadan çıxış etməsi, təhdidləri öncədən müəyyən etməyə və onlara qarşı kollektiv müdafiə sistemi qurmağa imkan verir. Məlumatların mühafizəsi və elektron imza sistemlərinin qarşılıqlı tanınması dövlət idarəçiliyinin rəqəmsal müstəvidə asılılığını azaldır, milli rəqəmsal sistemlərin suverenliyini gücləndirir. Eyni zamanda, milli təchizatçı məlumat bazalarının yaradılması və elektron ödəniş mexanizmlərinin inkişafı, qlobal maliyyə və informasiya sistemlərindən gələ biləcək siyasi təzyiqlərə və sanksiyalara qarşı dayanıqlıq yaradır.

TDT-nin rəqəmsal məkanda müstəqil gücə çevrilməsi qlobal güc mərkəzlərinin diqqətindən kənarda qala bilməz. Şərqdə Çinin rəqəmsal modeli və texnoloji yayılma siyasəti, Qərbdə isə ABŞ və Avropa İttifaqının rəqəmsal qayda və standartları arasında da Avrasiya dövlətləri çox vaxt seçim etmək məcburiyyətində qalırdı. Rusiya isə regional informasiya sahəsində üstünlüyünü qorumağa çalışır. TDT-nin rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq sazişi imzalayaraq ortaq standartlar müəyyən etməsi, kənar rəqəmsal diktatura modellərindən uzaqlaşmaq və müstəqil tərəfdaşlıq platforması yaratmaq iradəsidir.

Sözügedən sazişin formalaşması və qəbulunda Azərbaycanın və Türkiyənin strateji liderliyi mühüm rol oynadı. Bakının təşəbbüsü, xüsusilə İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin fəaliyyəti sənədin hazırlanmasında əsas hərəkətverici qüvvə oldu. Azərbaycanın rəqəmsal transformasiya sahəsində qabaqcıl layihələri və regional təşəbbüsləri TDT çərçivəsində rəqəmsal standartların formalaşdırılmasına önəmli töhfə verdi. Türkiyənin isə rəqəmsal infrastruktur imkanları və qlobal səviyyədə texnoloji rəqabət qabiliyyəti sazişin siyasi və strateji çəkisini əhəmiyyətli dərəcədə artırdı. Ankara və Bakı arasındakı strateji tərəfdaşlıq və Şuşa Bəyannaməsi ilə rəsmiləşən müttəfiqlik indi rəqəmsal müstəvidə bütün Türk dünyasını əhatə edəcək şəkildə genişlənir. İki dövlətin rəqəmsal sahədəki koordinasiyası digər üzv dövlətlərin də daxili islahatlarına təkan verir, rəqəmsal idarəetmə standartlarını yaxınlaşdırır.

Daşkəndin sazişə verdiyi dəstək və daxili təsdiq prosesini sürətlə tamamlaması Mərkəzi Asiyanın geosiyasi dinamikasında ciddi dönüş nöqtəsidir. Özbəkistan son illər həyata keçirdiyi xarici siyasət kursunda regional əməkdaşlığa və TDT-yə xüsusi önəm verir. Daşkənd rəqəmsal tərəfdaşlığı daxili modernləşmə və regional liderlik strategiyasının ayrılmaz hissəsi sayır. Eyni zamanda, Bişkek və Astananın da sazişə qoşulmaq istiqamətində atdığı addımlar Mərkəzi Asiyada suveren rəqəmsal ekosistemin qurulmasına xidmət edir. Qırğızıstan parlamentinin qanun layihəsini təsdiqləməsi və Qazaxıstanın həmin istiqamətdəki fəaliyyəti göstərir ki, bölgə dövlətləri xarici güclərin texnoloji monopoliyasından qorunmaq üçün ortaq çətir altında birləşməyin zəruriliyini dərk edir. Hüquqi tənzimləmələrin yaxınlaşması regional siyasi harmoniyanı gücləndirir və TDT daxilində qərar qəbuletmə mexanizmini daha çevik formaya salır.

TDT-nin institusional gücü və katibliyin rolu sazişin icrasında həlledici rol oynayacaq. İstanbulda yerləşən katiblik üzv dövlətlərin rəqəmsal siyasətlərini əlaqələndirən mərkəz funksiyasını yerinə yetirir. Sənədin imzalanmasından sonra katibliyin koordinasiya fəaliyyəti daha da aktivləşdi. Texniki standartların, kibertəhlükəsizlik protokollarının və rəqəmsal ticarət qaydalarının uyğunlaşdırılması üçün yaradılan işçi qrupları dövlətlər arasındakı bürokratik əlaqələri qısaldır. Təşkilatdaxili yeni strukturların yaradılması TDT-ni, sadəcə, sammitlər formatında fəaliyyət göstərən orqandan daimi işlək institusional struktura çevirir. Hüquqi və texniki sahələrdə yaradılan mütəmadi əlaqələr siyasi müttəfiqliyin təməlini daha sarsılmaz edir.

Türk dünyasında rəqəmsal ticarət və rəqəmsal xidmətlər sahəsində yaranan yeni hüquqi dövr, regional dövlətlərin qlobal güc rəqabətindəki mövqeyini kökündən möhkəmləndirir. Rəqəmsal İqtisadiyyat Tərəfdaşlıq Sazişinin tam qüvvəyə minməsindən sonra Avrasiya məkanında kənar rəqəmsal inhisarçıların təsir imkanları sıfırlanacaq. Azərbaycan, Türkiyə və Özbəkistanın ardınca Qırğızıstan və Qazaxıstanın daxili təsdiq prosedurlarını başa çatdırması ilə başlayacaq yeni mərhələ türk ittifaqının rəqəmsal əsrdəki ən böyük qələbəsi hesab olunur. Bu ittifaq beynəlxalq təhlükəsizlik sistemində ədalətli nizamın qurulmasını təmin edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Replika*

# "Avropa zəhmətkeşləri"nə erməni əriyi

## *"Söhbət sosiskada deyil e, "vnimatelni" olmaqdadır", amma...*



**Avropa İttifaqının Genişlənmə məsələləri üzrə komissarı Marta Kos özünün "X" sosial şəbəkəsindəki mikrobloqunda sevincək paylaşım edib. O, erməni əriyinin ilk simvolik partiyasının Aİ məkanına daxil olduğu xəbərini yayıb. Xəbər də nə xəbər, şəkilli filanlı. Şəkildə isə Ermənistanın ərazi idarəermə və infrastruktur naziri David Xudatyan ərik dolu kiçik bağlamanı M.Kosa təqdim edir.**

Qeyd edək ki, D.Xudatyan və M.Kos Aİ-nin "Bağlantı gündəliyi" platforması çərçivəsində görüşüblər. İkincinin yazdığına görə, bu platforma çərçivəsində Ermənistanın qonşuları və Avropa ilə daha sıx əlaqələndirilməsi istiqamətində aparılan işi təşviq ediləcək. Görəsən, təşviqinə ehtiyac duyulan nədir? Bu barədə sonda söz açacağıq.

Məşhur Azərbaycan filmi "Uşaqlığın son gecəsi"ndə deyildiyi kimi, "söhbət sosiskada deyil e, "vnimatelni" olmaqdadır". İndi M.Kos D.Xudatyanın Avropaya gətirdiyi bir bağlama əriyi əlində tutaraq, təmsil etdiyi qurumun Ermənistana diqqətlə yanaşdığını göstərmək istəyir. Halbuki hazırda erməni əriyinin çox böyük hissəsi Rusiya bazarlarına doğru yön almaqdadır. Hələ bu məhsulun sərhəddən vaxtında keçə bilməyib yolda xarab olduğunu da bildirməliyik... Bəli, M.Kos paylaşımı ilə Rusiyada qıcıq yaradır. O, Aİ bazarlarının Ermənistanın üzünə açıq olduğunu göstərir. Rusiyada isə Ermənistana qarşı aqressiv münasibət hökm sürməkdədir. Xüsusən, 7 iyun parlament seçkilərindən sonra şantaj elementləri müşahidə edilməkdədir. Mövcud xüsusda erməni əriyinin timsalında Ermənistanın kənd təsərrüfatı məhsullarının ölkəyə buraxılmaması kimi çağırışlara da rast gəlinməkdədir.

Doğrudur, Baş nazir Nikol Paşinyan hədələrə boyun əymədiyini göstərib və ölkəsi üçün iqtisadi alternativlərdən danışıb. Həqiqətən, erməni əriyi, ümumən, Ermənistanın kənd təsərrüfatı məhsulları Avropanın bir, yaxud iki ölkəsinin marketlərinə çatsa, bəs edər və hesab edirik ki, indiki durumda bu mexanizmi qurmaq mümkündür. Amma məsələ yalnız ərikdə deyil. Üstəlik, mümkün olan iş də reallaşmayıb, daha doğrusu, sistemli xarakter almayıb.

...Başlıca məsələ Ermənistan iqtisadiyyatının real nəfəs borusunun hələ də şimala açıq qalmasındadır və bu, istər-istəməz Rusiyanın ölkəyə təsir alətidir. Brüsseldə nümayiş etdirilmiş kiçik ərik bağlaması isə iqtisadi hadisədən daha çox, siyasi olay təsiri bağışlayırsa və Aİ-də Ermənistan üçün alternativ istiqamətlərin mövcudluğu vurğulanırsa, qurum rəsmiləri daha fəal işləməlidirlər. Hələlik, bu baxımdan M.Kosun barəsində söz açdığı "Bağlantı gündəliyi" platforması var. Əlavə edək ki, platformanın məqsədi Ermənistanın yeni nəqliyyat, logistika, habelə iqtisadi inteqrasiya imkanlarının yaradılmasıdır və məsələyə qayıdacağıq.

Əlbəttə, söhbət təkcə erməni əriyinin Avropaya daşınmasından yox, Ermənistanın geosiyasi trayektoriyasının dəyişdirilməsindən gedir. Buna görə də "köhnə qitə"yə gətirilən ilk simvolik ərik partiyası, əslində, kənd təsərrüfatı xəbəri deyil, geosiyasi kommunikasiya aktıdır. Bir tərəfdən Brüssel Ermənistanı yeni tərəfdaşlıq perspektivləri ilə ruhlandırır, digər yandan isə Moskvaya regionda yeni rəqabət mərhələsinin başladığı mesajını verir.

Onu da deyək ki, Aİ-nin timsalında Qərbin Ermənistanı bu sayaq ruhlandırmalarını az görməmişik. O cümlədən, kağız üzərindəki dəstək ritorikasını da. Ermənistanın Avropa məkanına iqtisadi inteqrasiyası baxımından isə real iş "Bağlantı gündəliyi" platforması ola bilməz. Sözümüz ondadır ki, hazırkı şəraitdə Rusiyaya, belə demək mümkünsə, ərik mesajının verilməsi arxı keçməzdən əvvəl "hop" deməyə bənzəyir.

Avropa Ermənistanı həqiqətən istəyirsə, bunun nəticələrini düşünməlidir. Düşünməlidir ki, inqilabi yola bənzər metoda üstünlük verilməsi indiki durumda Ermənistana yalnız zərər verə bilər. Nəzərə alaq ki, əriklə dolu 3-4 "TIR"ın sərhəddən vaxtında keçə bilməməsi erməni kəndlisi üçün dolanışıq mənbəyinin itirilməsidir. Görəsən, Avropa bunun təzminatını ödəyərmi? İnanmırıq.

Sonda bilavasitə "Bağlantı gündəliyi" platformasının üzərində dayanaq. Onun məqsəd və məramını vurğuladıq. Diqqətçəkən məqam təşəbbüsün Ermənistanın qonşuları ilə əlaqələrinin gücləndirilməsi məntiqindədir. Görəsən, bunun üçün Aİ-nin dəstəyinə nə ehtiyac var? Bu gün Azərbaycan dövlətinin xoş niyyətinin göstəricisi olaraq, ölkəmizin məhsullarının Ermənistana ixracı həyata keçirilir, həmçinin digər məmləkətlərdən Ermənistana Azərbaycan üzərindən mallar daşınır. Real iş budur. Daha real tədbirlərin gerçəkləşdirilməsinin isə konkret mexanizmi var.

Söhbət Azərbaycan və Ermənistan liderlərinin ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə imzaladıqları Birgə Bəyannamənin "Beynəlxalq Sülh və Rifah naminə Tramp yolu" və ya qısaca TRIPP müddəasından gedir. Avropada nəzərə alınmalıdır ki, Ermənistan üçün əsas olan məhz bu müddəanın Naxçıvana maneəsiz yol seqmentidir. Yolun tez bir zamanda fəaliyyətə başlaması təmin edilməlidir. İndiki durumda "Bağlantı gündəliyi" və ona bənzər digər təşəbbüslər isə mahiyyətcə susuz quyuya su tökməyə bənzəyir. Deməli, obrazlı desək, M.Kos və digər Aİ rəsmiləri erməni əriyini elə yeməlidirlər ki, boğazlarında qalmasın.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Ermənistanda parlament seçkiləri stajlı politoloqların, praqmatik erməni ekspertlərin proqnozlaşdırdığı nəticələri verdi. Hələ seçkiyə qədər əksər sosioloji sorğulardakı uyğunsuzluqlar mahiyyət etibarı ilə mənasız imiş. Ona görə ki, sorğuların böyük qismi qərəzli sosioloji beyin mərkəzləri tərəfindən aparılırdı. Obyektiv və vicdanlı tədqiqatçılar isə ciddi problemlə üzləşdilər: respondentlərin 80 faizi seçimlə bağlı suala cavab verməkdən imtina etdi.**

# Ermənistan: “Sülh körpüsü”, seçkilər və konstitusiya

*Bir-biri ilə sıx bağlı olan bu 3 məsələyə qonşu ölkədə baxış*

Yerli elektron medianın bu, eləcə də seçkidən sonrakı mərhələ, parlamentdə qüvvələr nisbəti, Azərbaycan və Ermənistan arasında dialoqun irəlilətməsi, “Sülh körpüsü” təşəbbüsünün davam etdirilməsi ilə bağlı suallarını İrəvan Mətbuat Klubunun fəxri prezidenti, “Sülh körpüsü” vətəndaş təşəbbüsünün iştirakçısı, politoloq Boris Navasardyan cavabandırıb. Onunla müsahibənin qısa ixtisarla tərcüməsini oxucuların diqqətinə veririk.

**– Gəlin, əvvəlcə seçkilərdən sonra Ermənistandakı ümumi siyasi mənzərəyə nəzər yetirək...**

– Erməni elektoratın əsas hissəsinin müəyyən liderlərə qarşı münasibəti etimad, simpatiya və ya antipatiya üzərində olub. Seçici həmişə onların xarici siyasət gündəmlərini araşdırıb. Əminəm ki, “Güclü Ermənistan” ana müxalifət blokuna səs verənlərin arasında Aİ ilə yaxınlaşmanın və Azərbaycanla sülhün tərəfdarları da var. Sadəcə, onlar üçün heç bir halda Nikol Paşinyanın hakimiyyəti saxlaması məqbul



sayıla bilməzdi və bu səbəbdən ən çox ehtimal olunan alternativə səs verdilər. Digər tərəfdən, hakim “Mülki müqavilə” partiyasına səs verənlərin arasında Paşinyanın xarici siyasətini tam dəstəkləməyənlər də ola bilərdi. Belələri isə keçmişlə bu və ya digər şəkildə bağlı olanların hakimiyyətə gəlməsinin qəti əleyhinə idilər. Əlbəttə, seçicilərin şəxsi maraqları da rol oynayıb. Ona görə də inzibati resurslardan sui-istifadə və ya vətəndaşların rüşvətlə ələ alınması barədə danışılır. Bütün bunlar Ermənistan cəmiyyətindəki mövcud əhvali-ruhiyyəni qiymətləndirərkən nəzərə alınmalıdır. Mən əminəm ki, Azərbaycanla münasibətlərin normallaşdırılmasının tərəfdarı olanlar sülh sazişinin imzalanmasını dəstəkləyən “Mülki müqavilə”-çilərin və bir neçə azlıq partiyanın ümumi sayından qat-qat çoxdur. Yəni Ermənistan–Azərbaycan dialoqunun davam etdirilməsi və dərinləşdirilməsi perspektivi kifayət qədər ümidvericidir.

**– Sizin də fəal iştirak etdiyiniz “Sülh körpüsü” vətəndaş təşəbbüsü ilə bağlı gələcək planlarınız nədən ibarətdir?**

– Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla “Sülh körpüsü” təşəbbüsünü birbaşa dəstəkləyən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev arasında bu yaxınlarda keçirilən görüş seçkilərlə bağlı qısa fasilədən sonra iki tərəf arasında bütün sahələrdə əməkdaşlığın davam etdiriləcəyini nümayiş etdirir. İnanıram ki, hər iki ölkənin ictimaiyyəti tezliklə “Sülh körpüsü” çərçivəsində yeni təşəbbüslərdən xəbər tutacaq. Daha əvvəl qeyd edildiyi kimi, konkret istiqamətlər üzrə konkret layihələr hazırlanacaq. Təşəbbüs iştirakçıları qarşıdakı görüşlərdə həmin layihələri və müddətləri müzakirə edəcəklər.

“Sülh körpüsü” ilə yanaşı, Ermənistan və Azərbaycandan olan ekspertlər, jurnalistlər, ictimaiyyət nümayəndələri arasında qarşılıqlı əlaqələr digər təşəbbüslər vasitəsilə də davam edir. Mənim başçılıq etdiyim İrəvan Mətbuat Klubu Bakı Mətbuat Klubu ilə əməkdaşlığını, ilk növbədə, ortaq media platformamız olan “PressClubs TV”də, iki ölkənin nümayəndələri arasında televiziya dialoqlarını, o cümlədən “Sülh körpüsü”nün koordinatorları Areq Koçinyan və Fərhad Məmmədovun həftəlik seqmentini müntəzəm olaraq yayımlayır.

**– Şimal qonşumuzun üzərinə gələk. Niyə Rusiya rəsmilərinin ritorikasında gərginliyin səviyyəsi azalmır? Moskva İrəvana sərt siyasi bəyanatlarla təzyiq göstərməklə, bir sıra məhsullarına**




**sanksiyalar tətbiq etməklə Ermənistandan nə əldə etməyə çalışır? Bu vəziyyətin inkişafını necə görürsünüz? Paşinyan Moskva ilə konsensus tapacaqmı?**

– Son ayların hadisələri göstərdi ki, Rusiya İrəvanda daha zəif hökumət qurmaq, təsir imkanlarını gücləndirmək üçün parlament seçkilərinin legitimləşdirilməsində son dərəcə maraqlı idi. Kreml seçicilərə ideoloji və iqtisadi təzyiqdən tutmuş, Paşinyanın bəzi opponentlərinə birbaşa dəstəyə qədər geniş vasitələrdən istifadə etdi. Bu isə onsuz da qütbləşmiş siyasi səhnəmizdə böyük əsəb gərginliyi yaratdı. Amma Rusiyanın öz məqsədinə çatdığını söyləmək şişirtmə olardı. Bəli, müxalifət seçkilərin rəsmi nəticələrinə etiraz etmək üçün bütün imkanlardan, o cümlədən Konstitusiya Məhkəməsinə müraciətdən istifadə edəcək ki, bu da cəmiyyətdə müəyyən qarşıdurma mühitini saxlayacaq. Amma çətin ki, bu, yeni hökumətin formalaşmasına mane olsun. Paşinyan artıq beynəlxalq tərəfdaşlarından seçkilərdə qələbəsi münasibətilə təbriklər alıb. Moskva gec-tez bununla hesablaşmalı olacaq, ona görə də tərəflər mövcud fikir ayrılıqlarını, ilk növbədə isə həm ikitərəfli, həm də Aİİ çərçivəsində iqtisadi məsələləri həll etməli olacaqlar.

**– Ölkədən kənarda üçüncü tərəflərin maraqlarını təmsil edən iki müxalifət partiyasının nümayəndələri parlamentə daxil oldular. Nikol Paşinyan artıq müxalifətlə, o cümlədən hüquqi müstəvidə sərt mübarizə aparacağını bəyan edib. Aydındır ki, bu qüvvələr ilk növbədə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasına və ölkənin inkişafı üçün həlledici qanunların qəbuluna sipər çəkməyə çalışacaqlar. Sizin fikrinizcə, baş nazir bu planlara təsir göstərə, konstitusiyanın dəyişdirilməsi ilə bağlı referendum keçirilməsini təmin edə biləcəkmi?**

– Çox şey hakim partiyadan və müxalifətdən olan deputatların öz işlərinə nə dərəcədə rasional yanaşmalarından asılı olacaq. Onların son 5 ildə parlamentdə hökm sürən və erməni siyasi təbəqəsinin cəmiyyət qarşısında imicinə ciddi zərbə vuran qarşıdurma mühitinin mənasızlığını dərk edəcəklərini istisna etmirəm. Qanunverici orqana daxil olan qüvvələr növbəti seçkidə də uğur gözləyirlərsə, sübut etməli olacaqlar ki, bütün fikir ayrılıqlarına baxmayaraq, milli maraqlar, sülh və regionda inkişaf naminə səmərəli əməkdaşlıq etməli, konstitusiya çoxluğunu tələb edən məsələlərdə güzəştə getməlidirlər. Azərbaycan ictimaiyyəti ölkələr arasında münasibətlərin normallaşması, sülh sazişinin imzalanması və qüvvəyə minməsini böyük ölçüdə müəyyən edəcək Ermənistanın yeni konstitusiya layihəsinə parlament tərəfindən dəstək verilməsinin mümkünlüyü ilə maraqlanır. Bu da təbiidir. Anlamaq vacibdir ki, yeni Əsas Qanunun əhəmiyyəti təkcə Azərbaycanda suallar doğuran preambulaya düzəlişdə deyil, həm də Ermənistanın özündə siyasi və ictimai həyatı tənzimləyən bir sıra institusional islahatlardadır. Xüsusən də yeni konstitusiya layihəsi hələ çap olunmadığı və ictimai müzakirəyə başlanmadığı üçün bu proses uzana bilərdi. Mən inanırdım, indi də inanıram ki, Bakı ilə İrəvan arasında münasibətlərin tədricən normallaşması Ermənistanın daxili siyasi vəziyyətinin girovuna çevrilməməlidir. Artıq bir il əvvəl xəyal edə bilmədiyimiz uğurlar var: müxtəlif formatlarda təmaslar, kommunikasiyaların açılması, ticarət, cəmiyyətlərarası dialoq üzrə qərarlar. Biz diplomatik əlaqələrin olmaması səbəbindən daha da genişlənməyə mane ola biləcək mərhələyə çatmışıq. Yəqin bu məsələ yaxın gələcəkdə prioritet məsələyə çevriləcək. Belə ideyaların və planların həyata keçirilməsində irəliləyiş cəmiyyətimizə və onun Ermənistan parlamentindəki nümayəndələrinə müsbət təsir göstərməyə bilməz. Fikrimcə, Ermənistan siyasətinin dağıdıcı seqmentinin, o cümlədən onun qanunvericilik formatının müqavimətini dəf etmək üçün cəmiyyət taktiki intriqalara deyil, məhz buna arxalanmalıdır.

*Hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

---

**Erməni Apostol Kilsəsi ilə ölkə hakimiyyəti arasında gərginlik qalmaqdadır. Doğrudur, son vaxtlar bu məsələdə zahirən nisbi sakitlik hökm sürür. Bu vəziyyət daha çox hakim komandanın seçki marafonuna köklənməsi ilə əlaqədar idi.**

# İrəvanda növbə kilsəyə çatdı

*Paşinyan yarımçıq qalmış planını həyata keçirə biləcəkmi?*

Əslində, bu, gözlənilən idi. Bir sıra ekspertlər aylar öncə bildirirdilər ki, hakimiyyət seçkiqabağı dövrdə kilsə ilə bağlı məsələdə fasilə götürəcək. Çünki kilsə tarixən xalq arasında böyük nüfuza malik institutdur. Ermənistan konstitusiya baxımından dünyəvi dövlət olsa da, ölkə konstitusiyasında (18.1-ci maddə) “erməni xalqının mənəvi həyatında, milli mədəniyyətinin inkişafında və milli kimliyinin qorunmasında milli kilsə kimi Erməni Apostol Müqəddəs Kilsəsinin müstəsna missiyası” təsbit edilib. Bu mənada, Paşinyan da ehtiyatlı davranış nümayiş etdirməyə üstünlük veririb.



Paşinyanın rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının seçki platformasında “Erməni Apostol Kilsəsinin islahatı” məsələsi ilə bağlı müddəa da yer almışdı. Aprelin 3-də Paşinyanın “Facebook” səhifəsində dərc olunan platformada Erməni Apostol Kilsəsində mərhələli islahat – kilsənin faktiki rəhbəri kimi katolikosun vəzifədən kənarlaşdırılması, əvvəlcə müvəqqəti rəhbərin seçilməsi, yeni kanonik qaydanın (nizamnamənin) qəbulu və daha sonra bütün ermənilərin yeni katolikosunun seçilməsi təklif olunurdu.

* * *

Seçkilər artıq geridə qalıb. Paşinyanın rəhbərlik etdiyi siyasi qüvvə qalib gəlməklə kifayətlənməldi, həm də hökuməti təkbaşına formalaşdırmaq üçün parlamentdə kifayət qədər güclü mövqe qazandı. Baş nazirin yenidən bu vəzifəyə seçilməsi məsələsi də öz həllini tapandan sonra Ermənistanın siyasi gündəmində yeni mərhələ başlayır. Bu mərhələnin əsas mövzularından biri, şübhəsiz ki, Erməni Apostol Kilsəsi ilə bağlı Paşinyanın səslondirdiyi planlar olacaq.

Ermənistan cəmiyyətində kilsənin təsiri hələ də kifayət qədər böyükdür və hakimiyyət bunun fərqində idi. Seçkilərin nəticələri göstərdi ki, Paşinyan bu mövzunu, sadəcə, müəyyən müddətə arxa plana keçirmişdi. Onun rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının seçki proqramında kilsədə dəyişikliklərlə bağlı müddəaların yer alması təsadüfi deyildi. Bu, baş nazirin həmin məsələdən geri çəkilmədiyini, sadəcə, daha münasib məqam gözlədiyini nümayiş etdirirdi. İndi həmin məqamın yetişdiyini söyləmək mümkündür. Çünki Paşinyan artıq seçkiqabağı dövrdə üzləşdiyi məhdudiyyətlərdən azaddır. O, seçicilərdən yenidən mandat alıb və növbəti illər üçün siyasi gündəliyini həyata keçirmək imkanına malikdir. Bu baxımdan yaxın aylarda kilsə ilə bağlı müzakirələrin yenidən intensivləşəcəyi gözlənilir. Burada diqqətçəkən əsas məqam odur ki, Paşinyan məsələni təkcə II Qareginin şəxsiyyəti ilə əlaqələndirmir. O, uzun müddətdir kilsənin fəaliyyət qaydalarında dəyişikliklərin vacibliyindən danışır. Baş nazir hesab edir ki, mövcud vəziyyət yenilənməlidir və bu proses rəhbərliyin dəyişməsi ilə müşayiət olunmalıdır. Məhz buna görə də onun təqdim etdiyi yanaşmada əvvəlcə katolikosun vəzifədən uzaqlaşdırılması, daha sonra isə yeni rəhbərin seçilməsi nəzərdə tutulur.

Ancaq bu prosesin asan keçəcəyini düşünmək sadəlövhlük olardı. Ermənistan tarixində kilsə yalnız dini qurum kimi çıxış etməyib. O, uzun illər ərzində milli kimliyin qorunmasında mühüm rol oynayıb. Bu səbəbdən kilsə ətrafında baş verən hər hansı hadisə cəmiyyətdə emosional reaksiyalar doğurur. Katolikosun dəyişdirilməsi istiqamətində atılacaq addımlar da istisna olmayacaq. Digər tərəfdən, son illərdə II Qareginlə Paşinyan arasında yaranmış qarşıdurma artıq sırf dini mövzu çərçivəsini aşaraq siyasi məzmun qazanıb. Kilsə rəhbərliyi müxtəlif vaxtlarda hökumətin siyasətini tənqid edib, hökumət isə öz növbəsində kilsəni dəyişikliklərə müqavimət göstərməkdə ittiham edib. Bu fonda tərəflər arasında etimadın formalaşması daha da çətinləşib.

Məhz buna görə qarşıdakı dövrdə Ermənistanın daxili gündəminin ən diqqətçəkən mövzularından biri yenə də kilsə-hakimiyyət münasibətləri olacaq. Seçkilər başa çatıb, siyasi qeyri-müəyyənlik aradan qalxıb və Paşinyan artıq seçki kampaniyasının deyil, öz proqramının icrası mərhələsinə keçib. Bu isə o deməkdir ki, bir müddət təxirə salınmış məsələlər yenidən gündəmə qayıdacaq. Hazırda Paşinyanın qarşısında seçim yox, verdiyi vədlərin taleyi dayanır. Əgər o, seçki proqramında yer alan müddəalara sadiq qalacaqsa, Erməni Apostol Kilsəsi ilə bağlı planların həyata keçirilməsi istiqamətində addımların atılması qaçılmaz görünür. Bu addımların Ermənistan cəmiyyətində hansı reaksiyalara səbəb olacağını isə yaxın aylar göstərəcək. Bir məsələ artıq indidən aydındır: seçkiqabağı dövrün sakitliyi uzun sürməyəcək və kilsə mövzusu yenidən ölkənin ən çox müzakirə olunan məsələlərindən birinə çevriləcək.



Artıq bunun işartıları görünməkdədir. Dünən yayılan məlumatda bildirilir ki, Erməni Apostol Kilsəsinin Rusiya və Novo-Naxçıvan yeparxiyasına xidmət edən 4 din xadimi Ermənistanda hərbi təlim toplanışlara çağırılıb. Bu barədə “Sputnik Ermənistan”a Eçmiədzinin informasiya sisteminin rəhbəri, ierey Yesai Artenyan məlumat verib. “İki din xadimi artıq təlim toplanışlara yollanmalıdır. Daha biri hərbi komissarlıqda qərar gözləyir, dördüncü şəxsə isə təkrar tibbi müayinədən keçmək tapşırılıb”, – deyə Artenyan bildirib.

Keşişin sözlərinə görə, müvafiq prosedurların davam etdiyi müddətdə həmin şəxslərin ölkədən çıxışına qadağa qoyulub. Çağırış vərəqələri Cənubi Rusiya erməni yeparxiyasının din xadimlərinə də təqdim olunub.

* * *

Katolikos II Qaregin özü isə seçkilərdə müxalifətin, bir qədər də dəqiqləşdirsək, “Güclü Ermənistan” partiyasının rəhbəri Samvel Karapetyanın lehinə səs verib. Bunu onun səsvermədən sonra jurnalistlərə verdiyi açıqlama da təsdiqləyir. Patriarx başının dəstəsi ilə Vaqarşapat şəhərindəki seçki məntəqəsində səs verdikdən sonrakı açıqlamasında deyib: “Dua və ümidlə seçimimizi etdik ki, Rəbbimiz Ermənistan dövlətçiliyinin sarsılmazlığını qorusun və xalqımıza mürəkkəb sınaqları dəf etməkdə yardımçı olsun. Biz güclü, təhlükəsiz və nümunəvi dövlətin xeyrinə seçim etdik”.

II Qareginin açıqlamasında diqqətçəkən məqam onun konkret siyasi qüvvənin adını çəkməməsi, mesajını dövlətçilik, təhlükəsizlik və milli birlik mövzuları üzərində qurmasıdır. Bu, kilsənin formal olaraq siyasi neytrallığını qorumağa çalışdığını göstərir. Bununla yanaşı, katolikosun “güclü, təhlükəsiz və nümunəvi dövlət” ifadələrindən istifadə etməsi seçki dövründə cəmiyyətə ünvanlanmış siyasi məzmunlu mesaj kimi qiymətləndirilə bilər. Xüsusilə hakimiyyətlə kilsə arasında son aylarda yaşanan gərginlik fonunda bu bəyanat kilsənin ölkənin gələcəyi ilə bağlı öz baxışını nümayiş etdirməsi baxımından diqqət çəkir.

Digər tərəfdən, II Qareginin dövlətçiliyin qorunması və mövcud çətinliklərin aradan qaldırılması ilə bağlı vurğuları Ermənistanın son illərdə üzləşdiyi təhlükəsizlik problemlərinə və daxili siyasi gərginliyə işarə kimi də dəyərləndirilə bilər. Bu səbəbdən açıqlama həm dini xarakter daşıyır, həm də seçki sonrası siyasi proseslərə münasibət ifadəsi kimi oxunur.

Onu da bildirək ki, katolikos seçkiqabağı dövrdə – mayın 10-da milyarder S.Karapetyanla görüşərək ona dəstəyini ifadə etmişdi. Görüş Karapetyanın ev dustaqlığında saxlanıldığı malikanəsində baş tutmuşdu. Patriarx iş adamına xeyir-dua vermiş və qarşılaşdığı çətinliklərin öhdəsindən gəlməkdə ona dözüm və səbir arzulamışdı.

***Səxavət HƏMİD***
***XQ***

# Transatlantik məkanda yenidən tənzimlənmə

## *“Qoca qitə”də sağ populizmin parçalanması Trampla münasibətlərə baxışı dəyişir*

**Qədim Roma mütəfəkkiri Siseron yazırdı ki, siyasətdə əbədi dostluq yoxdur, əbədi olan yalnız maraqlardır. Bəli, eyni aforizm bu gün özünü Donald Trampla Avropanın populist sağ hərəkatları arasında formalaşmış münasibətlərdə doğrultmağa başlayıb. Bir zamanlar ABŞ prezidentinin dəstəyi Avropanın millətçi və mühafizəkar qüvvələri üçün siyasi nüfuzun, beynəlxalq legitimliyin və ideoloji yüksəlişin simvolu sayılırdı.**



Tramp Qərbdə yeni siyasi dövrün başlanğıcı kimi təqdim olunur, onun uğurları isə Avropanın sağçı liderləri tərəfindən öz gələcəklərinin təminatçısı kimi qarşılanırdı. Lakin dünənin üstünlüyü bəzən sabahın yükünə çevrilə bildiyindən, bu gün vəziyyət nəzərəçarpacaq dərəcədə dəyişib. Avropanın sağçı liderləri Trampın siyasi himayəsinin onlara əlavə üstünlük verməkdən çox, seçici dəstəyini zəiflədə biləcəyini düşünməyə başlayıblar.

### Qlobal səhnədə dəyişmə

Sözügedən dəyişimin səbəbləri həm geosiyasi, həm də daxili siyasi amillərlə bağlıdır. Trampın son illər həyata keçirdiyi sərt ticarət siyasəti, Avropa ilə bağlı aqressiv bəyanatları, Qrenlandiya ətrafında yaratdığı gərginlik və Yaxın Şərqdə artan hərbi aktivlik Avropa ictimai rəyində onun imicinə ciddi zərbə vurub. Xüsusilə enerji qiymətlərinin yüksəlməsi və qlobal qeyri-müəyyənliyin dərinləşməsi fonunda bir çox avropalı seçici Trampı daha çox risk mənbəyi kimi görməyə başlayıb.

Məhz buna görə Avropanın sağçı siyasi düşərgəsində yeni dilemma yaranıb. Bir tərəfdən, onların ideoloji gündəliyinin əksər elementi trampçılıqla müəyyən oxşarlıqlar daşıyır. Digər tərəfdən Trampın özü artıq seçkilərdə əlavə səs gətirən fiqur hesab olunmur. Əksinə, onun adı mərkəzçi və tərəddüd edən seçiciləri uzaqlaşdırmaq potensialına malikdir. Bu səbəbdən bir sıra sağçı liderlər Vaşinqtonla yaxın münasibətləri qorumağa çalışsalar da, bunu əvvəlki kimi nümayişkaranə şəkildə etmirlər.

Yeni tendensiyanın diqqətçəkən nümunələrindən biri İtaliyadır. Corcia Meloni uzun müddət Trampın Avropadakı ən yaxın siyasi tərəfdaşlarından biri kimi təqdim olunurdu. O, Trampın yenidən hakimiyyətə qayıdışını ilk alqışlayan Avropa liderlərindəndir. Lakin son aylar tərəflər arasında yaranan gərginlik göstərdi ki, siyasi yaxınlıq hər zaman qarşılıqlı fayda gətirmir. Trampın Meloninin populyarlığı barədə səsləndirdiyi tənqidi fikirlər və İtaliya hökumətinin ABŞ-ın hərbi təşəbbüslərinə tam dəstək verməkdən yayınması münasibətlərdəki məsafəni ortaya qoydu.

Oxşar proses Fransada da müşahidə olunur. Ölkənin ifrat sağ düşərgəsinin əsas simalarından biri hesab edilən Cordan Bardella artıq Trampın siyasi himayəsini risk kimi qiymətləndirir. Fransa cəmiyyətində ABŞ prezidentinə münasibətin kifayət qədər mənfi olması Milli Birliyin qarşısında yeni vəzifə qoyub. Yəni partiya artıq radikal elektoratla yanaşı, həm də mərkəz-sağ seçiciləri qazanmağa çalışır. Bu şəraitdə Trampla həddindən artıq yaxınlıq siyasi yükə çevrilə bilər.

Almaniyada da oxşar mənzərə formalaşıb. AfD partiyası uzun müddət Trampın siyasi xəttinə simpatiya ilə yanaşsa da, son beynəlxalq hadisələr və Yaxın Şərqdəki gərginlik bu münasibətə yenidən baxılmasına səbəb olub. Partiya daxilində ABŞ-la nümayişkaranə yaxınlığın seçki kampaniyalarına mənfi təsir göstərə biləcəyi barədə fikirlər güclənməkdədir.

Əslində, yaranmış vəziyyət Vaşinqton üçün də müəyyən paradoks yaradır. ABŞ administrasiyası son illərdə Avropadakı millətçi və mühafizəkar qüvvələrlə əlaqələri genişləndirməyə çalışıb. Məqsəd qitədə özünə daha yaxın ideoloji tərəfdaşlar formalaşdırmaq idi. Lakin bu gün həmin qüvvələrin bir hissəsi hesab edir ki, Trampa həddindən artıq yaxın görünmək onlara əlavə səs qazandırmaq əvəzinə seçki şanslarını zəiflədə bilər. Bu halda Vaşinqtonun dəstəkləməyə çalışdığı siyasi qüvvələr getdikcə daha ehtiyatlı davranmağa başlayırlar.

### Təhlükəsizlik asılılığı

Hər halda bütün Avropa sağının eyni mövqe tutduğunu söyləmək doğru olmaz. Polşa fərqli nümunə kimi diqqət çəkir. Rəsmi Varşava ABŞ-ı hələ də təhlükəsizlik zəmanətinin əsas dayaqlarından biri sayır. Rusiya ilə bağlı təhlükəsizlik narahatlıqları və Amerika hərbi mövcudluğuna müsbət münasibət Polşanın sağçı siyasi qüvvələrinə Trampla əlaqələri qorumaq üçün əlavə imkan verir. Sağçı populist Hüquq və Ədalət Partiyası Trampla əlaqələrini inkişaf etdirir. Gələn il parlament seçkilərinə hazırlaşan Polşa ABŞ-ın yaxın siyasi və hərbi müttəfiqi olmaqla yanaşı, sürətlə böyüyən ordusu üçün Amerika silahının Avropadakı ən böyük alıcılarından biridir.

Maraqlıdır ki, Hüquq və Ədalət Partiyasının dəstəklədiyi prezident Karol Navrotski ölkənin ən güclü siyasi vəzifəsini tutan baş nazir Donald Tuska qarşı mübarizədə Tramp ilə əlaqələrindən faydalanmağa çalışır. Hüquq və Ədalət Partiyası üçün Donald Trampla yaxşı münasibətlər saxlamaq riskdən daha çox fayda gətirir. Bu əlaqələr daxili siyasətdə partiyaya üstünlük qazandırır, çünki hazırda Ağ Evə birbaşa çıxışı olan yeganə polyak siyasətçi məhz ölkə prezidentidir. Hətta ötən həftə Varşavada keçirilən mətbuat konfransında partiya lideri Yaroslav Kaçinski Navrotskinin Amerika prezidenti ilə münasibətlərini təriflәyib və Polşada daimi ABŞ hərbi bazasının yaradılması təşəbbüsünün uğur qazandığını bildirib. Polyakların əksəriyyəti hələ də hesab edir ki, onların təhlükəsizliyinin əsas təminatı Polşadakı Amerika əsgərlərinin mövcudluğudur.

Lakin ümumi mənzərə dəyişməz olaraq qalır. Donald Tramp Avropanın sağçı hərəkatları üçün əvvəlki qədər faydalı siyasi brend deyil. 2027-ci ildə Avropanın əsas ölkələrində keçiriləcək seçkilər yaxınlaşdıqca sağçı liderlər üçün əsas sual siyasi məsafənin nə qədər sərfəli olacağıdır. Görünən odur ki, Avropanın yeni sağçı nəsli Trampın kölgəsində gizlənmək əvəzinə, ondan müəyyən qədər uzaq dayanaraq hakimiyyət uğrunda mübarizə aparmağa üstünlük verir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Xüsusi rəy*



“Cluster17” sorğu mərkəzinin rəhbəri Jan-İv Dormajen “Politico”ya açıqlamasında qeyd edib ki, Tramp Aİ liderləri üçün ciddi problemə çevrilib. Onun sözlərin görə, sağçı seçicilər arasında Trampa münasibət birmənalı deyil: “Bunu son sorğular da təsdiqləyir. “Cluster17”nin Avropa İttifaqının yeddi ölkəsində apardığı araşdırma göstərir ki, sağçı seçicilər Trampa ümumi əhali ilə müqayisədə daha müsbət yanaşsalar da, onların yalnız kiçik bir hissəsi onu “Avropanın dostu” kimi görür. Məsələn, Fransada Cordan Bardellanın “Milli Birlik” Partiyasının seçicilərinin cəmi 18 faizi, İtaliyada Corcia Meloninin “İtaliya Qardaşları” partiyasının tərəfdarlarının 23 faizi, Almaniyada isə AfD seçicilərinin 25 faizi bu fikirlə razıdır”.

Dormajen, həmçinin əlavə edib: “Bu ay keçirilən başqa bir sorğu isə daha maraqlı mənzərəni ortaya qoyub. Almaniyanın AfD seçicilərinin yalnız 31 faizi, Fransadakı Milli Birlik tərəfdarlarının isə 36 faizi ABŞ-ı etibarlı müttəfiq hesab edir. Bu da onu göstərir ki, Trampın Avropadakı sağçı elektorat arasında nüfuzu əvvəlki illərlə müqayisədə xeyli zəifləyib”.

---

# ABŞ ermənipərəstliyinin Şerman sifət(sizliy)i

## *Birləşmiş Ştatlar Konqresində anti-Azərbaycan təmayül*

**İyunun 23-də Vaşinqton vaxtı ilə saat 17.00-da, Bakı vaxtı ilə isə iyunun 24-də saat 01.00-da ABŞ Konqresində Birləşmiş Ştatlardakı Amerika Erməni Milli Komitəsinin (ANCA) təşəbbüsü ilə mətbuat konfransı keçiriləcək. Tədbir “Azərbaycandakı erməni əsirlərin” məhbus həyatının 1000-ci gününə həsr olunacaq.**

İstər-istəməz, yada bir atalar sözümüz düşür: utanmasan, oynamağa nə var? Hərçənd, həm ANCA-nın, həm də ABŞ-dakı hay təəssübkeşlərinin işi utanmaqdan keçib. Söhbət Konqresin Erməni məsələləri üzrə qrupunun həmsədri Bred Şermandan, konqresmenlər Tom Makklintok, Judi Çu və Laura Fredman kimilərindən gedir. Bilavasitə Şermana gəldikdə, onun hay təəssübü həm utanmazlıqdır, həm də bütün həyasızlıq normalarını aşıb. Əlbəttə, stajlı ermənipərəstin mənəvi deqredasiyasında başlıca rolu ANCA-nın pulları oynayır.

Əlqərəz, diqqətçəkən məqam mətbuat konfransının ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin ermənipərəst qanunvericilik təşəbbüsünü müzakirəyə hazırladığı bir vaxtda keçirilməsidir. Xatırladaq ki, B.Şerman sözügedən komitənin bu ayın əvvəlindəki iclasında “Azərbaycandan bütün erməni əsirlərin dərhal azad edilməsini” tələb etmək məsələsini ortaya atıb. O, çıxışı zamanı ölkəmizdəki siyasi məhbusların sərbəst buraxılmalarından da dəm vurub.

Xatırladaq ki, iyunun ilk ongünlüyündə Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində “Diplomatik Xidmət haqqında” Qanunun müzakirəsi aparılmışdı. Təsəvvür edin, bir ölkənin qanununa başqa ölkədən tələb irəli sürməklə bağlı düzəliş istənilir. Əlbəttə, belə bir absurd yalnız Şermanın ağlına gələ bilər. Amma duruma təəccüblənmirik. Çünki Birləşmiş Ştatlarda anormallıqlar adiləşib. Üstəlik, erməni təəssübünə əsaslanmış anormallıqların, əndazəsiz davranışların sayı-hesabı itib...

Deməli, B.Şerman Azərbaycanın hərbi əməliyyatları nəticəsində “ermənilərin iki min il yaşadıqlarını iddia etdikləri Qarabağda 100 min nəfərlik əhalinin etnik təmizləmə ilə üzləşməsi reallığından” danışmışdı. Bir bölgədə 2 min il yaşayasan, sayın cəmi 100 min olsun. Heç bir məntiqə sığmır. Amma nə etmək olar ki, məntiq və abır-həya şermanlara tamamilə yaddır.



Onu da bildirək ki, ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri, respublikaçı Brayn Mast B.Şermanın “Diplomatik xidmət haqqında” Qanuna təklif etdiyi bədnam düzəlişi dəstəkləyib. Əgər qurumun qarşıdakı səsverməsi zamanı düzəliş qəbul olunsa, qanun layihəsi Nümayəndələr Palatasının müzakirəsinə çıxarılacaq. Mətbuat konfransı isə bu “ssenari” üçün dəstək məqsədi daşıyır. Daha böyük məqsəd barədə isə sonda söz açacağıq.

Hələlik onu bildirək ki, ABŞ Konqresində keçiriləcək mətbuat konfransında, həmçinin 2027-ci maliyyə ili üçün ABŞ-ın “Milli Müdafiə Səlahiyyətləri Aktı”, eləcə də “Milli Təhlükəsizlik və Xarici Əməliyyatların Maliyyələşdirilməsi Aktı” çərçivəsində irəli sürülmüş digər qanunvericilik təşəbbüsləri də gündəmə gətiriləcək. Yəni şermanların ermənipərəstliyi yalnız “Diplomatik xidmət haqqında” Qanunla məhdudlaşmır. Deməli, mətbuat konfransı həm də ABŞ-ın qanunvericilik sistemində Azərbaycana təzyiq ritorikasının rəsmiləşdirilməsi naminə lobbiçilik fəaliyyətidir.

Yeri gəlmişkən, adlarını çəkdiyimiz iki akt çərçivəsində irəli sürülmüş təşəbbüslərin məqsədi Azərbaycan üzərində siyasi təzyiqi və Ermənistanın təhlükəsizliyinə Vaşinqtonun dəstəyini artırmaqdan ibarətdir. Mövcud xüsusda söhbət, konkret olaraq, erməni məhbusların azad edilmələri ilə yanaşı, ölkəmizə hərbi yardımın məhdudlaşdırılmasından, rəsmi Bakının davranışına dair Pentaqon üzərinə hesabatlar təqdim etmək öhdəliyinin qoyulmasından, Ermənistan üçün əlavə təhlükəsizlik yardımının göstərilməsindən, İrəvanın hərbi məqsədlər naminə maliyyələşdirilməsindən, Qarabağ ermənilərinin geri qayıdışı və onların mədəni irsinin qorunması kimi tələblərdən gedir. Bundan başqa, Birləşmiş Ştatlar qanunvericiliyinə düzəlişlərdə Qarabağdan köçmüş ermənilərin geri qayıtmaq hüququnun tanınması, “erməni dini və mədəni abidələrinin qorunması” ilə bağlı hesabat və monitorinq mexanizmlərinin yaradılması təklif edilir.

Sonda ümumiləşdirmə apararaq deyək ki, ABŞ-dakı ermənipərəstlər Azərbaycana qarşı məkrli planlar hazırlayırlar və keçirilməsi nəzərdə tutulan mətbuat konfransı, eyni zamanda, bu planların gerçəkləşməsinə mənəvi dəstək mahiyyəti daşımaqdadır. Əvvəldə anonsunu etdiyimiz başlıca məqsədə gəldikdə, onu da bildirək ki, dünyanın bir çox bölgələrində Cənubi Qafqazda sülhün qərarlaşmasını istəməyən qüvvələr var. Onlar hər vəchlə azərbaycanlılarla ermənilər arasında barış mühitinin mümkünsüzlüyünü əsaslandırmağa çalışır və düşüncələrini sübuta yetirmək üçün ən müxtəlif üsullara baş vururlar. Şerman və dostları da belələrinin sırasında yer alır, Azərbaycanın qəddar simasını canlandırmağa çalışırlar.

Əlbəttə, şermanların nəyi necə bildirmələrindən, eləcə də ABŞ Konqresinin Nümayəndələr Palatasının bir komitəsində çıxarılan siyasi oyunbazlıqdan asılı olmayaraq, Bakıda məhbus həyatı yaşayan müharibə cinayətkarı ermənilərin sərbəst buraxılmaları qeyri-mümkündür. Digər tərəfdən, ölkəmizi təzyiqlərlə nəyəsə məcbur etməyin səmərəsizliyi dəfələrlə sübuta yetirilib. Bütün bunlar öz yerində.

Başlıca məqam odur ki, hazırda Azərbaycan-Ermənistan sülhü, kifayət qədər, həssas mərhələdən keçir. O mərhələdən ki, ani ehtiyatsızlıq həm də ABŞ-ın böyük regional barış təşəbbüsünün iflası ilə nəticələnə bilər. Güman edirik, bu məqamı Birləşmiş Ştatlarda nəzərə alacaq, ANCA-nın, habelə hay millətçiliyi üzərində formalaşmış digər erməni lobbi və diaspor təşkilatlarının B.Şerman kimi pul düşkünü həyasızlardan yararlanmaları tendensiyasına son qoyulacaq. Nəzərə alaq ki, şermanların mövcudluğu ABŞ-ın nəinki qanunvericilik sistemi, ümumən, ölkənin ictimai-siyasi mühiti üçün böyük rüsvayçılıqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Soydaşımız BMT Komitəsinə üzv seçilib

**İyunun 23-də Nyu-York şəhərində Uşaq Hüquqları haqqında Konvensiyaya tərəf dövlətlərin 21-ci iclası çərçivəsində Azərbaycan Respublikasının namizədi BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) 2027-2031-ci illər üzrə üzvlüyünə seçilib.**

Ciddi beynəlxalq rəqabət şəraitində baş tutmuş seçkilərdə Azərbaycanla birgə 16 ölkədən olan namizədlər Komitədə mövcud 9 vakant yer uğrunda mübarizə aparıb.

Azərbaycan tərəfindən namizədliyi irəli sürülmüş Esseks Universitetinin doktorantı Fərid Ədilov səsvermənin ilk mərhələsində iştirakçı dövlətlərin əksəriyyətinin etimadını qazanaraq, 130 səslə Komitəyə üzv seçilib.

Beləliklə, Azərbaycan Respublikasının vətəndaşı ilk dəfə olaraq sözügedən komitədə təmsil olunacaq.

*XQ*

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

İclasda Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 133-cü maddəsinin Konstitusiyanın maddələrinə uyğunluğunun yoxlanılmasına dair insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyulun 17-nə təyin olunmuş iclasında baxılacaq.

*XQ*

# Oman Sultanlığı Şura Məclisinin sədri ölkəmizə səfərə gəlib

**Oman Sultanlığı Şura Məclisinin sədri Xalid Hilal Nasir Əl-Maavali Azərbaycana işgüzar səfərə gəlib.**

Səfər çərçivəsində Şura Məclisinin sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək, tədbirə qatılan bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirəcək.

*XQ*

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib



**İyunun 23-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğun maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**



Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə müdafiə çıxışını davam etdirmək üçün söz təqsirləndirilən Levon Mnatsakanyana verilib. O, bir həftə əvvəl keçirilmiş məhkəmə iclasında başladığı müdafiə çıxışını davam etdirərək fikirlərini səsləndirib. L.Mnatsakanyan ittiham tərəfinin təqdim etdiyi videomaterialın və istinad etdiyi faktların məhkəmə tərəfindən qərar qəbul edilərkən nəzərə alınmasını xahiş edib. O, özünə qarşı irəli sürülmüş ittihamlar üzrə özünü təqsirli bilmədiyini qeyd edib.

Daha sonra təqsirləndirilən Erik Qazaryanın hüquqlarını qoruyan vəkili çıxış edib. Vəkil müdafiə etdiyi şəxsin apellyasiya şikayəti verdiyini və həmin şikayəti dəstəklədiyini bildirib. Ardınca çıxış edən Erik Qazaryan özünü təqsirli hesab etmədiyini qeyd edib və müdafiəçisinin səsləndirdiyi mövqeyi təsdiqləyib.

Sonra təqsirləndirilən Qarik Martirosyanın vəkili çıxış edərək bildirib ki, müdafiə etdiyi şəxsə qarşı irəli sürülmüş ittihamların yüngülləşdirilməsi zəruridir. Onun digər müdafiəçisi də çıxışında təqsirləndirilən Q.Martirosyanın cəzasının yüngülləşdirilməsini və bəzi maddələrin ittihamdan xaric olunmasını xahiş edib.

Sonra təqsirləndirilən Qarik Martirosyan çıxış edib. O, özünü təqsirli bilmədiyini bildirib.

Təqsirləndirilən Levon Balayanın vəkili hüquqlarını qoruduğu şəxsin barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Təqsirləndirilən Levon Balayan müdafiəçisinin çıxışı ilə razılaşdığını deyib.

Təqsirləndirilən Qurgen Stepanyanın hüquqlarını müdafiə edən vəkili onun barəsində olan ittiham hökmünün ləğv olunmasını və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Qurgen Stepanyan müdafiəçisinin çıxışı ilə razılaşdığını bildirərək özünü təqsirli bilmədiyini qeyd edib.

Məhkəmənin növbəti iclası iyunun 30-da keçiriləcək.

*XQ*

# Azərbaycançılığın prinsipləri: fəlsəfi təhlil

**I MƏQALƏ**



### Hürriyyətpərvərlər ölkəsi

1906-cı ildə Əli bəy Hüseynzadə yazırdı: "Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir… Qafqaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır. Bu rolların ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir".

Akademik İsa Həbibbəyli bu fikirlərin işığında "Azərbaycançılığın milli istiqlal ideyasının aparıcı qayəsi olduğunu" vurğulayır. Bununla bağlı akademik Hüseyn Baykaranın aşağıdakı fikirlərinə istinad edir: "Qafqaz hadisələri onları (istiqlal mücahidlərini – İ.H.) özlərinin öncədən uzaq məqsəd olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna tez sürükləndirdi. Bu vaxtadək Azərbaycan istiqlalına nə rast gəlinmiş, nə də baş verən digər siyasi hadisə olmamışdır. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır".

Bu iqtibasları (sitatları, istinadları) bizim üçün konseptual əhəmiyyəti olan üç faktora görə veririk.

Birincisi, Azərbaycan tarixən türk coğrafiyası siyasi-ideoloji məkanında milli istiqlal ideyasının yaranması məkanı olmuşdur.

İkincisi, azərbaycançılıq milli istiqlal ideyasının aparıcı qayəsi olmuşdur.

Üçüncüsü, azərbaycançılıq tarixi xarakterlidir və müxtəlif dönəmlərdə zahirən fərqli təzahürləri olmuşdur. Lakin bütün hallarda onun ideya bünövrəsində iki dəyər mütləq surətdə yer almışdır – birincisi, türklük, ikincisi, vətənsevərlik, yurda bağlılıq, mədəniyyət, din və adət-ənənələrə sadiqlik.

Burada türklüyün təməl faktorlardan biri olması tam əsaslıdır. Onun başlıca səbəbi Azərbaycanın tarixən siyasi-coğrafi və mədəni məkanında türklərin aparıcı rol oynaması ilə əlaqəlidir. Eyni zamanda, bu təbii, tarixi, etnik-mədəni reallığın keçən əsrin əvvəllərində "türkçülük" ideoloji konsepti səviyyəsinə inkişaf etdirilməsi dönəmin xüsusiyyətləri ilə bağlıdır. Belə ki, ruhən Azərbaycan istiqlalçı olduğu mənbələrdə və müasir araşdırmalarda xüsusi vurğulanır. Milli azadlığı birinci sıraya qoyan bir xalq üçün hər tarixi dövrdə bu ideyanı ən səmərəli reallaşdıra biləcək ideoloji konseptual sistem gərəkdir. Azərbaycanlılar bunu hər dəfə bacarmışlar. "Türkçülük" də ideoloji sistem kimi bu müstəqil olmaq "enerjisinin" ideyada mükəmməl sinerjiyə çevrilməsini ifadə edir.

Bu məqamı bir qədər geniş izah edək.

### XIX əsrin sonu – XX əsrin əvvəlləri

Vurğulanan dövrdə aktiv siyasi hadisələr parçalanmış Azərbaycanın əsasən Şimal hissəsində baş verirdi. Bu, Cənubun passiv olmaması anlamına qətiyyən gəlmir. Əksinə, ideya və ideoloji aspektlərində Azərbaycan bütöv idi – Arazın o tayı ilə bu tayı coğrafi olaraq ayrı idi, ideya, mənəviyyat, adət-ənənə, vətənsevərlik, azadlıq ruhu heç zaman bölünmədi. "Mən türkəm" düşüncəsi azərbaycanlıları bir an olsun tərk etmədi, edə də bilməzdi. Bu fikrin ən yaxşı ifadələrindən birini İranın indiki Prezidenti M.Pezeşkian işlətmişdir: "Biz türkük, onu başqa cür adlandırmaq olmaz, kimsə cəhd etsə, qəbul edilməz!"

Ancaq XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ən çox diqqət mərkəzində olan Bakının əhalisinin tərkibi başqa məqamlardan xəbər verirdi. Aparılan tədqiqatlarda göstərilir ki, Azərbaycan neft sənayesinin "qəlbi" olan Bakıda XIX əsrin ikinci yarısından başlayaraq demoqrafik aspektdə mürəkkəb bir vəziyyət yaranmışdı. Bunun kökündə həmin dövrdə Bakının neft zənginliyinə sahib olmaq can atan imperiyalar arasında gərgin geosiyasi mübarizə dayanırdı. O, bütün XVIII əsr boyu və XIX əsrin əvvəllərində Xəzər hövzəsi uğrunda Böyük Britaniya, Fransa, Rusiya, Osmanlı və Səfəvinin kəskin mübarizə aparması ilə xarakterizə olunurdu (bax: И.Алиев. Каспийская нефть Азербайджана. Москва, 2003, с. 33.).

Burada imperiyaların regiona nəzarət etməsində açar ölkə kimi Azərbaycanı gördükləri tarixi faktdır. Bu mübarizədə Rusiya imperiyasının Xəzərin qərb Azərbaycan hissəsi üzərində XIX əsr ortalarında nəzarəti ələ keçirməsi, o cümlədən Bakının zəngin neft mənbələrinə yiyələnməsi sonrakı geosiyasi mənzərənin əsasını qoydu. Həmin bağlılıqda Rusiya imperiyası XIX əsrin 60-80-ci illərində Türküstanı zəbt etməsi ilə həm ekspansionist siyasətini genişləndirdi, həm də İngiltərənin mövqeyinə ciddi təhlükələr yaratdı.

1871-ci ilə qədər Bakıda neft çıxarılmasına Rusiya tərəfinin düzgün yanaşması əsasında inkişaf ləng getdi. Lakin 1872-ci ildən başlayaraq iri sərmayəçilər cəlb edildi və geniş miqyasda neft istehsalına başlanıldı. Bununla yeni sistem tətbiq olundu ki, Bakının neft bazarı açıldı və o, 1896-cı ildən 1917-ci ilə qədər xüsusi templə inkişaf etdi (И.Алиев. Каспийская нефть Азербайджана. Москва, 2003, с. 33).

Bu proses təbii ki, Bakının həyatının bütün sferalarına, o cümlədən demoqrafik dinamikasına təsir etməli idi. Belə də oldu. Dünyanın müxtəlif regionlarından minlərlə insan iş axtarışı üçün Bakıya can atdı. Onlar sırasında Cənubi Azərbaycandan olan on minlərlə kasıb müsəlman ailələri xüsusi yer tutdu. Neft istehsalının əsasən yadların əlində olduğu bir dönəmdə kasıb müsəlman ailələr min bir əziyyətlə, ailələrini dolandırmaq üçün məşəqqətli şəraitdə çalışmalı oldular.

Müəyyən istisnaları çıxmaqla öz ölkəsinin cənubundan şimalına köç etmiş insanlarımız güclü istismar şəraitində özlərinə həyat qurmağa çalışdılar. Bununla tərkibi əsasən türklərdən ibarət olan çoxlu sayda ailələr öz ölkəsində qul vəziyyətinə düşdülər. Əlbəttə, belə bir durum zaman-zaman müsəlmanların və ilk növbədə türklərin qəlbində müstəqil, azad olmaq arzusunu motivə etməli idi. XX əsrin ikinci onilliyində bu, Azərbaycan Demokratik Respublikasının timsalında gerçəkləşdi. Ancaq ideoloji sferada vəziyyət son dərəcə mürəkkəb idi.

### Bakının demoqrafik tərkibi

Tarixi mənbələrdə yazılır ki, XIX əsrin sonlarında və XX əsrin ilk illərində aparılan siyahıyaalınmada Bakı və ətraf ərazilərdə 206,757 insan yaşamışdır (bax: Баку по переписи 22 октября 1903 года. Бакинское городское общественное управление (1905). Onlar 44 etnik mənsubluğu təmsil etmişlər.

İnsanlar Avropadan, Mərkəzi Asiyadan, Kiçik Asiyadan, Cənubi Azərbaycandan, ərəb ölkələrindən və başqa yerlərdən gəlmişlər. Əhali sırasında 11 milli mənsubluq üstünlük təşkil etmişdir. Onların hər birinin sayı 500 yüz nəfərdən çox olmuşdur. Ruslar – 74.254 nəfər, azərbaycanlılar (əslində türklər) – 53.827 nəfər, ermənilər – 34.259 nəfər, farslar – 18.572 nəfər, yəhudilər – 5.859 nəfər, almanlar – 5.025 nəfər, tatarlar – 4.157 nəfər, ləzgilər – 3.857 nəfər, gürcülər – 2.614 nəfər, polyaklar – 1.548 nəfər, yunanlar – 617 nəfər. Bunlardan başqa, isveçlilər, latışlar, slovaklar, fransızlar, litvalılar, ingilislər siyahıda qeydə alınmışlar (bax: И.Алиев, А.Мурадвердиев. Азербайджанская нефть в политике мира. Баку. 1997, с. 17-18).

Bu rəqəmləri ümumiləşdirsək, alarıq ki, XIX əsrin sonlarında Bakı və ətraf ərazilərdə ruslar 35%, azərbaycanlılar (türklər), 26%, ermənilər 16%, xristianlar yəhudilərlə birlikdə 60-61% (deməli, müsəlmanlar bütövlükdə 40%-ə qədər) təşkil etmişlər. Bir sıra Qərb mənbələrində hətta həmin dönəmdə xristianların Bakı əhalisinin 75 %-ni təşkil etdiyini yazırlar. Bunlardan başqa, Avropadan, Mərkəzi Asiyadan, Kiçik Asiyadan, Cənubi Azərbaycandan və ərəb ölkələrindən miqrasiya edənlər olmuşlar.

1926-cı ildə SSRİ-də aparılan siyahıyaalınmaya görə, Bakının milli tərkibi azərbaycanlıların lehinə elə də dəyişməmişdir. Belə ki, 1926-cı ildə Bakıda 453,3 min əhali yaşamışdır ki, onun 159,491-i ruslar, 118,737-i türklər, 75,656-ı ermənilər, 19,589-u yəhudilər və sonrakı yerlərdə digər etnik mənsubluqlar təşkil etmişlər (bax: Демоскоп, 1926).

1903-cü il göstəriciləri ilə müqayisədə görürük ki, 23 il ərzində ruslar, azərbaycanlılar (türklər) və ermənilər 2 dəfədən çox artmışlar. Yəhudilərdə isə 3 dəfədən çox artım olmuşdur. Bununla yanaşı, Bakının polietnik mənzərəsi tam olaraq saxlanmışdır.

Belə bir demoqrafik müxtəlifliklə Azərbaycan cəmiyyətini hansı ideya birləşdirə bilərdi? Müstəqilliyini (istiqlalını) bütün dəyərlərdən üstün tutan cəmiyyəti, təbii ki, həmin ideyanı, ruhu, amalı və məqsədi tarixən daşıyan, buranı özünə doğma Vətən hesab edən və ən çox zülmə məruz qalan qövm birləşdirə bilərdi.

Bizim XX əsrin əvvəllərində aparıcı rol oynayan ziyalılarımız, ideya sahiblərimiz bu vəzifənin öhdəsindən məharətlə gəldilər. Onlar türklərin aparıcılığı ilə cəmiyyəti birləşdirə biləcək 3 istiqamətin – türkçülüyün, islamın və müasirliyin vəhdətini seçdilər. Həmin dövr Azərbaycan üçün türklük real müstəqillik arzulayan və uğrunda savaşanların "mənəvi-ideya" kimliyini ifadə edirdi.

Yuxarıdakı demoqrafik tərkibdən və neftə olan münasibətdən də görünür ki, istiqlalın əsas daşıyıcı azərbaycanlılar, yəni Azərbaycan türkləri ola bilərdilər. Bu mənada "türkçülük" etnik-mədəni mənsubluqdan çox istiqlala can atan qövmü ifadə edir. Türkçü olmaq kimlərisə zorən türk etmək deyildir – Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan qövmün ümumi ismidir.

Həmin dönəmdə əhali yalnız türkçülük ətrafında birləşib doğma Vətənin müstəqilliyi uğrunda savaşa bilərdi. Bu vəzifəni nə ruslar, nə farslar, nə ermənilər, nə yəhudilər, nə də Azərbaycana həmişə istismar məkanı kimi baxan qərblilər (avropalılar) üzərlərinə götürə bilərdilər. M.Rəsulzadə, Ə.Ağayev, Ə.Topçubaşov və yüzlərlə Azərbaycan (türk) vətənsevərləri istiqlal ideyasının daşıyıcıları kimi türklükdən azadlıq uğrunda mübarizə aparmaq zərurəti, hər bir zülmə qarşı savaşmaq adı ilə istifadə etmişlər. Təsadüfi deyildir ki, M.Rəsulzadə dörd dəfə "Azərbaycan" deyərək gözlərini əbədi yummuşdur!

Deməli, türkçülük, əslində, dövrün tələbinə uyğun azərbaycançılığın konkret ifadəsi, onun rəmzidir. Bunu Azərbaycanın sonrakı tarixi də göstərdi – bu məmləkətdə heç bir insan "türkə çevrilmə" siyasətinin hədəfi olmadı, indi də deyildir. Əksinə, bir sıra hallarda digərləri türklərdən öz etnik mənsubluqlarını inkar etmək kimi absurd və gülünc tələblərdə bulunmağa cəhdlər etdi. İndi də bir sıra çox kiçik qruplar bu cür mənasız və nəticəsiz xülyaya qapılırlar. Onların ən yaxşı cavabını Azərbaycan cəmiyyətinin üzvləri birlik və vahidlikləri ilə verirlər. Bu birliyin siyasi anlamını isə ulu öndər Heydər Əliyev ("Mən fəxr edirəm ki, azərbaycanlıyam" və "Bir millət, iki dövlət") və Prezident İlham Əliyev çox dəqiq və dolğun ifadə etmişlər ("bizim ailəmiz türk ailəsidir, başqa ailəmiz yoxdur").

Deməli, azərbaycançılıq bu qövmün ekzistensial mövcudluğunun mərkəzi faktoru, varolma ideyasının təməl şərtidir. Bu gerçəklik müasir tarixi mərhələdə Azərbaycançılığı və onun başlıca prinsiplərini müəyyən etməyi azərbaycanlı intellektinin tarixi vəzifələrindən biri halına gətirir. Səbəbi onunla bağlıdır ki, biz cəmiyyət olaraq azərbaycanlılığı, azərbaycançılığı və bu əsasda azərbaycanşünaslığı dövrün yüksək tələblərinə uyğun konseptuallaşdırmalı, onu cəmiyyətin ictimai şüurunun dayanıqlı faktına çevirməli, yaddaşlarda elmi obrazını yaratmalıyıq ki, qarşıda duran ən çətin sınaqlardan bütöv, birlikdə və dayanıqlı inkişaf nümunəsi ilə çıxaq.

Yəni azərbaycançılığı və onun prinsiplərinin konseptuallaşdırılması, fəlsəfi, tarixi, elmi, siyasi-ideoloji "ölçülməsi" seçim deyildir - zərurətdir. Akademik İsa Həbibbəylinin həmin istiqamətdə apardığı tədqiqatlara vurğulanan tezislərin işığında baxmaq çox faydalıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan–Türkmənistan: Şərq–Qərb dəhlizinin qoşa qapısı

**Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana həyata keçirdiyi dövlət səfəri iki ölkə arasındakı münasibətlərin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində dövlət başçıları arasında aparılan müzakirələr, imzalanan sənədlər paketi və əldə olunan razılaşmalar Bakı və Aşqabad əməkdaşlığının strateji məzmununun daha da gücləndiyini və əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.**



Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olub. Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı bu xüsusda Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını dedi. Bu xüsusda Azərbaycan Prezidenti qeyd edib ki, geniş Avrasiya qitəsində geosiyasi proseslərin müsbət inkişafı bir çox hallarda bu sahələrdə sıx qarşılıqlı fəaliyyətimizdən asılı olacaq.

Azərbaycan və Türkmənistan Xəzər hövzəsinin əsas nəqliyyat-logistika mərkəzləri kimi Avrasiya məkanında tranzit marşrutlarının şaxələndirilməsi prosesində mühüm rol oynayırlar. İki arasında əməkdaşlığın prioritet istiqamətlərindən biri də nəqliyyat-logistika sektorudur. Hər iki ölkə Avrasiya məkanında mühüm əhəmiyyət daşıyan Şərq-Qərb nəqliyyat marşrutunun əsas həlqələri hesab olunur. Xəzər dənizinə çıxış imkanları Bakı və Aşqabadın tranzit potensialını artırmaqla yanaşı, onları beynəlxalq yükdaşımalar sistemində strateji aktorlara çevirir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında əlaqələrin dərinləşdirilməsi Orta Dəhliz üzrə daşımaların həcminin genişlənməsinə əlverişli şərait yaradır. Bu əməkdaşlıq eyni zamanda Avropa ilə Asiya bazarları arasında ticarət əlaqələrinin daha da intensivləşməsinə və regionun nəqliyyat-kommunikasiya imkanlarının güclənməsinə mühüm töhfə verir.

Son illərdə iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsi təkcə qarşılıqlı ticarət əlaqələrinin inkişafında deyil, həm də regional nəqliyyat dəhlizlərinin ötürücülük qabiliyyətinin artırılmasında özünü göstərir. Nəqliyyat-tranzit sahəsini əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov Türkmənistanın və Azərbaycanın əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını bildirib. Bu məqsədlə Türkmənistan-Azərbaycan Nəqliyyat, Tranzit və Logistika Komissiyasının fəaliyyətinin daha da fəallaşdırılmasını təklif edib.

İki qardaş ölkənin tranzit imkanlarından istifadə edən yük axınında artım tendensiyası davam edir. 2025-ci ilin yekun göstəricilərinə əsasən, iki ölkənin ərazisindən keçən yüklərin həcmi əvvəlki illə müqayisədə 15 faiz yüksələrək 2,344 milyon tona çatıb. Nəqliyyat əməkdaşlığının genişlənməsinin növbəti təzahürü kimi, 2026-cı il mayın 12-də Türkmənistanın ilk quru yük gəmisi sayılan “Gadamly” Bakı Limanına yan alıb.

Prezident İlham Əliyev ilə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov arasında imzalanan Birgə Bəyannamə iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən mühüm siyasi sənəd kimi qiymətləndirilə bilər. Sənəd Bakı ilə Aşqabad arasında strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi və əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Dövlət səfəri çərçivəsində imzalanan çoxsaylı saziş və anlaşma memorandumları da tərəflərin qarşılıqlı əlaqələri institusional əsasda inkişaf etdirmək niyyətini ortaya qoyur. Belə ki, gömrük işi, idman, əmək və əhalinin sosial müdafiəsi, səhiyyə və tibb sənayesi, qida təhlükəsizliyi, energetika, kənd təsərrüfatı, maliyyə və iqtisadiyyat, habelə diplomatiya sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan sənədlər imzalanıb. Bununla yanaşı, 2026-2028-ci illəri əhatə edən sənaye əməkdaşlığı proqramı da tərəflərin iqtisadi əlaqələri daha sistemli şəkildə inkişaf etdirmək niyyətindən xəbər verir.

İmzalanan sənədlər iki ölkə arasında əməkdaşlığın yalnız siyasi dialoqla məhdudlaşmadığını, iqtisadi, sosial və humanitar sahələri də əhatə edən çoxşaxəli xarakter daşıdığını nümayiş etdirir. Bu isə öz növbəsində Azərbaycan-Türkmənistan münasibətlərinin uzunmüddətli strateji tərəfdaşlıq modelinə əsaslandığını və qarşıdakı dövrdə əməkdaşlığın daha da dərinləşməsi üçün möhkəm zəmin formalaşdırdığını göstərir.

Türkmənistan Prezidentinin Azərbaycana səfəri təkcə imzalanan sənədlərlə, rəsmi görüşlərlə yadda qalmayıb. Eyni zamanda, Azərbaycan tərəfi Türkmənistana Bakı gəmiqayırma zavodunda inşa olunan “Dostlug” neftdaşıyan tankeri hədiyyə edib. Dedveyti 7875 ton olan tankerin Azərbaycanda inşası gəmiqayırma sənayemizin inkişafını nümayiş etdirməklə yanaşı, Azərbaycan-Türkmənistan dostluq əlaqələrinin inkişafına da töhfədir. Bu, eyni zamanda, Bakı gəmiqayırma zavodunda irihəcmli və texnoloji baxımdan mürəkkəb gəmiqayırma layihələrinin həyata keçirilməsinin mümkün olduğunu bir daha göstərir.

İqtisadi-ticari əməkdaşlıq Bakı-Aşqabaq münasibətlərin əsas istiqamətlərindən biridir. Energetika, nəqliyyat, kimya, tekstil sənayeləri və bir sıra digər sahələr əməkdaşlıqda prioritet istiqamətlərdir. Ticarət dövriyyəsində müsbət dinamikası hər iki ölkə tərəfindən yüksək qiymətləndirilir. 2025-ci ildə tərəflər arasında ticarət dövriyyəsinin ümumi dəyəri 208,39 milyon dollar təşkil edib. 2026-cı ilin yanvar-aprel aylarını əhatə edən ilkin dövrdə isə bu rəqəm 29,54 milyon dollar olaraq qeydə alınıb.

Azərbaycan və Türkmənistan geniş faydalı qazıntılara və enerji ehtiyatlarına malik ölkələrdir. Prezident İlham Əliyev mətbuata bəyanatında bildirib ki, hər iki ölkə bu sahədə səylərini birləşdirmək üzrə əməkdaşlıq etmək niyyətindədir. Qeyd edək ki, 2021-ci ildə Xəzər dənizində yerləşən “Dostluq” yatağının karbohidrogen ehtiyatlarının birgə işlənməsinə dair Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında enerji əməkdaşlığının inkişafında yeni mərhələnin əsasını qoydu. Həmin sənəd Xəzər regionunda qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi üçün əlavə imkanlar açdı. Azərbaycan eyni zamanda Türkmənistanın zəngin enerji resurslarının beynəlxalq bazarlara çıxarılmasında etibarlı tranzit tərəfdaşı kimi çıxış edir. Bu baxımdan, Bakı–Tbilisi–Ceyhan neft kəməri kimi iri infrastruktur layihələri türkmən enerji ehtiyatlarının dünya bazarına inteqrasiyası üçün əlverişli şərait yaradır.

*Musa BAĞIRLI*
*XQ*

# KOBİA İnvestisiya portalı yaradıb




**Qurum yeni dəstək alətinin məqsəd və hədəfləri ilə bağlı XQ-yə açıqlamasında bildirib:**

Kiçik və orta biznes (KOB) subyektlərinin maliyyə resurslarına çıxışının genişləndirilməsi və investisiya imkanlarının artırılması önəmlidir. Bu istiqamətdə KOB-lara dəstək məqsədilə müxtəlif platformlar və dəstək alətləri mövcuddur. Bunlardan biri də 2022-ci ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən yaradılmış İnvestisiya Portalıdır (invest.smb.gov.az).

Portal Azərbaycanda KOB-ların investisiya imkanlarını və maliyyə resurslarına çıxışını genişləndirmək məqsədilə yaradılıb. Portalın yaradılmasında məqsəd yerli biznes subyektləri ilə daxili və xarici investorlar arasında körpü yaradılmasıdır. İnvestisiya axtarışında olan və ya hazır bizneslərini satmaq istəyən biznes subyektləri öz layihələrini və biznes təkliflərini bu platforma vasitəsilə geniş investor auditoriyasına təqdim edə bilərlər.

## Portalın üstünlükləri

Bu platforma vəsaitlərini perspektivli layihələrə investisiya edərək yüksək gəlir əldə etmək istəyən həm fərdi, həm də institusional investorlar üçün fürsət yaradır. Belə ki, investorlar platformaya daxil olaraq maraqlarına uyğun layihələri rahatlıqla seçə bilir və beləliklə layihənin axtarışına sərf etdikləri vaxta qənaət etmiş olurlar. İnvestorlar portalda yerləşdirilmiş layihələrə yatırım etməklə həm də KOB-ların layihələrini dəstəkləyir, onların inkişafına, yeni məhsul və xidmətlərin yaranmasına dəstək göstərə bilərlər. Portal investorlara layihə sahibləri ilə birbaşa əlaqə yaratmaq və əlavə məlumat əldə etmək, eləcə də əməkdaşlıq imkanlarını müzakirə etmək imkanı yaradır. Portal xarici investorlara Azərbaycanın müxtəlif iqtisadi sahələrində həyata keçirilən biznes təşəbbüsləri ilə tanış olmaqla perspektivli layihələrə sərmayə yatırmaq fürsəti yaradır.

## İstifadəçi və layihə bazası

Portal Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olan bütün fəaliyyət istiqamətləri üzrə layihələrin yerləşdirilməsi üçün açıqdır. İndiyədək portala 173 layihə yerləşdirilib. Bu layihələrdən 147-si investisiyaların cəlb edilməsi, 4-ü investisiya təklifi, 22-si isə hazır biznesin satışı ilə bağlıdır. Sözügedən layihələr kənd təsərrüfatı, sənaye, xidmət, istehsal və digər istiqamətləri əhatə edir.

Bugünədək 1300-dən çox sahibkar, investor və startap müvafiq layihələrlə tanış olmaq, layihəsini portalda yerləşdirmək üçün invest.smb.gov.az saytında qeydiyyatdan keçib. Son bir ildə portalı ziyarət edənlərin sayı 29 mini ötüb.

## Startaplar da yaddan çıxmayıb

İnvestisiya Portalı startaplar üçün də yeni maliyyələşmə imkanları yaradır. İnnovativ biznes ideyalarına malik startaplar öz layihələrini platformada yerləşdirməklə onları geniş investor auditoriyasına təqdim edə, potensial investorların diqqətini cəlb edə və layihələrinin inkişafı üçün zəruri maliyyə dəstəyi əldə etmək imkanı qazana bilərlər. Bu baxımdan portal startapların bazara çıxışını asanlaşdıran, onların böyüməsinə və kommersiyalaşmasına dəstək verən əhəmiyyətli alətlərdən biri kimi çıxış edir.

## Layihə portala necə yerləşdirilir?

Layihələr portala sahibkarlar, investorlar və startapların özləri tərəfindən yerləşdirilir. Bunun üçün portalda qeydiyyatdan keçmək və müvafiq məlumatları daxil etmək lazımdır. Agentliyin bu prosesdə diqqət etdiyi əsas məqam tələb olunan müvafiq məlumatların tam və doğru yerləşdirilməsi, biznes planın mövcudluğu, layihənin dəyəri ilə tələb olunan investisiya məbləğinin uyğunluğu, layihənin gözlənilən gəlirliliyi və bu kimi investorların marağına səbəb olacaq digər məlumatların portalda düzgün əks olunmasıdır.

Portaldan istifadə etmək üçün ödəniş tələb olunmur. Layihələrin portala yerləşdirilməsi prosesi sadə və rahatdır. Portaldan istifadə ilə bağlı əlavə sualları yaranan sahibkarlar və startaplar KOBİA-nın 131 Çağrı Mərkəzinə müraciət edə bilərlər.

İnvestisiya Portalında məlumatların təhlükəsizliyi və məxfiliyinin qorunmasına xüsusi diqqət yetirilir. Layihə sahibləri portalda paylaşacaqları məlumatların həcmini özləri müəyyənləşdirir, kommersiya sirri təşkil edən və ya həssas hesab etdikləri məlumatları açıqlamadan layihələri barədə ümumi məlumat təqdim edə bilərlər. İnvestorlarla əlaqələrin qurulması layihə sahibinin razılığı və təqdim etdiyi əlaqə məlumatları əsasında həyata keçirilir.

Portal investorlar və layihə sahibləri arasında əlaqələrin qurulması üçün platforma rolunu oynayır. Tərəflər arasında aparılan danışıqlar, əldə olunan razılaşmalar, əməkdaşlıq şərtləri və yatırılan investisiyanın həcmi isə onların öz aralarında müəyyənləşdirilir və üçüncü tərəf prosesə qarışmır.

*Hazırladı:*
*N.ABDALOV*
*XQ*

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin heyəti Çin Xalq Respublikasında səfərdədir. ADY sədri Rövşən Rüstəmov Çinin “CRRC Ziyang Co., Ltd” şirkətinin rəhbəri Çen Çjisinlə görüşüb.**

Söhbət zamanı “Azərbaycan Dəmir Yolları”nın lokomotiv parkının yenilənməsi, yük və sərnişin daşımaları üzrə hərəkət tərkibinin texniki imkanlarının artırılması, beynəlxalq nəqliyyat dəhlizləri ilə artan yük daşımaları üzrə çevik və təhlükəsiz xidmət göstərilməsi, eləcə də ADY ilə “CRRC Ziyang Co., Ltd.” arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

# Dəmir yollarının lokomotiv parkı müasirləşdirilir

## *Bu məqsədlə Çindən yeni yük və sərnişin elektrovozları alınır*




Qeyd olunub ki, Azərbaycanın beynəlxalq nəqliyyat-logistika zəncirində rolunun artması, ölkə ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb istiqamətləri üzrə daşımaların strateji əhəmiyyəti dəmir yolu infrastrukturunun, o cümlədən lokomotiv parkının müasir tələblərə uyğun inkişafını zəruri edir. ADY yük əməliyyatlarının daha etibarlı, təhlükəsiz və dayanıqlı şəkildə həyata keçirilməsi üçün lokomotiv parkının yenilənməsinə və genişləndirilməsinə xüsusi diqqət ayırır, bu sahədə Çin şirkətləri, o cümlədən “CRRC Ziyang” şirkəti ilə əməkdaşlığa xüsusi önəm verir.

Bildirilib ki, ADY ilə “CRRC Ziyang” arasında 7 ədəd yeni yük lokomotivinin alışı barədə ötən il imzalanmış müqaviləyə əsasən, lokomotivlərin sentyabr ayında Azərbaycana çatdırılması nəzərdə tutulur. Tərəflər növbəti mərhələdə sifariş olunacaq 14 lokomotivin alışı ilə bağlı danışıqlar aparıblar. ADY nümayəndə heyəti 7 lokomotivin istehsal prosesinin son mərhələsi ilə tanış olub, bir sıra texniki məsələlər barədə fikir mübadiləsi aparılıb. Qabaqcıl texnologiyalarla təchiz olunmuş AC50 tipli magistral lokomotivləri Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri üzrə yük daşımalarında istifadə olunacaq.

Görüş çərçivəsində həmçinin ADY ilə “CRRC Ziyang” şirkəti arasında 4 ədəd yeni magistral sərnişin lokomotivinin alışı haqqında müqavilə imzalanıb. Lokomotivlərin 2027-ci il ərzində Azərbaycana çatdırılması nəzərdə tutulur. Yeni sərnişin lokomotivləri xüsusilə uzaq məsafələrə daşımalarda xidmət keyfiyyətinin və sərnişin məmnuniyyətinin daha da yüksəldilməsinə imkan verəcək.

*M.YAQUBZADƏ*
*XQ*

# TAP Avropaya 59 milyard kubmetrdən çox qaz nəql edib

**Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin dekabr ayından bu vaxtadək Avropaya 59,2 milyard kubmetrdən çox Azərbaycan qazı nəql edilib. Bunun da, 49,3 milyard kubmetrə yaxını İtaliyaya, 5,5 milyard kubmetrdən çoxu Yunanıstana, 4 milyard kubmetri isə Bolqarıstana çatdırılıb.**




Bu barədə TAP boru kəmərinin operatoru olan “TAP AG” şirkətinin idarəedici direktoru Luka Skiepatti mediaya bildirib ki, TAP-ın ilkin illik ötürücülük gücü mərhələli şəkildə genişləndirilərək 20 milyard kubmetrdən artıq həcmə çatdırıla bilər.

Boru kəmərinin əlavə ötürücülük qabiliyyətinin mütəmadi olaraq keçirilən bazar sınaqları ilə tədarükçülərə təqdim olunduğunu diqqətə çatdıran idarəedici direktorun sözlərinə görə, son genişləndirmə layihəsi çərçivəsində bu ilin əvvəlindən etibarən uzunmüddətli əsasda əlavə 1,2 milyard kubmetr ötürücülük gücü istifadəyə verilib.

Bu addımın TAP-ın genişləndirilməsi istiqamətində mühüm mərhələ hesab olunduğunu vurğulayan Luka Skiepatti deyib ki, ötən ilin iyul ayında başlayan bazar sınağının isə qeyri-məcburi mərhələsi hazırda davam edir.

*XQ*

# Rəqəmsallaşma dövründə ana dilimizin saflığının qorunması daha önəmlidir

## *Beynəlxalq terminlər və onların qarşılıqları Azərbaycan dilinin potensial imkanları ilə uzlaşdırılmalıdır*

**Hər bir xalqın varlığını təsdiq edən, yaşadan onun dilidir. Ana dili xalqın keçmişini bu günü, bu gününü isə gələcəyi ilə bağlayan mənəvi yaddaş, əsrlər boyu formalaşan milli düşüncəni, adət-ənənələri və mədəni dəyərləri nəsildən-nəslə ötürən qiymətli irsdir. Dilimizin hər kəlməsində xalqın taleyi, hər ifadəsində dünyaya baxışı yaşayır. Ulu öndər Heydər Əliyev bu gerçəklə bağlı deyirdi: “Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir”.**






Azərbaycan dili əsrlər boyu tarixi mərhələlərdən keçərək zəngin söz xəzinəsi kimi formalaşıb. Lakin qloballaşmanın sürətləndiyi, informasiya axınının sərhəd tanımadığı müasir dövrdə beynəlxalq terminlərin dilimizə kütləvi şəkildə daxil olması yeni çağırışlar yaradıb. Xüsusilə elm, texnologiya, iqtisadiyyat, informasiya-kommunikasiya və media sahələrində meydana çıxan yeni anlayışların milli dilin daxili imkanları hesabına qarşılığını müəyyənləşdirilməklə ana dilinin özünəməxsusluğunun və saflığının qorunması aktuallıq kəsb edir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev Azərbaycan dilinin saflığını qorumaqla yad təsirlərdən mühafizəsini dövlət və cəmiyyət qarşısında duran mühüm vəzifələrdən biri kimi dəyərləndirir. Bu çağırış elmi ictimaiyyət, xüsusilə də dilçi alimlər qarşısında yeni məsuliyyətlər yaradır.

Bəs Azərbaycan dilinə daxil olan yeni terminlərin qarşılığı necə müəyyənləşdirilir? Bu sahədə hansı elmi prinsiplər əsas götürülür? Termin yaradıcılığı prosesində hansı çətinliklər və mübahisəli məqamlar ortaya çıxır? Bu və digər suallara aydınlıq gətirmək üçün dilçilik sahəsində tanınmış alim və mütəxəssislərin – akademik Nizami Cəfərov, professorlar – Sayalı Sadıqova, Nadir Məmmədli və Tofiq Əbdülhəsənlinin fikir və təkliflərini öyrəndik.

**İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi rəqəmsallaşma dövründə dilimizə yeni terminlərin daxil olması təbii prosesdir. Bu prosesi hansı həddə qədər normal saymaq olar?**

**Sualımızı ilk olaraq Atatürk Mərkəzinin direktoru, filologiya elmləri doktoru, Əməkdar elm xadimi, akademik Nizami Cəfərov şərh etdi:**

– İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə dil qlobal leksik-semantik proseslərin qarşısında, demək olar ki, müdafiəsiz qalıb. Artıq burada hansısa beynəlxalq təsirlərdən və ya təzyiqlərdən qorunmaq o qədər də asan deyil. Çünki bu, idarəolunmaz prosesdir. Ona görə də əsas məsələ dilin özünün daxili müqavimətidir. Yəni dil özünü qlobal aləmdən təcrid etmədən, bu təsirlərin altında öz varlığını nə dərəcədə qoruyub saxlaya biləcək?

Məsələnin paradoksallığı da elə burasındadır: dil həm qlobal münasibətlər sistemində fəal iştirak etməli, həm də öz orijinallığını qorumalıdır. Əslində, bu, xalqların və millətlərin beynəlxalq səviyyədə mövcudluğunun mühüm tərkib hissəsidir. Qloballaşan dünyada xalqların milli varlığı, mədəniyyəti və etnoqrafiyası ciddi təzyiqlərə məruz qalır. Bu mədəniyyətin özünü qoruya bilməsi üçün onun nə qədər koloritli, dəyərli və əhəmiyyətli olması həlledici şərtdir.Lakin bu prosesdə başqa bir məqam da var: təkcə xalqlar yox, bütövlükdə dünya da müəyyən milli təzahürlərin, koloritlərin və spesifik xüsusiyyətlərin qorunmasında maraqlıdır.

Məsələn, yalnız Azərbaycan üçün deyil, dünya mədəniyyəti üçün də Xınalıq kəndinin və onun dilinin qorunub saxlanması əhəmiyyətlidir. Amma bu, artıq bir növ dekorativ qorumadır. Çünki Xınalıq kəndinin dilinin qorunması onun beynəlxalq dilə çevriləcəyi anlamına gəlmir. Bax, buradakı ziddiyyət və qeyri-adilik də məhz bundadır – dil həm müdafiə olunur, həm də olunmur. Belə bir ziddiyyətli mühitdə biz lazımi balansı və tarazlığı tapmaqda o qədər də uğurlu vəziyyətdə deyilik.

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmlər doktoru, professor Sayalı Sadıqova prosesə daha geniş aspektdə yanaşdı:**

– Dil ictimai, sosial hadisədir. Cəmiyyətdə, ictimai həyatda, elmi-texniki tərəqqidə baş verən hər bir hadisə, elmi yeniliklər dilin lüğət tərkibində söz və termin vasitəsilə öz əksini tapır. Yeni anlayışların yaranması isə dilin terminoloji sistemini zənginləşdirir. Bu da onu göstərir ki, terminologiya cəmiyyətlə, elm sahələri ilə qarşılıqlı əlaqədə inkişaf edir.

Elm sahələrində, eləcə də dövlətçiliyin formalaşması, hakimiyyəti təşkil edən strukturlar, iqtisadiyyatın müxtəlif sahələri, hüquqi qaydalarla bağlı dil vahidləri anlayışlarla qarşılıqlı əlaqədə yaranır və terminologiyanı inkişaf etdirir. Əgər dilin ümumişlək lüğət tərkibi onun nüvəsini təşkil edirsə, elm və texnologiyanın inkişafı bu nüvəni zənginləşdirən əsas məxəzlərdəndir.

Sahə mütəxəssislərinin və tədqiqatçıların bir-birinin işlərini başa düşməsi üçün terminoloji səviyyədə qarşılıqlı anlaşma olmalıdır. Bu problemlərin ümumi dairəsinə terminlərin yaradılması, nizama salınması və standart formalarının müəyyənləşdirilməsi, terminlərdə çoxmənalılıq və onların şərhində fərqlilik, fərdi və ya müəllif termin yaradıcılığı meylinin güclənməsi, son dövrlərdə genişlənmiş “nominasiya partlayışı” və onunla bağlı olaraq elmi kontekstdə sözlərdən, terminlərdən istifadə zamanı dəqiqliyin, eləcə də normativliyin qorunması daxildir. Bu baxımdan Azərbaycan dilinin daxili imkanları əsasında yaranan terminlər terminoloji bazanın əsas hissəsini təşkil edir.

Azərbaycan dilində dilin daxili imkanları əsasında terminlər yaradılan zaman aşağıdakı istiqamətlər nəzərə alınır: dilin lüğət tərkibindəki ümumişlək sözlərə əlavə məna verməklə terminləşməsi; dialekt və şivələrdə işlənən anlayışı dəqiq ifadə edən sözün seçilib terminləşməsi; qədim abidələrdə peşə, sənətkarlıqla bağlı anlayışları ifadə edən sözlərin terminləşməsi; köhnəlmiş sözlərin dilə qaytarılması yolu ilə terminləşmə; ədəbi dilin söz yaradıcılığı üsullarından istifadə etməklə sözlərin terminləşməsi, yəni milli və alınma sözlərə şəkilçi artırmaq, iki və daha artıq sözün birləşməsi ilə yaranan terminlər. Deməli, anlayışların adlandırılmasında xalq dili həssaslıqla tədqiq edilir və terminologiyanın inkişafında əsas və tükənməz mənbə hesab edilir.

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli:**

– İnformasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsallaşma şəraitində dilə yeni terminlərin daxil olması tamamilə təbii və qanunauyğun prosesdir. Prezident İlham Əliyev noyabrın 3-də AMEA-nın 80 illik yubiley yığıncağında proqram xarakterli çıxışı zamanı elmin müasir çağırışlarını dərindən təhlil edib, ölkəmizin gələcək inkişafında innovasiyaların, texnologiyalarn rolunu xüsusi vurğulamaqla yanaşı, strateji əhəmiyyətli bir sıra məqamlara da toxundu.

Onlardan biri də ana dilimizlə bağlı idi. Dövlət başçısı Azərbaycan dili ilə bağlı narahatlığını ifadə edərək bildirdi ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb, lakin vəziyyət qaneedici deyildir: “Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir. … Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər.”Cənab Prezident bu fikri ilə beynəlmiləl söz və terminlərə sərrast münasibətini ortaya qoydu.

Dövlət başçısının tövsiyəsi açıqdır, əgər hər hansı bir sözün Azərbaycan dilində qarşılığı varsa, onu başqa dildən almağa ehtiyac yoxdur. Elm, texnologiya və cəmiyyət dəyişdikcə dil də həmin dəyişiklikləri müşayiət edən yeni söz və ifadələrlə zənginləşir.

İlk növbədə yeni termin dilin ifadə imkanlarını genişləndirməli və həqiqətən yeni anlayışı adlandırmalıdır. Əgər dildə həmin məfhumu ifadə edən dəqiq və işlək qarşılıq yoxdursa, yeni terminin qəbul edilməsi təbii hesab olunur. Məsələn, “internet”, “veb-sayt”, “server”, “alqoritm” kimi terminlər müəyyən texnoloji reallıqları ifadə etdiyi üçün dilə daxil olmuşdur. İkinci, alınma terminlər zəruri olduqda qəbul edilməlidir. Əgər yeni anlayış üçün dilin öz daxili imkanları hesabına uğurlu qarşılıq yaratmaq mümkündürsə, həmin variantın işlədilməsi daha məqsədəuyğundur. Bu, dilin terminyaratma potensialının qorunmasına xidmət edir. Üçüncü, termin axını dilin sistemini pozacaq həddə çatmamalıdır. Xarici terminlərin həddindən artıq və nəzarətsiz şəkildə işlədilməsi dilin leksik sistemində qarışıqlıq yarada, eyni anlayış üçün paralel variantların çoxalmasına səbəb ola bilər. Belə hallarda terminoloji normalaşdırma və standartlaşdırma zərurəti meydana çıxır. Dördüncü, terminin yaşamağı və vətəndaşlıq hüququ qazanmasını dil praktikası müəyyənləşdirir, yəni bəzi terminlər qısa müddət işlənərək sıradan çıxır, bəziləri isə ictimai istifadədə möhkəmlənərək ədəbi dilin tərkib hissəsinə çevrilir.

**UNEC-in Azərbaycan dili kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, professor Tofiq Əbdülhəsənli:**

– Azərbaycan dilinə son illərdə çoxlu yeni terminlər daxil olur. Təbii ki, bu terminlərin əksəriyyətinin qarşılığı Azərbaycan dilində yoxdur. Bu prosesin də ekstralinqvistik və dildaxili səbəbləri var. Bunun əsas səbəbi dilimizə yeni gələn sözlərin müasir dövrün ritminə uyğun olaraq daha çox texnologiya, internetlə, elmi-texniki tərəqqi ilə bağlı olmasıdır. Buna görə də bu prosesin qarşısını süni şəkildə almaq olmaz.

Təbii ki, dil qapalı sistem deyil, dili izolyasiya etmək olmaz. Bu prosesdə imkan daxilində Azərbaycan dilinin daxili potensialından, yəni öz söz ehtiyatımızdan bəhrələnmək lazımdır. İlk növbədə, kalka üsulundan istifadə olunmalıdır, çünki həm sovet dönəmində, həm də müstəqillik illərində kalka, yəni hərfi tərcümə üsulu ilə yüzlərlə yeni söz yaradılmışdır. Bu proses dildə terminoloji zənginləşmə prosesini təmin edən ən əsas üsullardan biridir. Söz yaradıcılığı terminyaratma prosesində dominantlığını hər zaman saxlayır.

Məlumdur ki, yeni terminlər daha çox beynəlmiləl mahiyyət daşıyır. Onlar qloballaşma dönəmində ortaq linqvistik vahidlər kimi əksər dillərin lüğət tərkibində sabitləşmişdir. Sadəcə, həmin ortaq beynəlmiləl terminlər milli dillərə transliterasiya olunur. Eyni proses Azərbaycan dilində də baş verir. Buna görə də alınma terminlərin transliterasiyası terminalma prosesində mütləq nəzərə alınmalı və həmin terminlər dilimizin milli xüsusiyyətlərinə, o cümlədən fonotaktika qaydalarına uyğunlaşdırılmalıdır.

**Son illər çoxsaylı beynəlxalq terminlər işlədilir və əksəriyyəti də leksikonumuza daxil olub. Hansı meyarlarla müəyyən olunur ki, bəzi terminlər olduğu kimi qəbul edilməli, digərlərinin isə Azərbaycan dilində qarşılığı tapılmalıdır?**

**Nizami Cəfərov** – Bir elmi müəssisə olaraq Dilçilik İnstitutu, eləcə də universitetlərimiz və fərdi tədqiqatçılarımız dildə gedən təbii prosesləri daha peşəkar və professional səviyyədə, elmi şəkildə təsvir edə bilərlər.

Yaxın gələcəkdə bunu süni intellekt də eyni uğurla yerinə yetirəcək; o da texniki məlumatları toplayıb müəyyən ümumiləşdirmələr apararaq nəticəni təqdim edəcək. Əgər biz Dilçilik İnstitutundan dilimizə hansı beynəlxalq sözlərin keçib-keçməməsi ilə bağlı qəti hökm verməsini tələb etsək və institut bu cür fundamental proqnozlar vermək iddiasına düşsə, bu, sadəcə, yalançı uzaqgörənlik olar. İnstitutun vəzifəsi bu prosesləri öyrənmək, istiqamətləri müəyyənləşdirmək və mövcud vəziyyəti göstərməkdir. Məsələn, son bir neçə ildə dilimizə nə qədər sözün daxil olduğunu, hansı milli sözlərimizin beynəlxalq terminlərə qurban verildiyini, yaxud hansı elm sahələrində milli terminlərin qorunduğunu və ya itirildiyini təhlil etməlidir. Eyni zamanda, Azərbaycan dili mühitində yaranan hər hansı bir anlayışın beynəlxalq status alıb-almadığını araşdırmalıdır. Dilçilik İnstitutu bu suallar ətrafında düşünə bilər, lakin beynəlxalq terminlərə münasibətdə proseslərin gələcək inkişafına dəqiq proqnoz verə bilməz. Bu proqnozu hər birimiz institutun təqdim etdiyi analitik məlumatlar əsasında fərdi şəkildə çıxara bilərik.

**Sayalı Sadıqova** – Azərbaycan dilində qarşılığı olmayan terminləri yaratmaq üçün süniliyə və uydurmaçılığa yol vermədən xalq dili əsas götürülməlidir. Xüsusən də ədəbi dildə qarşılığı olmayan bir çox söz və terminlər dialekt və şivələrdən götürülür. Dialekt leksikasında coğrafiya, peşə-sənət, kənd təsərrüfatının, müxtəlif sahələrinə aid ədəbi dildə olmayan çoxlu sayda sözlər işlənir. Bu gün kənd təsərrüfatında işlənən herik, qaysaq, dondurma, suvarma kimi terminlər şivələrdən ədəbi dilə keçmişdir. Azərbaycan dilində yeni yaranan anlayışların adlandırılmasında, yaxud da alınma terminlərin qarşılığının müəyyənləşdirilməsində dilin lüğət tərkibində işlənən ümumişlək sözlərdən istifadəyə üstünlük verilir.

Məsələn, “süzgəc” sözü informatika sahəsində standart və ya başqa giriş verilənlər selini oxuyan, onu müəyyən qaydada çevirən, sonra isə nəticələri standart çıxış selinə və ya göstərilmiş təyinat yerinə yazan proqram, “tələ” sözü iqtisadiyyatda əməliyyat sistemində müəyyən tip kəsilmələri və ya müstəsna vəziyyətləri tutmağa imkan verən mexanizm kimi istifadə olunur. Eləcə də “yayıcı” sözü jurnalistikada kütləvi informasiya vasitəsi məhsullarının, qəzet, jurnalın redaksiya ilə razılışdırılmış müqavilə əsasında yayımını həyata keçirən fiziki və ya hüquqi şəxs, “yayım” sözü səsli və görüntülü verilişlərin kodlaşdırılmış şəkildə müəyyən məsafəyə ötürülməsi prosesi, “yayımçı”-teleradio proqramlarını tərtib etməyə cavabdeh olan, onu hazırlayan və yayımını həyata keçirən hüquqi, yaxud fiziki şəxs mənasında termin kimi xüsusiləşir.

Dilimizə Avropa mənbəli alınmalar bədii üslubdan başlayaraq elmi üsluba qədər, rəsmi-kargüzarlıq üslubundan tutmuş, gündəlik-məişət danışığına qədər həyatın bütün sferalarında işlədilən ədəbi dil üslublarında kifayət qədər yüksək işlənmə tezliyi nümayiş etdirir. Məsələn, birja, birja sessiyası, biznes, biznesmen, kompüter, arbitraj, akkordion, akkreditiv, depozit, makrovirus, presedent, proklamasiya, sensor, videokamera və s.

**Nadir Məmmədli** – Bu məsələdə vahid və bütün hallara tətbiq olunan sərt qayda yoxdur. Lakin terminologiya nəzəriyyəsində və Azərbaycan dilinin terminoloji siyasətində, adətən, bir neçə əsas meyar rəhbər tutulur.

• Anlayışın yeniliyi və beynəlxalq xarakteri. Əgər termin dünya elmi və texnoloji dövriyyəsində geniş yayılmış, beynəlxalq standartın tərkib hissəsinə çevrilmişdirsə və onun tərcüməsi dəqiqliyə ziyan vurursa, termin olduğu kimi və ya Azərbaycan dilinin fonetik-qrammatik normalarına uyğunlaşdırılaraq qəbul edilir. Məsələn, autsayder, ayfon, dütifri, ekstrdisiya, konsensus və s.

• Azərbaycan dilində adekvat qarşılığın mövcudluğu. Əgər anlayışın məzmununu dəqiq ifadə edən milli qarşılıq yaratmaq mümkündürsə, həmin variant üstün tutulur. Məsələn, “kopirayter” termininin qarşılığı kimi “müəlliflik hüququnun qorunması işarəsi”, “database” üçün “verilənlər bazası”, “artificial intelligence” üçün “süni intellekt” terminləri uğurlu hesab olunur.

• İşlənmə tezliyi və ictimai qəbul səviyyəsi. Bəzən nəzəri cəhətdən yaxşı qarşılıq təklif edilsə də, cəmiyyət və mütəxəssislər arasında qəbul olunmur. Belə hallarda terminin faktiki işlənmə vəziyyəti nəzərə alınır. Əsas şərti unutmayaq: terminologiyada norma qərarla deyil, dil praktikası ilə formalaşır.

• Qısalıq və funksionallıq. Termin elmi ünsiyyətdə rahat işlənməli, həddindən artıq uzun və mürəkkəb olmamalıdır. Bəzən xarici terminin qısa forması uzun tərcümədən daha səmərəli olur. Məsələn, binanın iç tərəfi – interyer, binanın üz tərəfi – fasad və s.

• Sistemlilik prinsipi. Yeni termin mövcud terminoloji sistemə uyğun götürülməlidir, eyni sahədəki anlayışlar arasında məntiqi əlaqələr pozulmamalıdır. Məsələn, informasiya texnologiyaları sahəsində qəbul edilən terminlər həmin sahənin ümumi terminoloji modelinə uyğunlaşdırılır.

AMEA Nəsimi adına Dilçilik İnstitutunun və terminologiya üzrə mütəxəssislərin məqsədi nə bütün beynəlxalq terminləri tərcümə etmək, nə də onların hamısını olduğu kimi qəbul etməkdir. Əsas məqsəd elmi dəqiqliyi, beynəlxalq inteqrasiyanı və Azərbaycan dilinin daxili inkişaf qanunauyğunluqlarını tənzimləməkdir.

**Tofiq Əbdülhəsənli** – Son dövrlərdə sosial media ilə, internetlə bağlı olaraq bloger, influenser, viral, podkast, trend, kontent, kriptovalyuta tipli yeni terminlərin dilimizə gəlişi birbaşa olaraq virtual dünyanın aktuallaşması, sosial medianın populyarlaşması ilə bağlıdır. Məsələn, bloger sözünü necə əvəzləmək olar. Ancaq elə yeni sözlər terminlər var ki, onların qarşılığını tapmaq mümkündür. Məsələn, razedka sözünün elektrik yuvası və ya udilnitel sözünün uzadıcı kimi qarşılıqları təqdim olunmuş və artıq dilimizdə sabitləşərək normallaşma prosesinə qoşulmuşdur.

Elə beynəlxalq səciyyəli terminlər var ki, onlar universal xarakterlidir. Məsələn, son dövrlərdə siyasi diskursda demarkasiya, delimitasiya, reinteqrasiya, postmünaqişə, postmüharibə sözlərinin populyarlıq qazanması onların işləklik dərəcəsini kifayət qədər artırmışdır.

Azərbaycan dilinin terminoloji bazasını zənginləşdirmək üçün, ilk növbədə, dilimizin öz potensialından istifadə olunmalıdır. Prezident İlham Əliyev 6 yanvar 2026-cı il tarixində jurnalistlərlə söhbəti zamanı qeyd etmişdir ki, “biz müstəqillik eşqi ilə yaşamış xalqıq. Xarici kəlmələr dilimizi pozur. Zənginləşdirmir və milli kimliyimizi damcı-damcı, yavaş-yavaş sarsıdır”.

***(ardı var)***

***Hazırladı:***
***XQ-nin Analitik Mərkəzi***

*"Azərbaycan Mədəniyyəti – 2040"*

# Qlobal çağırışlara cavab verən konsepsiya

**Mədəniyyət hər bir xalqın tarixi yaddaşını, milli kimliyini və mənəvi dəyərlər sistemini özündə təcəssüm etdirən ən əhəmiyyətli ictimai institutlardan biridir. Müasir dövrdə qloballaşma prosesinin sürətlənməsi, rəqəmsal transformasiya, informasiya texnologiyalarının geniş yayılması və beynəlxalq mədəni inteqrasiyanın güclənməsi dövlətlərin mədəniyyət sahəsində yürütdükləri siyasətə yeni yanaşmalar formalaşdırmağı zəruri etmişdir.**

Məlum olduğu kimi, 1993-cü ildə xalqın təkidi ilə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ölkəmizin tarixində yeni inkişaf erasının başlanığıcı olmuşdur. Elmin, təhsilin, mədəniyyətin böyük himayəçisi, əvəzsiz maarifpərvər liderin xilaskar missiyalı qayıdışı ilə bütün sahələrdə olduğu kimi, elm, təhsil və mədəniyyət sahəsində də tənəzzülün, böhranın qarşısı alındı. Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil, bəşəri elm və milli mədəniyyət müstəsna yer tutur.

Prezident Heydər Əliyevin milli dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının əsas yolu mütləq və mütləq milli təhsildən keçir, təhsil dövlətin təməl ünsürü, millətin gələcəyidir. Buna görə də prioritet sahə olan təhsilə, elmə, mədəniyyətə qayğı dövlətin əsas strateji xətti kimi ön plana çəkildi. Qeyd etmək lazımdır ki, təhsilə, elmə, mədəniyyətə böyük qayğı Heydər Əliyev şəxsiyyətinin daxili ziyalılığının, maarifpərvərliyinin təzahürü olub, xalqını, millətini sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq ifadəsi idi.

2003-cü ildən etibarən ulu öndər Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətini müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyatın bütün sahələrində qazanılmış uğur və nailiyyətlər sübut edir ki, respublikamız strateji cəhətdən düzgün müəyyənləşdirilmiş və parlaq gələcəyə aparan Heydər Əliyev yolu ilə irəliləyir. Dövlət başçısı mədəniyyət sahəsinə də böyük əhəmiyyət verir və bu sahəni daim diqqətdə saxlayır. Ölkəmizdə mədəniyyət sahəsinin zəruri normativ-hüquqi bazası yaradılmış, institusional islahatlar uğurla həyata keçirilmişdir. Azərbaycan Respublikasında milli-mədəni inkişafın uzunmüddətli strateji əsaslarının müəyyənləşdirilməsi məqsədilə 2026-cı il yanvarın 14-də təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası bu baxımdan xüsusi önəm kəsb edir.

2014-cü ildə Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası təsdiq edilmişdir. Sənəddə göstərilir ki, mədəniyyət sahəsində dövlət siyasəti mədəni irsin qorunması və təbliği, mədəni sərvətlərin yaradılması və inkişafı istiqamətində dövlətin rəhbər tutduğu prinsiplərlə səciyyələnir. Konsepsiyanın əsas məqsədi Azərbaycan xalqının bütövlüyünün qorunması şərti ilə, mədəniyyət siyasətinin təminat mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və inkişafının təmin olunması idi. Sənədin əsas vəzifələri isə mədəniyyətin bütün sahələrinin, o cümlədən mədəni siyasətin idarəetmə, hüquqi, maliyyə, informasiya, insan resursları, maddi-texniki infrastruktur və beynəlxalq əməkdaşlıq kimi təminat mexanizmlərinin inkişafını, bu sahədə göstəricilərin yüksək səviyyəyə çatdırılmasını və mədəni irsin təhlükəsizliyi üçün islahatların həyata keçirilməsini təmin etmək idi. Milli mədəniyyətin inkişafına xidmət edən bu sənəd uğurla icra olunmuşdur. Ötən müddət ərzində kinematoqrafiyanın və kino sənayesinin inkişafına dövlət dəstəyi göstərilmiş, akademik, milli və aparıcı teatrların sayı



artmış, ölkə ərazisində 100-dən artıq beynəlxalq festival, yubiley və mədəniyyət tədbirləri, xarici ölkələrdə isə 60-dan çox Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Ölkədə fəaliyyət göstərən muzey və qalereyalarda 42 min 700-dən artıq sərgi təşkil olunmuş, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən 36 eksponat xaricdən geri qaytarılmış, 20085 eksponat bərpa olunmuşdur. Azərbaycan mədəniyyətinin sahələr üzrə inkişafı və mahiyyətcə zənginləşdirilməsi ilə bərabər, mədəniyyət infrastrukturu da inkişaf etdirilmişdir.

2003–2024-cü illərdə Azərbaycanda mədəniyyət sahəsində 14 qlobal və 100-dən artıq regional tədbir keçirilmişdir. Mədəniyyətlərarası dialoqu genişləndirmək məqsədilə "Bakı prosesi", ümumdünya mədəniyyətlərarası dialoq forumlarının da daxil olduğu tədbirlər nəticəsində Azərbaycan Respublikası beynəlxalq müstəvidə mədəni-siyasi nüfuz qazanmışdır. Beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə 6 xarici ölkədə (Almaniya, Avstriya, Fransa, İtaliya, Özbəkistan, Türkiyə) Azərbaycan mədəniyyət mərkəzi yaradılmışdır. Müxtəlif illərdə Azərbaycan Respublikasının 3 şəhəri İslam Dünyasının, (Bakı – 2009-cu il üçün, Naxçıvan – 2018-ci il üçün, Şuşa – 2024-cü il üçün), 2 şəhəri Türk Dünyasının Mədəniyyət Paytaxtı (Şəki – 2016-cı il üçün, Şuşa – 2023-cü il üçün) elan edilmişdir.

Bir neçə ay əvvəl təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və bu sahə ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir. 15 illik dövrü əhatə edən konsepsiyanın üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələ 2026–2030-cu, ikinci mərhələ 2031–2035-ci, üçüncü mərhələ isə 2036–2040-cı illəri əhatə edəcək.

Hesab edirik ki, konsepsiya yalnız mədəniyyət sahəsində inkişaf istiqamətlərini müəyyən edən sənəd deyil, eyni zamanda dövlətçilik ideologiyasının, milli-mənəvi dəyərlərin qorunmasının və müasir dövrdə milli identikliyin möhkəmləndirilməsinin strateji proqramıdır. Sənəddə Azərbaycan mədəniyyətinin qlobal mədəni proseslərdə layiqli yer tutması, milli irsin qorunması, yaradıcı sənayelərin inkişaf etdirilməsi, mədəniyyətin iqtisadi və sosial inkişaf amilinə çevrilməsi kimi mühüm məsələlər öz əksini tapmışdır.

Konsepsiyanın ilk hissəsində sağlam mədəni və yaradıcı həyatın hər hansı fərdin, bütövlükdə cəmiyyətin, xalqın və dövlətin inkişafına həmişə əhəmiyyətli təsir göstərdiyi vurğulanır: "Mədəniyyətin həyat tərzinin tərkib hissəsi olması bu inkişafın əsas amillərindəndir. Azərbaycan mədəniyyətinin müasir modeli fərdin mədəni həyatda daha geniş və yaradıcı iştirakına şərait yaratmaqla, dövlətin sosial, siyasi, iqtisadi və digər sahələrdə qarşısına qoyduğu strateji məqsəd və hədəflərə daha sürətlə çatmasına imkanlar açır. Bu model Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin bərqərar olması, ölkənin rəqabətli insan kapitalı və innovasiyalar məkanına çevrilməsi üçün əsas vasitələrdən biri kimi çıxış edir".

Konsepsiyanın əsas üstünlüklərindən biri onun kompleks xarakter daşımasıdır. Sənəddə mədəniyyətin yalnız incəsənət və irs məsələləri ilə məhdudlaşmadığı, həmçinin dil siyasəti, kommunikasiya, təhsil, hüquq, iqtisadiyyat, regional inkişaf və beynəlxalq əməkdaşlıqla sıx əlaqəli olduğu göstərilir. Bu isə müasir dövrdə mədəniyyətin çoxşaxəli sosial institut kimi qəbul edilməsinin göstəricisidir.

Konsepsiyanın ümumi mahiyyəti və strateji məqsədlərini təhlil edərkən göstərmək lazımdır ki, "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası dövlətin uzunmüddətli mədəni siyasətinin əsas prioritetlərini müəyyən edən strateji sənəd kimi xüsusi əhəmiyyətə malikdir. Sənədin hazırlanmasında müasir beynəlxalq təcrübə, milli maraqlar, qlobal çağırışlar və sosial-iqtisadi inkişaf prioritetləri nəzərə alınmışdır.

Konsepsiyanın əsas məqsədi Azərbaycan mədəniyyətinin davamlı inkişafını təmin etmək, milli-mənəvi dəyərləri qorumaq, mədəni irsi gələcək nəsillərə ötürmək və mədəniyyətin beynəlxalq rəqabət qabiliyyətini artırmaqdır. Burada diqqəti cəlb edən əsas məqamlardan biri məhz mədəniyyətin dövlət təhlükəsizliyi və milli identikliklə birbaşa əlaqələndirilməsindir.

Sənəddə vurğulanır ki, milli mədəniyyətin qorunması yalnız mənəvi məsələ deyil, həm də dövlətçilik məsələsidir. Xüsusilə qloballaşma şəraitində milli dillərin, ənənələrin və mədəni özəlliklərin qorunub saxlanması strateji prioritetə çevrilmişdir. Buna görə də fikrimizcə, konsepsiya azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Konsepsiyanın məqsədlərindən biri də mədəniyyətin ÜDM-də payının artırılmasıdır. Adıçəkilən sənəddə mədəni və yaradıcı sənayenin inkişafına ayrıca toxunulmuşdur. Bu da onunla əsaslandırılır ki, ölkəmizdə bu sahənin iqtisadiyyatda rolu genişlənməkdədir. Məlum olduğu kimi, ölkəmizdə mədəni və yaradıcı sənayelərin (MYS) inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi nəzərdə tutulur. Hazırda Azərbaycanda bu sahədə fəaliyyət göstərən 25 minə yaxın sahibkarlıq subyekti var. Statistik məlumatlara əsasən, 2025-ci ildə mədəni və yaradıcı sənayelərin ÜDM-də payı 1 faizə çatıb. Ümumiyyətlə, bu sektorun ölkə iqtisadiyyatında çəkisinin getdikcə artması tendensiyası müşahidə olunur. Bu sahədə xidmət ixracı da çoxalıb. 2025-ci ildə 265 milyon 487 min ABŞ dolları məbləğində MYS xidmət ixracı olub, bu da 2024-cü illə müqayisədə 23,3 faiz çoxdur. Bütün bunlar həm də yeni iş yerləri və yaradıcı məşğulluğun artması deməkdir.

Bu gün yeni mədəniyyət modelində mədəniyyətin funksionallığının artırılmasına xidmət edən ən vacib, ən önəmli alət məhz mədəni və yaradıcı sənayelərdir. Bu istiqamətdə Mədəniyyət Nazirliyinin uğurlarından biri Mədəni və Yaradıcı Sənayelərin İnkişafı Mərkəzinin təşkil edilməsi idi. Həmin mərkəz 2024-cü ilin dekabr ayından etibarən fəaliyyətə başladı.

Konsepsiyaya əsasən, 2040-cı ilədək MYS-nin dinamik inkişafı istiqamətində qanunvericilik bazası yaradılacaq və institusional islahatlar gerçəkləşdiriləcək. Bundan başqa, MYS-in maliyyələşdirilmə mənbələri diversifikasiya ediləcək, bu sahəyə investisiya qoyuluşu genişləndiriləcək.

Bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır ki, konsepsiyanın mühüm xüsusiyyətlərindən biri onun dayanıqlı inkişaf prinsiplərinə əsaslanmasıdır. Sənəddə mədəniyyətin iqtisadi, sosial və humanitar inkişafın ayrılmaz hissəsi olduğu göstərilir. Bu yanaşma beynəlxalq təşkilatların, xüsusilə UNESCO-nun mədəni inkişaf konsepsiyaları ilə uyğunluq təşkil edir.

Bundan başqa, konsepsiyada rəqəmsallaşma və innovasiya məsələlərinə də xüsusi diqqət yetirilmişdir. Müasir texnologiyaların mədəniyyət sahəsində tətbiqi, rəqəmsal arxivlərin yaradılması, virtual muzeylərin təşkili və elektron kitabxana sistemlərinin inkişaf etdirilməsi gələcək inkişaf istiqamətləri kimi müəyyən edilmişdir.

Sənədin məqsədləri sırasında mədəniyyət sahəsində vahid informasiya və kommunikasiya siyasətinin formalaşdırılması; Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə səmərəli iştirakı, mədəni dəyərlərin geniş təbliği, ölkəmizin beynəlxalq imicinin yüksəldilməsi; mədəniyyət nümunələrinin beynəlxalq siyahılara daxil edilməsinin və mədəniyyət sahəsində beynəlxalq öhdəliklərin icrasının əlaqələndirilmiş şəkildə həyata keçirilməsi kimi məsələlər də yer alır. Yeri gəlmişkən, qeyd edək ki, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanununda da bu mühüm məsələlər beynəlxalq əməkdaşlıq sahəsində dövlət mədəniyyət siyasətinin prioritetləri (maddə 50) olaraq təsbit edilib.

Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın prioritetlərindən bir neçəsini xatırlatmaq məqsədəuyğun olardı: beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə milli mədəniyyətin xarici ölkələrdə təbliği; mədəni sərvətlərin birgə istehsalının stimullaşdırılması; mədəniyyətlərarası dialoqun dəstəklənməsi; beynəlxalq informasiya sistemlərinin tətbiqi və s.

Konsepsiyada prioritet istiqamətlər sırasında mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə görüləcək tədbirlər öz əksini tapıb. Bunlardan biri də müasir mədəniyyət kommunikasiyası modellərinin tətbiqidir.

Mədəniyyətlərarası kommunikasiya qlobal dünyanın üzləşdiyi çətinliklərdən biridir. Effektiv mədəniyyətlərarası kommunikasiyanın qurulmasında əsas məqsəd identifikasiya və özünüdərk prosesi, kommunikasiyanı model kimi strukturlaşdırılmış şəkildə ifadə etməli olan müvafiq dəyər sistemlərinin qurulmasıdır. Bir və ya fərqli mədəniyyətlər daxilində anlaşma problemi ilə yanaşı, insanlar arasında yadlaşmanın aradan qaldırılması, dəyərlərin və mənaların ötürülməsi, mənimsənilməsi məsələsi getdikcə daha da aktuallaşır. Müasir elm ünsiyyəti ya məlumatötürmə və qəbuletmə prosesi, ya da başqalarını və onların daxili dünyasını anlama prosesi kimi müəyyən

> **Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir.**
>
> ***İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti***

etmişdir. Mədəniyyətlərarası kommunikasiya ünsiyyət prosesində bir-birinin adekvat anlaşılması, fərqli mədəniyyətlərə və ya fərqli diskursiv təcrübələrə, dəyərlərə, mənalara və simvollara mənsub insanların qarşılıqlı təsiridir.

Müasir elm çoxsaylı kommunikasiya metodlarını və növlərini tanıyır. Bunları iki növ modelə bölmək olar: xətti və dəyər əsaslı.

Xətti modellər istənilən kommunikasiyanın əsas funksiyasını - informasiya ötürülməsini yerinə yetirmək üçün nəzərdə tutulub. Dəyər əsaslı modellər mənaların təfsirini və dəyərlərin formalaşmasını asanlaşdırır. Müasir dünyada mədəniyyətlərarası kommunikasiyanın xətti və dəyər əsaslı modellərinin üstünlüklərini birləşdirən effektiv mədəniyyətlərarası kommunikasiya modeli yaratmaq lazımdır. Fikrimizcə, bu yeni kommunikasiya modelləri müxtəlif mədəniyyətlərə və etnik qruplara mənsub insanlar arasında anlaşılmazlıq kimi problemin aradan qaldırılmasına kömək edə bilər.

Müəyyən edilmişdir ki, inkişaf etmiş bütün mədəniyyətlərarası kommunikasiya modellərinin müsbət tərəfi onların tətbiq oluna bilməsi və tətbiqə yönəlməsidir. Mövcud mədəniyyətlərarası kommunikasiya modellərinin çatışmazlığı fərdin mədəniləşməsi, sosiallaşması və şəxsiyyətin inkişafı üçün zəruri olan vacib aspekti nəzərə almayan effektiv dəyər əsaslı və ya xətti informasiya əsaslı kommunikasiyaya yönəlməsidir.

Konsepsiyada mədəniyyət sahəsində idarəetmə ilə bağlı çağırışlar da təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, 2018-ci il aprelin 20-də mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalanıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılıb. Məlum olduğu kimi, hazırkı konsepsiyanın hədəf göstəricilərindən biri də mədəni turizmin inkişafıdır. Yeni yaradılmış Dövlət Turizm Agentliyi turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, normayaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsi, dövlət nəzarəti və əlaqələndirmə, turizmin inkişafı məqsədilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, tabeliyindəki dövlət qoruqlarının ərazilərindən məqsədyönlü istifadəni təşkili və onların qorunub saxlanılması, milli kulinariya nümunələrinin qorunması və təbliği istiqamətində uğurlu fəaliyyət göstərir.

Sənəddə Azərbaycan dili məsələsinə xüsusi əhəmiyyət verilir, milli mədəniyyətimizin formalaşmasında və xalqımızın milli özünütəsdiqindəki rolu aydın şəkildə göstərilir. Azərbaycan dilinin milli identikliyin əsas sütunlarından biri olduğu xüsusi vurğulanır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli yaddaşın, tarixi təcrübənin və mədəni irsin daşıyıcısıdır. Bu baxımdan, dövlət dilinin qorunması və inkişaf etdirilməsi milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir.

***(ardı var)***

***İradə HÜSEYNOVA,***
***Bakı Dövlət Universiteti***
***Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

---

*Gənc istedadlarımız*

# Rəssam-qəzəlxanın bəstəkar qızı

**Bir neçə gün əvvəlin söhbətidir. Lənkəran Dövlət Dram Teatrında cənub diyarının yetirməsi, tanınmış şair, publisist Vaqif Hüseynovun 90 illik yubiley mərasimi keçirilirdi. Toplantıda bir-birindən maraqlı çıxışlar oldu, kövrək xatirələr çözələndi. Məclisin bədii hissəsində isə Azərbaycan Bəstəkarlar İttifaqının gənc üzvü Aydan Əliyevanın yubilyarın "Bilsəydim ki" şeirinə yeni yazdığı melodiya səsləndi.**

Gənc sənətçi bəstələdiyi mahnını olduqca incə, gözəl bir səslə, şövqlə ifa etdi. Həqiqətən, musiqi də, ifa da səmimi idi və hamını təsirləndirdi.

Aydanla söhbətdən bəlli oldu ki, o, artıq xeyli mahnı müəllifidir. Beynəlxalq müsabiqələrdə də iştirak edərək uğurlar qazanıb. O, 1998-ci ildə Bakı şəhərində tanınmış rəssam, qəzəlxan şair Əbdüləmi Nadirin ailəsində dünyaya göz açıb. Qəlbində xalq mahnılarımıza, muğama sonsuz maraq yeniyetməlik illərində doğma ailə mühitində yaranıb. Klassik ədəbiyyatımız barədə ilk bilgiləri də atasından alıb.

Bakının Mərdəkan qəsəbəsindəki 17 saylı musiqi məktəbinin fortepiano sinfini bitirən Aydan Asəf Zeynallı adına musiqi məktəbində (indiki Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Musiqi Kolleci) piano ixtisası üzrə təhsil alıb. Bakı Musiqi Akademiyasının magistraturasında oxuduğu illərdə Əməkdar incəsənət xadimi, professor Aydın Əzimovdan vokal və simfonik musiqinin incəliklərini öyrənib.

Aydan tələbəlik illərindən başlayaraq bəstəkarlıq sahəsində bir sıra uğurlara imza atıb. Xalq şairləri Vahid Əziz və Ramiz Rövşənin şeirlərinə mahnılar bəstələyib. Arzuları aşıb-daşan Aydan motivasiyaslı, yaradıcı gəncdir. Tanınmış, sevilən şairlər də öz poetik nümunələrini gənc bəstəkara həvəslə təqdim edirlər.

O, klassik musiqi sahəsində də bacarığını sınayıb. Vətən müharibəsində tarixi Zəfərimizə həsr olunan "Qarabağ" simfonik poemasını ölkəmizin musiqi ictimaiyyəti maraqla qarşılayıb.

Gənc bəstəkar milli musiqimizi beynəlxalq arenalarda da uğurla təmsil edir. O, 2019-cu ildə Gürcüstanda Otar Taktavişvili adına beynəlxalq müsabiqəyə təqdim etdiyi simfonik pyesə görə diplomla mükafatlandırılıb. 2020-ci ildə Ukraynada keçirilən müsabiqədə dahi Nizaminin "Ay üzlü nigarım" qəzəlinə yazdığı romansla qalib elan olunub. 2021-ci ildə Türkiyədə təşkil olunan beynəlxalq bəstəkarlıq müsabiqəsində yüksək "Qran-pri" mükafatı qazanıb. Ötən ilin fevralında isə Aydan Əliyevanın Qara Qarayevin ev-muzeyində solo konserti olub.



Aydan Azərbaycan Dövlət Akademik Musiqili Teatrının xor kollektivində də çalışır. "Leyli və Məcnun" tamaşasında məharətlə oynadığı Leylinin bacısı rolu onun daha bir uğurudur.

**Müsahibimiz sonda gələcək planları barədə dedi:**

– Arzularım çoxdur, yeni layihələr üzərində işləyirəm. Respublikamızın tanınmış incəsənət ustalarının mahnılarımı ifa edib populyarlaşdırması məni qürurlandırır və yeni axtarışlara həvəsləndirir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Dünya çempionatı – 2026*

# Qrup mərhələsinin həlledici görüşləri başlayır

## *İordaniya millisi də mundialla vidalaşdı*



**Futbol üzrə Dünya çempionatında dünən keçirilən son 4 qarşılaşma I və J qruplarında dramatik mübarizə və tarixi rekordlarla yadda qalıb. Həmin matçlarda Argentina, Fransa, Norveç və Əlcəzair qələbə qazanaraq turnirdə-ki mövqelərini möhkəmləndirdilər.**



J qrupunda Argentina Avstriya oyunu 2:0 hesabı ilə cənubi amerikalıların xeyrinə başa çatdı. Qolları 38 və 90+5-ci dəqiqələrdə Lionel Messi vuraraq dubl etdi. İlk turda Əlcəzairə qarşı matçda het-trik edən Messi, bu oyundakı qolları ilə Dünya çempionatlarındakı ümumi qollarının sayını 18-ə çatdırdı və Miroslav Klozeni geridə qoyaraq turnir tarixinin ən çox qol vuran futbolçusu oldu. Argentina bu qələbə ilə 6 xal toplayaraq pley-off mərhələsinə vəsiqəni rəsmiləşdirdi. Avstriyanın isə 3 xalı var.

I qrupunnda Fransa çətinlik çəkmədən İraq millisinə qalib gəldi – 3:0. Görüşdə fransızların hücumçusu Kylian Mbappe 14 və 54-cü dəqiqələrdə vurduğu qollarla dubla imza ataraq komandasını önə çıxarıb – 2:0. Yekun nəticəni müəyyənləşdirən qolu isə 66-cı dəqiqədə Usman Dembele vurub – 3:0. Fransa millisi ardıcıl ikinci qələbəsini qazanaraq xalını 6-ya yüksəltdi və qrupdan çıxmağı təmin etdi. İraq isə ikinci məğlubiyyətə baxmayaraq pley-off şanslarını saxlayır.

Həmin qrupda Norveç Seneqal üzərində çətin qələbə qazandı – 3:2. Gərgin keçən görüşdə Norveç millisində Erling Haaland dubla imza atdı. İlk turda İraqa 4:1 hesabı ilə qalib gələn skandinaviyalılar bu qələbə ilə xalını 6-ya çatdırdı və Fransa ilə pley-offa vəsiqəni bölüşdürdü. Seneqal isə hələ də xal qazana bilməyib.

J qrupunda isə İordaniya Əlcəzairə məğlub oldu – 1:2.

İlk oyunda Argentinaya uduzan afrikalılar bu qələbə ilə xallarını 3-ə çatdıraraq qrupdan çıxmaq ümidlərini son tura saxladı. İordaniya isə xalsız qalaraq mübarizəni dayandırdı.

Dünən axşam K qrupunda ABŞ-ın Hyuston şəhərindəki Houston Stadiumda Portuqaliya millisi Özbəkistan yığması ilə qarşılaşıb. Gözlənildiyi kimi dünya futbolunun ulduzu Ronaldonun lider olduğu komanda özbəklər üzərində çətinlik çəkmədən qələbə qazanıblar–5:0. Qolları 6-cı və 39-cu dəqiqələrdə Kriştiano Ronaldo, 17-ci dəqiqədə Nunu Mendeş, 60-cı dəqiqədə Özbəkistan millisinin müdafiəçisi Abdukodir Xusanov öz qapısına (avtoqol), 87-ci dəqiqədə isə Rafael Leao vurub.

Bu qrupda keçirilən Kolumbiya – Konqo DR, L qrupunda İngiltərə – Qana və Xorvatiya – Panama görüşləri ilə qrup mərhələsində 2-ci turun oyunları başa çatıb.



Dünya çempionatında qrup mərhələsinin 3-cü turunun oyunları bu gün başlayır. Sonuncu turun ilk günündə A, B və C qruplarında yer alan 6 qarşılaşma eyni gündə paralel olaraq fərqli şəhərlərdə keçiriləcək.

B qrupunda Bakı vaxtı ilə saat 23:00-da İsveçrə – Kanada görüşü Vankuverin BC Place stadionunda, Bosniya və Herseqovina – Qətər matçı ABŞ-ın Sietl şəhərindəki Seattle Stadium / Lumen Field stadionunda, C qrupunda gecə saat 02:00-da Şotlandiya – Braziliya oyunu ABŞ-ın Mayami şəhərində Miami Stadiumda, Mərakeş – Haiti qarşılaşması ABŞ-ın Atlanta şəhərinin Atlanta Stadiumda, A qrupunda gecə saat 05:00-da Çexiya – Meksika mübarizəsi Mexikonun Estadio Azteca stadionunda, Cənubi Afrika (CAR) – Cənubi Koreya dueli isə Monterrey şəhərinin Estadio Monterrey / Estadio BBVA stadionunda keçiriləcək.

A, B və C qruplarında 3-cü tur öncəsi Meksika artıq pley-offa vəsiqəni təmin edib, digər 11 komanda isə növbəti mərhələ üçün ölüm-dirim mübarizəsinə çıxır. Yeni formata əsasən, qruplarda ilk 2 yeri tutanlarla yanaşı, 12 qrup arasında 8 ən yaxşı üçüncü yerin də sahibi mərhələ adlayacaq.

İlk oyun günündəki qrupların mövcud xal vəziyyəti və pley-off şansları aşağıdakı kimidir:

**A qrupunda** Meksika – 6 xal, Cənubi Koreya – 3 xal, Çexiya – 1 xal, CAR – 1 xal.

Çexiya – Meksika görüşündə Meksika artıq qrup liderliyini və pley-offu təmin edib. Çexiyaya qrupdan çıxmaq ümidini qorumaq üçün mütləq qələbə lazımdır.

CAR – Cənubi Koreya görüşün koreyalılara ikinciliyi qorumaq üçün heç-heçə kifayət edir. Amma CAR qalib gəlsə və Çexiya xal itirsə, CAR sensasiyalı şəkildə pley-offa yüksələ bilər.

**B qrupunda** hər şey aydındır. Kanada – 4 xal, İsveçrə – 4 xal, Bosniya və Herseqovina – 1 xal, Qətər – 1 xal.

İsveçrə – Kanada qarşılaşmasında heç-heçə hər iki komandaya sərf edir. Bu nəticə ilə hər ikisi 5 xalla növbəti mərhələyə rəsmən vəsiqə qazanacaq. Qələbə isə qalib komandanı qrup liderliyinə yüksəldəcək.

Bosniya və Herseqovina – Qətər matçında isə heç-heçə hər iki komandanı turnirdən kənarlaşdırır. Qalib gələn tərəf xalını 4-ə yüksəldərək ən yaxşı üçüncülərdən biri kimi mərhələ adlamaq şansı qazanacaq.

**C qrupunda** Haiti pley-off şanslarını itirib. Braziliya – 4 xal, Mərakeş – 4 xal, Şotlandiya – 3 xal, Haiti – 0 xal.

Şotlandiya – Braziliya mübarizəsində britaniyalıların 3 xalı var və pley-off üçün Braziliyadan xal qoparmalıdır. Braziliyaya isə qrupdan birbaşa çıxmaq üçün heç-heçə də kifayətdir.

Mərakeş – Haiti matçında isə Mərakeşə növbəti mərhələyə keçmək üçün 1 xal lazımdır.

Əlbəttə, bütün bunlar qarşıdakı oyunlardan gözləntilərlə bağlı proqnozlar idi. Nəticələrə daha yaxın olmaq, futbol həyəcanını canlı şəkildə hiss etmək üçün mundialı izləməyə davam edək.



***Q.YUSİFOĞLU***
***XQ***

*Maraq dünyamız*

# Türkiyədə “Çay tanrısı” mozaikası tapılıb

**Türkiyənin cənubunda yerləşən qədim Aspendos şəhərində aparılan arxeoloji qazıntılar zamanı eramızın III əsrinə aid nadir mozaika aşkar edilib. Tapıntı Şərq meydanında, akropolu Roma teatrı ilə birləşdirən qədim Teatr küçəsinin yaxınlığında yerləşir. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin elmi əhəmiyyətə malik kəşf kimi dəyərləndirdiyi bu sənət əsəri qədim şəhərin mədəni və sosial həyatına yeni işıq salır.**



Mozaikanın mərkəzində Çay tanrısı Evrimedonun təsviri yer alıb. Onun yanında su tökülən amfora, başında və əlində isə qamış yarpaqları təsvir olunub, ətrafında isə balıqlar üzür. Bu simvollar suyun bərəkət və həyatla olan birbaşa əlaqəsini simvolizə edir. Qədim yunan-Roma incəsənətində çay tanrıları adətən yetkin yaşda təsvir edilsə də, Evrimedonun burada gənc obrazda təqdim olunması səhnəyə xüsusi canlılıq qatır və təbiətin yenilənməsini təcəssüm etdirir.

Bu nadir sənət əsəri, təxminən, 6x25 metr ölçülərində olan bir tikilinin döşəməsini bəzəyir (hazırda sahənin yalnız 6x7,5 metrlik hissəsi qazılıb). Arxeoloqların ehtimallarına görə, bina ilkin olaraq qədim bir hovuz və ya su anbarı rolunu oynayıb, lakin eramızın 262-ci ilində baş verən güclü zəlzələdən sonra daha kiçik otaqlara bölünüb.

Mozaika yüksək bədii sənətkarlıq səviyyəsi ilə seçilir. O, “tesser” adlanan olduqca xırda rəngli daş elementlərdən yığılıb ki, bu da rənglərin rəvan keçidini təmin etməyə və fiqurları ən xırda detallarına qədər işləməyə imkan verib. Bu tapıntı Anadoluda Roma dövrünün mozaika sənətini, yerli landşaftın və şəhər tarixinin incəsənətlə sintezini öyrənmək baxımından əvəzsizdir. Möhtəşəm Roma teatrı və su kəmərləri (akveduklar) ilə məşhur olan Aspendos, bu yeni tapıntı ilə bəşəriyyətə qədim sivilizasiyaların çay kənarındakı rifahından bəhs edən yeni bir səhifə açır.

***Arzu ƏLİYEVA***
***XQ***

# “Gen redaktəsi” xolesterini yox edəcəkmi?

**Bir vaxtlar yalnız elmi fantastika əsərlərində təsvir edilən genlərin redaktə olunması artıq laboratoriyalardan çıxaraq klinik praktikaya doğru irəliləyir. 2026-cı ildə Amerika Birləşmiş Ştatlarında əldə edilən mühüm elmi nəticə göstərdi ki, gələcəyin təbabəti xəstəliklərin əlamətlərini deyil, həm də onların yaranma səbəblərini hədəfə almağa başlayıb.**

Dünyanın ən nüfuzlu tibb jurnallarından biri olan “Yeni İngiltərə Tibb Jurnalı”nda (The New England Journal of Medicine – NEJM) dərc edilən araşdırma bir dəfə tətbiq edilən gen terapiyası vasitəsilə yüksək xolesterinin uzunmüddətli şəkildə azaldılmasının mümkün olduğunu ortaya qoyub. Mütəxəssislər bu nailiyyəti genetik təbabətin inkişafında yeni mərhələ və ürək-damar xəstəliklərinə qarşı mübarizədə potensial dönüş nöqtəsi kimi qiymətləndirirlər.

Müasir dövrdə ürək-damar xəstəlikləri dünyada ölüm səbəbləri arasında ilk yerlərdən birini tutur. Bu xəstəliklərin əsas risk faktorlarından biri isə qanda aşağı sıxlıqlı lipoproteinlərin (LDL) – yəni “pis xolesterin”in yüksək səviyyədə olmasıdır. Milyonlarla insan ömür boyu xolesterinsalıcı preparatlar qəbul etsə də, alimlər daha effektiv və uzunmüddətli həll yolları axtarmaqda davam edirlər. Məhz bu səbəbdən gen mühəndisliyi sahəsində əldə olunan son nailiyyətlər elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

ABŞ-ın biotexnologiya şirkəti “Verve Therapeutics” tərəfindən hazırlanmış və sonradan “Eli Lilly” şirkətinin də dəstəklədiyi VERVE-102 preparatı gen redaktəsi texnologiyasına əsaslanır. Preparat qaraciyərdə xolesterinin tənzimlənməsində mühüm rol oynayan PCSK9 geninin fəaliyyətini zəiflətməklə qanda zərərli xolesterinin səviyyəsini aşağı salır. Ən diqqətçəkən cəhət isə bunun daimi dərman qəbulu olmadan, birdəfəlik müdaxilə vasitəsilə həyata keçirilməsidir.

Birinci faza klinik sınaqlarında yüksək ürək-damar riski daşıyan 35 nəfər iştirak edib. Araşdırmanın nəticələrinə görə, preparatın yüksək dozaları tətbiq edilən iştirakçılarda LDL xolesterinin səviyyəsi orta hesabla 62 faiz azalıb. Eyni zamanda, PCSK9 zülalının səviyyəsində 88 faizə qədər enmə qeydə alınıb. Alimlərin açıqlamasına əsasən, əldə edilən nəticələr qısamüddətli olmayıb və təsir aylarla davam edib. Sınaqlar zamanı ciddi təhlükəsizlik problemi və ya ağır əlavə təsirlər müşahidə olunmayıb.

Tədqiqat müəllifləri hesab edirlər ki, bu texnologiya gələcəkdə ürək-damar xəstəliklərinin profilaktikası və müalicəsinə yanaşmanı kökündən dəyişə bilər. Hazırda milyonlarla insan hər gün dərman qəbul etməyə məcburdursa, gələcəkdə bir dəfə tətbiq edilən gen terapiyası uzunmüddətli nəticə əldə etməyə imkan verə bilər. Bu isə həm xəstələrin həyat keyfiyyətinin yüksəlməsi, həm də səhiyyə sistemlərinin yükünün azalması baxımından mühüm əhəmiyyət daşıyır.




Son illərdə gen terapiyası sahəsində əldə olunan uğurlar göstərir ki, tibb yeni inkişaf mərhələsinə qədəm qoyub. Əvvəllər yalnız nadir irsi xəstəliklərin müalicəsi üçün nəzərdə tutulan gen redaktəsi texnologiyaları artıq geniş yayılmış xroniki xəstəliklərə də tətbiq edilməyə başlayıb. Bu tendensiya yaxın gələcəkdə bir çox xəstəliklərin müalicəsində inqilabi dəyişikliklərə səbəb ola bilər.

VERVE-102 ilə bağlı tədqiqatların növbəti mərhələləri hələ davam edir. Bununla belə, artıq indidən aydın görünür ki, alimlər xəstəliklərlə mübarizədə yeni istiqamət müəyyənləşdiriblər. Əgər sonrakı klinik sınaqlar da uğurla başa çatarsa, XXI əsrin üçüncü onilliyi tibbin tarixində gen terapiyalarının geniş tətbiq olunduğu dövr kimi yadda qala bilər. Bu gün laboratoriyada əldə edilən nəticələr sabah milyonlarla insanın həyatını dəyişdirə biləcək yeni müalicə üsullarının əsasını qoyur. Məhz buna görə beynəlxalq elmi ictimaiyyət 2026-cı ildə açıqlanan bu araşdırmanı son illərin ən mühüm tibbi nailiyyətlərindən biri hesab edir.

***Nurəngiz ADİLQIZI***
***XQ***


# “Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

28 iyul 2026-cı il saat 11.00-da, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153 nömrəli ünvanda yerləşən “Port Baku Towers 2” ofisində (17-ci mərtəbədə yerləşən “Silicon Valley” otağı) Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

“Kapital Bank” ASC tərəfindən 2025-ci ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi – məruzəçi: Zaur Musayev.

“Kapital Bank” ASC-nin müşahidə şurasının əsasnaməsinə dəyişiklik edilməsi haqqında – məruzəçi: Arif Mehdiyev.



## “Bakı Mexaniki Təmir” QSC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA/065 saylı icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov müstəqil auditor rəyini 2026-cı il iyunun 22-də 2025-ci ilin maliyyə hesabatının auditini apararaq müsbət auditor rəyi ilə rəsmiləşdirmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 109 (31078) 24 iyun 2026-cı il, çərşənbə

## İDMAN

# Nazir qadın futbolçularla görüşüb



**Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın qadın futbolu üzrə milli komandası ilə görüşüb. Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, görüşdə nazir komandanı əldə etdiyi uğurlu nəticə münasibətilə təbrik edib, qadın futbolunun inkişafının və qızların idmana cəlb olunmasının vacibliyini vurğulayaraq futbolçulara gələcək yarışlarda uğurlar arzulayıb.**

Görüşdə milli komandanın üzvləri və məşqçilər heyətinin nümayəndələri də çıxış edərək göstərilən diqqət və dəstəyə görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, qadınlar arasında dünya çempionatı–2027-nin seçmə mərhələsində qrupdakı son oyununda Şimali Makedoniya yığmasını 3:1 hesabı ilə məğlub edən Azərbaycan milli komandası qrup mərhələsini 12 xalla ikinci pillədə başa vurub.

# 5-ci LANDAU Şahmat Festivalı başa çatıb



**Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının dəstəyi, LANDAU School-un təşkilatçılığı ilə keçirilən 5-ci LANDAU Şahmat Festivalı uğurla yekunlaşıb.**

Yarış 8, 10 və 12 yaşadək oğlan və qızlar arasında fərdi formatda təşkil olunub.

5-ci LANDAU Şahmat Festivalı üzrə əsas qalib Yusif Əhədzadə olub. O, 11-18 oktyabr tarixlərində Gəncədə keçiriləcək “Ganja Open 2026” Şahmat Festivalında iştirak hüququ qazanıb. Qalibin yarışla bağlı bütün xərcləri LANDAU School tərəfindən qarşılanacaq. Festivalın əsas qalibi kubok və diplomla təltif olunub.

8 yaş qrupu üzrə qızlar arasında Nərmin Mahmudova, oğlanlardan Məhəmməd Mirzəyev, 10 yaş qrupu üzrə qızlardan Əsəl Tağızadə, oğlanlardan Renat Məmmədrzayev, 12 yaş qrupu üzrə qızlardan Xanımzər Hümbətli, oğlanlardan isə Yusif Əhədzadə I yeri tutublar.

Qeyd edək ki, turnirdə Azərbaycanın müxtəlif şəhər və rayonlarından 225 yeniyetmə şahmatçı mübarizə aparıb. Festivalın sonunda bütün iştirakçılara sertifikatlar təqdim olunub.

# Avropa bilyardçıları Bakıda




**Bakıda təşkil olunacaq bilyardın “sərbəst piramida” növü üzrə Avropa çempionatında 10-dan çox ölkədən 100-dən çox idmançı iştirak edəcək.**

Azərbaycan Bilyard Federasiyasının marketinq direktoru Mir Azad Əliyevin verdiyi məlumata görə, yarışlar Bakı Olimpiya İdman Kompleksində keçiriləcək.

O qeyd edib ki, Azərbaycanda ikinci dəfə təşkil olunacaq “sərbəst piramida” üzrə Avropa çempionatına maraq böyükdür. Turnirdə 50-dən çox azərbaycanlı idmançı da qüvvəsini sınayacaq. Xarici bilyardçılar yarışın başlamasına 2 və ya 3 gün qalmış paytaxta gələcəklər.

Proqrama əsasən, iyulun 5-8-də 40 yaşdan yuxarı idmançılar arasında Avropa Kuboku keçiriləcək. İyulun 8–12-də isə “sərbəst piramida” üzrə Avropa çempionatı baş tutacaq. Bu növ üzrə turnir Azərbaycanda 2-ci dəfə keçirilir.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Sağlamlıq

# Ağrını dərmanlarla keyləşdirmək sağalmaq deyil...

## *Xilas yolu həkim müalicəsi və sağlam həyat tərzidir*

**Müasir dövrdə baş, diş və ya oynaq ağrıları zamanı ilkin tibbi yardım vasitəsi kimi ağrıkəsicilərə (analgetik) müraciət etmək adi hala çevrilib. Apteklərdə reseptsiz satılan bu preparatlar tez bir zamanda iş qabiliyyəti və gümrahlığın bərpasına kömək etsə də, ağrı-acı tam yox olmur. Nevrologiya sahəsində aparılan araşdırmalar göstərir ki, onlar orqanizmdəki problemin ilkin səbəbini aradan qaldırmır, əksinə, ötəri yüngülləşdirmədən sonra ciddi fəsadlar baş qaldırır.**



Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, dünya üzrə xroniki baş ağrılarından əziyyət çəkən insanların təxminən 50 faizi məhz analgetiklərin qaydasız və normadan artıq qəbulu səbəbindən səhhətlərində problemlər yaşayırlar. Təcrübələr göstərir ki, bu qrup dərman asılılığı olan pasiyentlərin müalicəsi mürəkkəb və uzun zaman tələb edən prosesdir.

Beynəlxalq təcrübəyə və inkişaf etmiş ölkələrin tibbi qanunvericiliyinə nəzər saldıqda, bu sahədə çox sərt tənzimləmə və nəzarət mexanizmlərinin tətbiq edildiyini görmək olar. Məsələn, ABŞ, Böyük Britaniya, Kanada və Avropa İttifaqı dövlətlərində parasetamol və ya ibuprofen kimi geniş yayılmış zəif analgetiklər reseptsiz satılsa da, onların eyni anda bir müştəriyə verilən həb sayı və doza hədləri ciddi şəkildə məhdudlaşdırılır. Belə ki, Böyük Britaniyada apteklərdən reseptsiz maksimum 16 və ya 32 ədəd parasetamol həbi almaq mümkündür. İbuprofenin isə yalnız 200 mq-lıq aşağı dozaları limitsiz almaq olur. Bu maddənin 400–600 mq-lıq yüksək və effektiv dozaları üçün mütləq ailə həkiminin rəsmi təyinatı tələb olunur.

Daha güclü təsir göstərən, tərkibində nimesulid (nimesil), ketorolak, diklofenak kodein və ya tramadol kimi opioid (narkotik qrup) maddələr olan spesifik preparatlar isə potensial toksiki yan təsirləri, daxili mədə qanamaları, kəskin qaraciyər çatışmazlığı və yüksək asılılıq yaratma riskləri nəzərə alınaraq, yalnız həkimin fərdi elektron resepti əsasında, mərkəzləşdirilmiş sistem üzərindən qeydiyyatla xəstələrə verilir. Bir çox Qərb ölkələrində isə bu qrup dərmanlar ev şəraitində deyil, əsasən cərrahiyyə əməliyyatlarından sonrakı kəskin stasionar mərhələ üçün nəzərdə tutulur.

Son illərdə ölkəmizdə də dərman vasitələrinin dövriyyəsinə ciddi nəzarət olunur, rəqəmsal səhiyyə islahatları çərçivəsində “e-resept” sisteminin tətbiqi genişləndirilir. Elektron infrastrukturun inkişafı və tibbi-hüquqi mexanizmlərin təkmilləşdirilməsi vətəndaşların təhlükəsiz dərman təminatına xidmət etməklə yanaşı, əhalini özbaşına və nəzarətsiz preparat qəbulundan çəkindirmək məqsədi daşıyır.

**Mövzu ilə bağlı nevropatoloq Əminə İmanova XQ-yə bildirdi ki, ağrıkəsicilər xəstəliyi müalicə etmir, sadəcə, bədənin zədələnmiş nahiyəsindən beyinə gedən “təhlükə siqnallarını” kimyəvi yolla keyləşdirərək insanı müvəqqəti sakitləşdirir:**



– Xəstələrin ən çox yanıldığı məqam ağrıkəsicilərin bədəndəki təsir mexanizmilə bağlı məlumatlı olmamasıdır. İnsan orqanizmində hər hansı toxuma zədələnməsi və ya iltihab baş verdikdə, həmin nahiyədə prostaqlandin adlı kimyəvi maddələr sintez olunur və sinir ucluqlarını qıcıqlandıraraq beyinə elektrik impulsları ötürür.

Xəstə ağrıkəsici içdikdə, dərman problem ocağını müalicə etmir. O, sadəcə, bədəndə həmin maddələrin sintezini dayandırır, sinir ötürücülərinin fəaliyyətini məhdudlaşdırır və beyin qabığının mövcud patologiyadan məlumat almasını əngəlləyir. Nəticədə, daxili problem yerində qalsa da, beyin siqnalı qəbul edə bilmədiyi üçün insan ağrının keçdiyini düşünür.

**Davamlı ağrıkəsici qəbulunun beynin təbii müdafiə sistemini zəiflədərək asılılıq və daha şiddətli ağrılar yaratdığını deyən mütəxəssis, əsl bioloji səbəbi müəyyənləşdirmək üçün vaxtında həkimə müraciət etməyin vacibliyini vurğuladı:**

– Bu preparatlardan nəzarətsiz və davamlı istifadə zamanı daha ciddi nevroloji fəsad meydana çıxır. Baş beyin kənardan davamlı olaraq kimyəvi bloklayıcı maddə qəbul etdikdə, təbii ağrıkəsici hormonları olan endorfin və ensefalinlərin sintezini minimuma endirir. Bu uyğunlaşma nəticəsində bədənin ağrıya həssaslığı kəskin şəkildə artır. Belə vəziyyətdə insan çıxılmaz vəziyyətə düşür: başı ağrıyan kimi dərman atır, onun qandakı təsiri keçən kimi isə müdafiəsiz qalan beyin daha şiddətli ağrı siqnalı göndərir. Nəticədə, insan ağrını kəsmək üçün məcbur qalıb yenidən və daha tez-tez həb qəbul etməli olur.

Təcrübəmizdə baş və əzələ ağrılarından şikayət edən bir çox pasiyentin məhz bu cür dərman asılılığından əziyyət çəkdiyini görürük. Belə hallarda dərmanlar kömək etmək əvəzinə, daha kəskin fəsadlar yaradır. İnsanlar bilməlidirlər ki, ağrını kor-koranə, yalnız dərman atmaqla yatırtmaq çıxış yolu deyil, patalogiyanın kökünü tapmaq lazımdır. İstər boyun fəqərələrinin disfunksiyası, istərsə də damar mənşəli amilləri ilkin mərhələdə ixtisaslaşmış həkim mütəxəssis müəyyən etməlidir.

**Həkim-terapevt Nübar Xəlilova isə söylədi ki, iltihab əleyhinə və parasetamol tərkibli ağrıkəsicilərin nəzarətsiz qəbulu orqanizmdə ciddi fəsadlara səbəb olur:**



– Gündəlik həyatda tez-tez istifadə olunan qeyri-steroid iltihab əleyhinə preparatlar ağrını və qızdırmanı azaltsa da, mədənin qoruyucu selikli qişasına mənfi təsir göstərir. Bu səbəbdən onların uzunmüddətli və ya acqarına qəbulu qastrit, mədə xorası və mədə-bağırsaq qanaxması təhlükəsini artırır. Bundan əlavə, həmin dərmanlar bədəndə su və duz balansına təsir göstərərək arterial təzyiqin yüksəlməsinə yol açır ki, bu da ürək-damar sistemi üçün əlavə yük yaradır.

Dərmanların orqanizmdən təmizlənməsində əsas yük qaraciyər və böyrəklərin üzərinə düşür. Xüsusilə parasetamol tərkibli ağrıkəsicilərin yüksək dozada və ya tez-tez qəbulu qaraciyər hüceyrələrinə zərər vuraraq ciddi fəsadlara, uzunmüddətli istifadəsi isə böyrək funksiyasının pozulmasına səbəb ola bilər.

**Mütəxəssis qeyd etdi ki, bəzi ağrıkəsicilər yalnız həkim nəzarəti və ciddi doza ilə qəbul edilməlidir:**

– Reseptlə təyin olunan opioid qrupuna aid güclü ağrıkəsicilər mərkəzi sinir sisteminə təsir edir. Onlar kəskin ağrıları azaltmaqla yanaşı, bəzi hallarda beyində rahatlıq və xoş əhval hissi yaradaraq fiziki və psixoloji asılılığa gətirib çıxarır. Eyni zamanda, bu dərmanlar həzm sisteminin fəaliyyətini zəiflədərək qəbizliyə, tənəffüs mərkəzinə təsir edərək isə nəfəsalma problemlərinə yol açır.

Unutmaq olmaz ki, ağrıkəsicilər xəstəliyin əsas səbəbini aradan qaldırmır, yalnız ağrı hissini müvəqqəti kütləşdirir. Onlardan həkimlə məsləhətləşmədən və nəzarətsiz istifadə etmək xroniki baş ağrılarının artmasına, eləcə də orqanizmin dərmana qarşı dözümlülük qazanaraq daha yüksək dozaya ehtiyac duymasına səbəb ola bilər. Buna görə də ağrıkəsici preparatlardan istifadə edərkən diqqətli olmalı, təhlükəsizlik üçün qəbul müddəti və dozası mütləq nəzərə alınmalıdır.

Mütəxəssislərin rəylərindən də görünür ki, ağrı bir növ bədənimizin müdafiə mexanizmi, daxildə baş verən hər hansı nasazlıq barədə reaksiyasıdır, onu kortəbii şəkildə dayandırmaq isə problemin daha da dərinləşməsinə şərait yaratmaq deməkdir. Uşaq kənardan bir təhlükə görəndə necə ağlayıb valideynini köməyə çağırırsa, bədənimizdəki ağrı da orqanizmimizin imdad çağırışıdır. Onu, sadəcə, bir həblə susdurmağa çalışmaq daxildəki təhlükəni aradan qaldırmır, əksinə, bədənimizin fəryadına diqqətsizlik yaradır. Unutmayaq ki, sağlamlığımızı qorumağın yeganə yolu vaxtında və düzgün müalicədir.

*Elenora HƏSƏNOVA*
*XQ*

## HAVA

# Bakıda axşam yağış, rayonlarda yağıntı və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Gecəyə doğru yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturunun gecə 20-23, gündüz 29-34 dərəcə isti olacağı bildirilir.

Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət isə gecə 60-65, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, axşam yağıntıların bir qədər güclənəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 21-25, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 17-22, bəzi yerlərdə 25-28 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

✓ ***2022-ci ildə Bakı Biznes Universiteti tərəfindən Nəcəfov Cavad Camal oğlunun adına verilmiş 198743 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Mahmudova Aygün Hamlet qızının adına verilmiş tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması barədə “Mamalıq işi” ixtisası üzrə 4041 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi iş yoldaşları Elgiz Bağırzadəyə atası

**SÜCƏDDİN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ələsgər Novruzova anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti, Həmkarlar İttifaqı Komitəsi maliyyə və uçot şöbəsinin mütəxəssisi Limunət Əbdülkərimovaya həyat yoldaşı

**NEMƏT ƏBDÜLKƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Neft Fondunun kollektivi iş yoldaşları

**RAUF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti kriminalistika və məhkəmə ekspertizası kafedrasının əməkdaşları cinayət hüququ və kriminologiya kafedrasının dosenti Cabir Quliyevə atası, professor

**MƏHƏMMƏD QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 812
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00